RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 229 (9974) 25 oktyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Şanlı Zəfərə aparan yol



## Vladimir Putin İlham Əliyevə zəng edib



Oktyabrın 24-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Azərbaycan və Rusiya prezidentləri Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində oktyabrın 9-da keçirdikləri görüşün davamı olaraq ikitərəfli gündəliyin bir sıra aktual məsələlərini müzakirə ediblər.

Dövlət başçıları iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsinə, həmçinin enerji və nəqliyyat-logistika sahələrində birgə layihələrin həyata keçirilməsinə qarşılıqlı maraqlarını təsdiqləyiblər.

Telefon söhbəti zamanı regional əməkdaşlığın bəzi aspektlərinə və beynəlxalq vəziyyətə toxunulub.

Müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.

***Prezidentin Mətbuat xidməti***

## Qubadlının azadlığı müharibənin taleyini həll etdi

Prezident İlham Əliyevin 2021-ci il oktyabrın 25-də imzaladığı "Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" sərəncama əsasən, bu gün Qubadlıda da yenidənqurma və bərpa işləri görülür. Digər işğaldan azad olunmuş rayonlarımız kimi, Qubadlı da əzəli sahiblərini qarşılamağa hazırlaşır.

Qubadlı şəhəri beynəlxalq hava limanlarının fəaliyyət göstərdiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla, kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.

Qubadlıda Zabuxçay su anbarı da tikilərək istifadəyə verilib.

Prezident İlham Əliyev tərəfindən Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq Mərkəzi Xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməlləri qoyulub.

Məhəllə şəhərin təsdiq edilmiş ümumi baş planına uyğun salınır. Ümumilikdə məhəllədə 156 mənzilin tikintisi nəzərdə tutulur. Əsası qoyulan Xanlıq kəndi Qubadlı rayonunun mərkəzindən 16 kilometr məsafədə, Həkəri çayının sahilində yerləşir. Yaşayış məntəqəsinin layihələndirilən ərazisi kəndin köhnə ərazisini əhatə edir və ümumi sahəsi 273 hektardan çoxdur.

4

## Bərpa, yenidənqurma və dirçəliş dövrü



Ağır müharibədən çıxsa da, işğaldan azad etdiyi bölgələri iqtisadiyyatının gücü sayəsində yenidən quran Azərbaycan öz maliyyə vəsaiti hesabına bu yerlərdə meqalayihələr icra edir. Qarabağ və Şərqi Zəngəzurda quruculuğa start verilməsindən ötən müddət ərzində dövlət büdcəmizin əsas prioritetlərindən biri də Böyük qayıdışın həyata keçirilməsidir. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclərin (Böyük Qayıdış I planının layihəsi) 2026-2029-cu illərdə 13,5 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bunun da əsaslı xərclərdə xüsusi çəkisi 23,5 faizdir.

7

## Cənubi Qafqazda sülhün açarı regionun öz əlindədir




Azərbaycan həmişə regionda sülhün, sabitliyin və qarşılıqlı etimadın tərəfdarı olub. Uzun illər davam edən münaqişədən sonra sülh sazişinin imzalanması təşəbbüsünün müəllifi də məhz Azərbaycandır.

Ermənistana yük tranzitinin açılması dövlətimizin sülhə sadiqliyinin ən yaxşı nümunəsidir. Bu addım həm də Azərbaycanın bölgədə qarşılıqlı etimad mühitini möhkəmləndirməyə yönəlmiş müdrik siyasətinin davamıdır. Ermənistanın Baş naziri Nikol Paşinyan və bir sıra erməni rəsmilərinin Prezident İlham Əliyevin bu qərarını alqışlaması da bunu təsdiqləyən faktdır.

5

## Böyüklük nümunəsi



Bu günlər Cənubi Qafqazda diqqətçəkən bir hadisə baş verdi - Qazaxıstan taxılı Ermənistana Azərbaycan üzərindən ixrac olundu. İlk baxışda bu, sadəcə iqtisadi-logistik əməliyyat olsa da, əslində, regionun geosiyasi mənzərəsində yeni bir səhifənin açılması demək idi.

Həmin marşrutun reallaşması təkcə nəqliyyat dəhlizlərinin genişlənməsini deyil, həm də uzun illər bir-birinə qarşı düşmən münasibəti sərgiləmiş Azərbaycan və Ermənistan arasında etimadın formalaşmasının mümkünlüyünü göstərirdi. Cənubi Qafqazda sülhün iqtisadi körpülər üzərindən qurulması ideyası son zamanlar tez-tez səslənsə də, real addımlar az idi. Qazaxıstanın bu addımı həmin konsepsiyanın praktik təcəssümü sayıla bilər. Hadisənin baş verməsi həm də onunla bağlıdır ki, Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb. Prezident İlham Əliyevin sözlərinə görə, ilk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınması olub.

8

## Erməni cəmiyyətində revanşistlərə inam qalmayıb



Son günlər revanşistlərin həbsləri ilə bağlı Ermənistan cəmiyyətində müəyyən yumşalma, mülayimləşmə açıq-aydın hiss olunmaqdadır. Artıq İrəvanda yaxşı başa düşürlər ki, Azərbaycanla hərbi və siyasi rəqabət aparmaq, Qarabağı yenidən işğal etmək mümkün olmayan bir işdir, necə deyərlər, "şirin" xəyaldır.

Revanşist qüvvələrə rəhbərlik edən Sarkisyan-Koçaryan cütlüyünün sərsəm çıxışları isə reallıqdan uzaqdır. Erməni cəmiyyəti üçün zərərli olan belə qüvvələrin həbsi isə Ermənistanın gələcəyinin xilasıdır. Bu çılpaq həqiqəti indi erməni xalqının əksər hissəsi yaxşı anlayır. Ona görə də revanşistlərin həbsinə cəmiyyətdə elə bir ciddi etiraz hiss olunmur. Deməli, erməni xalqı revanşistlərin deyil, sülhün, əmin-amanlığın tərəfindədir.

8

## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

6

## S.S.Səfərovun Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sərdar Süleyman oğlu Səfərov Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

## S.S.Səfərova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi Sərdar Süleyman oğlu Səfərova "general-mayor" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

## İ.R.Abbasovun Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. General-mayor İlqar Rza oğlu Abbasov Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

## "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il sentyabrın 26-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

## Yardımlı rayonunun Yardımlı-Deman-Arvana avtomobil yolunun təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İki min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Yardımlı-Deman-Arvana avtomobil yolunun dağılmış hissəsinin bərpası və istinad divarlarının tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 2,0 (iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

## "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 317** **Bakı şəhəri, 23 oktyabr 2025-ci il**

"Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 avqust tarixli 491 nömrəli Fərmanının 6.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının (Xidmətin rəhbərliyinə aid olan hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin (2 nömrəli əlavə).

3. "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri" təsdiq edilsin (3 nömrəli əlavə).

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşları üçün tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bakı Arbitraj Mərkəzinin açılışına həsr olunmuş beynəlxalq konfrans

**Ölkəmizin paytaxtında Bakı Arbitraj Mərkəzinin açılışına həsr olunmuş beynəlxalq konfrans təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, tədbirin məqsədi dünyanın müxtəlif regionlarında arbitraj sahəsində fəaliyyət göstərən peşəkar hüquqşünaslar arasında bilik mübadiləsini təşviq etmək, dövlət və özəl sektorda çalışan hüquqşünaslar arasında əməkdaşlığı gücləndirmək, eləcə də Azərbaycanda arbitraj sektorunun inkişafı istiqamətində müzakirələr üçün dinamik platforma yaratmaqdır.

Konfransda 600-dən çox iştirakçı, o cümlədən 70-dən artıq dövlət rəsmisi, hüquqşünas, xarici qonaq iştirak edib.

Tədbirdə Bakı Arbitraj Mərkəzinin sədri Kəmalə Mehdiyeva çıxış edərək bildirib ki, mərkəz yüksək beynəlxalq standartlara uyğun olaraq yaradılıb. Digər arbitraj mərkəzləri kimi, Bakı Arbitraj Mərkəzinin də müvafiq qərarları olacaq: "Arbitraj qaydaları hazırdır. Bu qaydalar rus, fransız və türk dillərində də tərtib olunacaq. Həmçinin "Bakı Arbitraj hüququ" adlı jurnal tərtib etmişik. Bu, ixtisaslaşmış hüquq jurnalıdır. Jurnal ildə 2 dəfə Azərbaycan və ingilis dillərində çap olunacaq".







Ali Məhkəmənin sədri İnam Kərimov çıxışında qeyd edib ki, məhkəmələr və arbitraj bir-birinə rəqib deyil. Azərbaycan arbitrajı əsas beynəlxalq müqavilələrin, o cümlədən 1958-ci il Nyu York Konvensiyasının iştirakçısıdır: "Arbitrajın yaxşı işləməsi üçün bizə güclü institutlar, qanunları ardıcıl və dürüst şəkildə tətbiq edən məlumatlı hakimlər lazımdır. Fədakar və peşəkar heyəti, eyni zamanda beynəlxalq standartlara uyğun fəaliyyəti ilə mərkəz Azərbaycanın ədalətli və şəffaf mübahisə həllinə olan sadiqliyini nümayiş etdirir. Bu, arbitraja olan etimadı artıracaq və Azərbaycanda qanunun aliliyini daha da möhkəmləndirəcək. Arbitrajın uğurla həyata keçirilməsi üçün müvafiq institutlarla məhkəmə sistemləri arasında əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir".

Ədliyyə naziri Fərid Əhmədov vurğulayıb ki, Azərbaycanda beynəlxalq arbitraj proseslərinə dərindən bələd olan, bu sahədə ixtisaslaşmış yeni nəsil gənc hüquqşünaslar formalaşıb: "Onlar təkcə beynəlxalq arbitraj məhkəmələrində iş aparmaq bacarığına malik deyillər, eyni zamanda müxtəlif arbitraj panellərində arbitr kimi fəaliyyət göstərmək imkanına da sahibdirlər. Bakı Arbitraj Mərkəzinin yaradılması Azərbaycanın hüquq sisteminin beynəlxalq arenaya inteqrasiyası və ədalətli mübahisə həlli mexanizmlərinin qurulması istiqamətində mühüm addımdır".

Avropa İttifaqı Şurasının keçmiş prezidenti Şarl Mişelin sözlərinə görə, arbitraj dövlətlərə, şirkətlərə və beynəlxalq investorlara sakit, etibarlı və ədalətli mühitdə fikir ayrılıqlarını həll etmək imkanı verir: "Vasitəçilikdən və barışdırmadan fərqli olaraq, arbitraj məhkəmə qüvvəsinə malik bağlayıcı qərar çıxarır. Bu, hüquqi aydınlıq və sabitlik yaradır. Daimi məhkəmələrdən fərqli olaraq, arbitraj prosesi çevikdir. Tərəflər öz arbitrlərini seçə, qaydalarını müəyyənləşdirə və nəticənin obyektivliyinə inanaraq bu prosesi şəffaf şəkildə idarə edə bilirlər. Bu baxımdan, arbitraj yalnız hüquqi mexanizm deyil, həm də etimadın, sülhün və hüququn üstünlüyünün simvoludur".

Xüsusi Hüququn Unifikasiyası üzrə Beynəlxalq İnstitutun keçmiş prezidenti Maria Chiara Malaguti deyib ki, regionda iqtisadi inteqrasiyanın, ticarət və investisiya əməkdaşlığının inkişafı üçün etibarlı hüquqi mühitin yaradılması vacibdir. Bu baxımdan, Bakıda Beynəlxalq Arbitraj Mərkəzinin təsis edilməsi çox mühüm və vaxtında atılmış addımdır. "Bu mərkəz təkcə hüquqşünaslar və mütəxəssislər üçün deyil, həm də ölkə və region üçün strateji imkan yaradır. Çünki arbitraj mübahisələrin sülh, qarşılıqlı hörmət və hüququn aliliyi prinsipləri əsasında həllinə xidmət edir. Arbitrajın əsas üstünlüyü onun elastikliyi və tərəflərə verdiyi azadlıqdır. O, iştirakçılara qaydaları özləri müəyyən etmək, münasibətləri pozmadan fikir ayrılıqlarını aradan qaldırmaq imkanı yaradır. Bu mərkəzin yaradılması Azərbaycan üçün həm investisiya mühitinin etibarlılığını artırmaq, həm də regional hüquqi infrastrukturun güclənməsi baxımından əhəmiyyətlidir".

Çıxışlardan sonra tədbir panel müzakirələrlə davam edib.

# Ceyhun BAYRAMOV: "Bu gün imzalanan sənəd Azərbaycan-BMT tərəfdaşlığında yeni mərhələnin başlangıcını qoyacaq"

**Oktyabrın 24-də xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının (BMT) 80 illik yubileyinə həsr olunmuş tədbirdə çıxış edib.**









Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov çıxışında BMT-nin çoxtərəfli diplomatiyanın əsas dayaqlarından biri kimi mühüm rolunu vurğulayaraq təşkilatın 80 illiyi münasibətilə təbriklərini çatdırıb. O, Azərbaycanın BMT-nin fəal və məsuliyyətli üzvü kimi qurumun əsas orqanlarında, o cümlədən 2012-2013-cü illərdə Təhlükəsizlik Şurasında, həmçinin üç dəfə İqtisadi və Sosial Şurada təmsil olunduğunu qeyd edib.

Ceyhun Bayramov Azərbaycan Respublikasının qlobal arenada artan nüfuzunun və liderliyinin BMT-nin əsas təşəbbüslərinə verdiyi töhfələrlə daha da möhkəmləndiyini diqqətə çatdırıb. Bu kontekstdə Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi, 2016-cı ildə Sivilizasiyalar Alyansının Qlobal Forumuna və 2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi etməsi xüsusi qeyd olunub.

Xarici işlər naziri 2026-cı ildə Azərbaycanın BMT-nin iki mühüm tədbirinə - Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) və Ümumdünya Ətraf Mühit Gününə evsahibliyi edəcəyini xatırladıb. O, bu tədbirlər ilə iqlim fəaliyyəti və davamlı urbanizasiya arasındakı qarşılıqlı əlaqəni vurğulayaraq Azərbaycanın "yaşıl enerji" keçidinə və qlobal iqlim diplomatiyasındakı aparıcı roluna sadiqliyini nümayiş etdirdiyini diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın BMT-nin Qlobal Gündəliyi ilə tam uzlaşaraq Dayanıqlı İnkişaf Məqsədlərinin irəlilədilməsi, rəqəmsal innovasiyaların tətbiqi, qadınların və gənclərin hüquq və imkanlarının artırılması, humanitar təşəbbüslər və mədəniyyətlərarası dialoqun təşviqinə xüsusi önəm verdiyini qeyd edib. Həmçinin bildirib ki, 2021-2025-ci illəri əhatə edən Azərbaycan-BMT Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədinin icrası uğurla yekunlaşdırılıb, bu gün imzalanan 2026-2030-cu illər üzrə yeni sənəd Azərbaycan-BMT tərəfdaşlağında yeni mərhələnin başlanğıcını qoyacaq.

Ceyhun Bayramov Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən sonra işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa, yenidənqurma, Cənubi Qafqazda sabitlik və əməkdaşlıq mühitinin yaradılması istiqamətindəki atılan mühüm addımlardan danışıb. O, bu il avqustun 8-də Vaşinqtonda imzalanmış Birgə Bəyannamənin və digər əldə olunmuş tarixi razılıqların regionda sülh prosesinin irəlilədilməsində əhəmiyyətli mərhələ olduğunu qeyd edib.

Nitqinin sonunda nazir Ceyhun Bayramov tərəfdaşlığı gücləndirərək yeni əməkdaşlıq istiqamətlərini araşdırmağa və daha sülhsevər, ədalətli və dayanıqlı dünya qurmaq üçün birgə səyləri artırmağa çağırış edib.

Tədbirin yekununda 2026-2030-cu illər üzrə Azərbaycan-BMT Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədi imzalanıb.

# Bakıda "SOCGOV 2025" beynəlxalq konfransı keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin təşəbbüsü ilə Bakıda "SOCGOV 2025: Süni intellekt insan və transformasiya üçün" mövzusunda beynəlxalq konfrans keçirilib.**





AZƏRTAC xəbər verir ki, "Gülüstan" sarayında təşkil olunan konfransda hökumət rəsmiləri, Milli Məclisin deputatları, qeyri-hökumət, beynəlxalq təşkilatların nümayəndələri, yerli və beynəlxalq ekspertlər, 20-yə yaxın ölkədən 350 nəfərə yaxın şəxs iştirak edib.

Tədbir Dövlət himnimizin səsləndirilməsi və DOST Agentliyinin fəaliyyətinə həsr olunan videoçarxın nümayişi ilə başlayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev tədbiri giriş sözü ilə açaraq bildirib ki, bu konfrans, eyni zamanda, DOST Agentliyinin yeni "SocGov" brendinin ilk dəfə təqdim olunması ilə sosial idarəetmədə innovasiyaların və düşüncə tərzinin yeni mərhələsinin başlanğıcını ifadə edir.

Prezident İlham Əliyevin sosial sahədə siyasətinin mərkəzində insan amilinin dayandığını bildirən nazir bunun nəticəsi olaraq son illərdə sosial sahədə ardıcıl və dərin islahatların həyata keçirildiyini, 2018-2025-ci illərdə reallaşdırılan 5 böyük sosial islahat paketinin nailiyyətlərini, sosial ödənişlərdəki ciddi artımları diqqətə çatdırıb.

Sosial ədalətin, şəffaflığın təminatı, sosial sahədə xidmətlərin operativ göstərilməsi, inzibati metodlardan xidmət modelinə keçid istiqamətində aparılan işləri qeyd edən Anar Əliyev Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyasının bu istiqamətdə mühüm əhəmiyyətini vurğulayıb. O, DOST konsepsiyasının beynəlxalq uğurlarını, bir sıra ölkələrdə - Moldova, Özbəkistan və Serbiyada bu təcrübənin tətbiqinə xüsusi maraq göstərildiyini qeyd edib. Dövlət sosial xidmətlərinin elektronlaşdırılması istiqamətində son illər atılan mühüm addımları, nazirliyin 18 altsistem, 4 reyestrdən ibarət olan Mərkəzləşdirilmiş elektron informasiya sisteminin 80-dək qurumun informasiya bazaları ilə inteqrasiya edildiyini, nazirlik üzrə 150 xidmətin 90 faizdən çoxunun rəqəmsal platformadan, onlardan 52 xidmətin proaktiv qaydada təqdim edildiyini vurğulayıb.

Anar Əliyev bildirib ki, "ASAN xidmət indeksi" üzrə qiymətləndirmədə dövlət qurumları arasında 3 ildir ki, birinci yeri tutan nazirlik son illərdə 250-yə yaxın beynəlxalq tanınma və mükafata layiq görülüb. Həmin nailiyyətlər ölkəmizin sosial idarəetmə modelinin beynəlxalq aləmdə etibarlı, innovativ və insan mərkəzli bir nümunə kimi tanındığını göstərir.

Nazir süni intellekt texnologiyalarının tətbiqi istiqamətində nazirliyin Strategiyası çərçivəsində hazırlanmış üçillik Yol Xəritəsinə uyğun şəkildə işlərin aparıldığını qeyd edib. O, "Əlillik" altsistemində tətbiq edilən süni intellekt əsaslı funksionallıq vasitəsilə tibbi göndərişlərdə mətn analizinin həyata keçirildiyini, bu altsistemdə süni intellekt əsaslı məsləhət mexanizminin də hazırlanmaqda olduğunu bildirib. Bu mexanizmin qərarvermə prosesini sürətləndirməklə, obyektivlik və şəffaflığı daha da artıracağını, süni intellekt həllərinin məşğulluq və reabilitasiya sahələrində də tətbiqinin nəzərdə tutulduğunu, nazirliyin bütün fəaliyyət sahələrində bu həllərin tətbiqinin strateji hədəflərdən olduğunu vurğulayıb.

Konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sədri Orxan Məmmədov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Türkiyənin əmək və sosial müdafiə nazirinin müavini Ahmet Aydın və BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreeva çıxış ediblər. Onlar süni zəkanın sosial həyata təsirinin və sosial transformasiya sahəsində aktual mövzuların müzakirə olunduğu belə bir konfransın təşkil olunmasının əhəmiyyətini vurğulayıblar.

Tədbir panel müzakirələri ilə davam edib. "Rəqəmsal dövlət və süni intellektlə transformasiya", "Sosial xidmətlərdə süni intellekt və sosial inklüzivlik" və "Əmək bazarının gələcəyi, bacarıqların inkişafı və rəqəmsal sahibkarlıq" mövzularında keçirilən panel müzakirələrində yerli və beynəlxalq ekspertlər təmsil etdikləri qurumların təcrübələrini bölüşüb, sosial xidmətlər sahəsində innovativ yanaşmaların və müasir texnologiyaların tətbiq edilməsi ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

## Milli Məclisin iclasında

# Bölgədə sülh, əməkdaşlıq, qarşılıqlı etimad mühitinin yaradılmasında Azərbaycan önəmli rol oynayır

Oktyabrın 24-də Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə rəhbərliyi ilə nümayəndə heyətinin oktyabrın 19-dan 21-dək İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfəri barədə məlumat verib.



Səfərin məqsədinin Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında iştirak etməkdən ibarət olduğunu deyən spiker bildirib ki, oktyabrın 20-də Assambleyada "Böhran zamanı humanitar normaların qorunması və humanitar fəaliyyətin dəstəklənməsi" mövzusunda müzakirələr aparılıb. Milli Məclisin Sədri Sahibə Qafarova çıxışı zamanı Azərbaycan xalqının humanitar böhranın nə demək olduğunu öz təcrübəsində yaşadığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. İştirakçılara Ermənistanın silahlı təcavüzünün faciəli nəticələri barədə məlumat verilib. Qeyd olunub ki, dövlətimiz ərazi bütövlüyünü bərpa etdikdən sonra genişmiqyaslı yenidənqurma və bərpa layihələri həyata keçirir. Məcburi köçkünlərin doğma yurdlarına qayıdışı prosesi başlayıb. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin güclü siyasi iradəsinin və humanitar fəaliyyətə sadiqliyinin sübutudur.

Bildirilib ki, vaxtı ilə humanitar yardım alan Azərbaycan bu gün donor ölkə qismində çıxış edir, BMT-ni və qlobal humanitar səyləri dəstəkləyir. COVID-19 pandemiyası zamanı Azərbaycan 80-dən çox ölkəyə yardım göstərib. Son beş ildə 140-dan çox ölkəyə 350 milyon ABŞ dollarından çox humanitar, maliyyə və texniki yardım çatdırılıb.

Spiker Sahibə Qafarova deyib ki, Assambleya çərçivəsində keçirilən müzakirələrdə Azərbaycan nümayəndə heyətinin üzvləri də iştirak və çıxış ediblər.

Diqqətə çatdırılıb ki, Assambleya çərçivəsində İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı ilə Milli Məclis arasında təşkilatın 20-ci sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə dair Anlaşma Memorandumu imzalanıb.

Milli Məclisin Sədri çıxışında deyib ki, hazırda Milli Məclisin sədrlik etdiyi üç parlament təşkilatından biri də Asiya Parlament Assambleyasıdır. Digər iki təşkilat isə, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasıdır.

Deputatların diqqətinə çatdırılıb ki, Cenevrədə Azərbaycan parlamentinin spikerinin sədrliyi ilə Asiya Parlament Assambleyasının Koordinasiya görüşü keçirilib.

Tədbirdə spiker Sahibə Qafarova çıxış edərək, Milli Məclisin təşkilata sədrlik etməyə başladığı 2024-cü ildən etibarən görülən işlər barədə məlumat verib. Qeyd edilib ki, Assambleya çərçivəsində əməkdaşlıq və dialoqun genişləndirilməsi istiqamətində Azərbaycan bir sıra prioritetlər irəli sürüb. Təşkilatın sıraları genişləndirilib, Assambleyada müşahidəçi statusu olan beynəlxalq təşkilatların sayı artırılıb. Bundan əlavə, təşkilatın büdcəsinin formalaşdırılması ilə bağlı konsensus əldə olunub, onun bürosunun fəaliyyəti daha da canlandırılıb.

Cenevrəyə səfər çərçivəsində bir sıra ikitərəfli görüşlərin də keçirildiyini deyən spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq, eləcə də Bosniya və Herseqovina və Namibiya parlamentlərinin sədrləri ilə danışıqlarda parlamentlərarası əməkdaşlığın inkişafı yolları nəzərdən keçirilib.

Eyni zamanda bildirilib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti yüksək qiymətləndirilib, təşkilatın institusional inkişafı və beynəlxalq nüfuzunun artırılması istiqamətində görülən işlərdən danışılıb.

Milli Məclisin Sədri bildirib ki, oktyabrın 21-də onun Ermənistan parlamentinin sədri Alen Simonyanla görüşü baş tutub. Bu, Parlamentlərarası İttifaq çərçivəsində baş tutan üçüncü görüş olub. Görüşdə Vaşinqton sammitində əldə olunmuş razılaşmaların və münasibətlərin normallaşması üçün görülən tədbirlərin böyük əhəmiyyəti vurğulanaraq, konstruktiv dialoqun davam etdirilməsinin vacibliyi diqqətə çəkilib.

Parlamentin spikeri deyib ki, Cenevrədə Parlamentlərarası İttifaqın üzvü olan ölkələrin parlamentlərinin Baş Katibləri Assosiasiyasının növbəti sessiyası da keçirilib. Sessiyada rəqəmsal texnologiyaların parlamentlərdə tətbiqi ilə bağlı məsələlər müzakirə olunub. Görüşdə Milli Məclis Aparatının rəhbəri çıxış edib.

Spiker Sahibə Qafarova Cenevrəyə işgüzar səfərin uğurlu olduğunu bildirib, bununla əlaqədar nümayəndə heyətinin üzvlərinə təşəkkür edib.

Parlamentin spikeri qeyd edib ki, oktyabrın 25-də Qubadlı Şəhəri Günü qeyd olunacaq. Qubadlı şəhərinin işğaldan azad edilməsi uğrunda döyüşlər 44 günlük Vətən müharibəsinin şanlı səhifələrindən biridir. Bu gün quruculuq dövrünü yaşayan Qubadlı Qarabağın və Şərqi Zəngəzurun yeni həyatını təcəssüm etdirir.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb, parlamentin komitə sədri Zahid Oruc, deputatlar Soltan Məmmədov, Asif Əsgərov, Azər Badamov, Rizvan Nəbiyev, Bəhruz Məhərrəmov, Sahib Alıyev, Hikmət Məmmədov, Ceyhun Məmmədov, Müşfiq Cəfərov, Elman Nəsirov çıxış ediblər. Bildirilib ki, Vətən müharibəsindən sonra Azərbaycan regionda postmünaqişə dövrü diplomatiyası həyata keçirir. Cənubi Qafqazda söz sahibinə çevrilmiş ölkəmizin regional və beynəlxalq səviyyədə mövqeləri möhkəmləndirilir. Bölgədə sülh, əməkdaşlıq, qarşılıqlı etimad mühitinin yaradılmasında Azərbaycan önəmli rol oynayır. Dövlət başçımızın xarici səfərləri, keçirdiyi görüşlər dünyada dialoqun inkişafına, sabitliyin möhkəmlənməsinə mühüm töhfələr verir.

Çıxışlarda ölkə Prezidenti İlham Əliyevin sülhün möhkəmləndirilməsi istiqamətində müəyyənləşdirdiyi strateji xəttin yalnız imzalanmış sazişlərlə deyil, mədəniyyətlərarası dialoq, dini dözümlülük və qarşılıqlı hörmət prinsipləri ilə möhkəmləndirildiyi vurğulanıb. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vatikana səfərinin, keçirdiyi görüşlərin mədəniyyətlərarası dialoq, multikulturalizm ideyalarının təbliği baxımından mühüm əhəmiyyəti qeyd olunub, burada Heydər Əliyev Fondunun dəstəyi ilə aparılan bərpa işləri təqdirəlayiq hesab edilib.

Regionda sülhün möhkəmləndirilməsindən, bununla bağlı atılan addımlardan söhbət açan deputatlar, bu günlərdə Cenevrədə Parlamentlərarası İttifaqın 151-ci Assambleyası çərçivəsində Azərbaycan və Ermənistan parlament sədrlərinin ikitərəfli görüşünü yüksək dəyərləndiriblər. Bununla yanaşı, İrəvanda Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri arasında təşkil olunmuş "dəyirmi masa"nın iki xalq arasında etimadın bərpası istiqamətində vacibliyini qeyd ediblər.

Deputatlar Azərbaycanın təşəbbüsü olan Zəngəzur dəhlizinin (TRIPP) iqtisadi, milli maraqlar baxımdan, habelə regional və beynəlxalq əhəmiyyətindən, bu layihənin reallaşdırılmasının ölkələr arasında əməkdaşlığın genişləndirilməsində rolundan da bəhs ediblər.

Çıxışlarda həmçinin müasir dövrdə informasiya məkanının müxtəlif təhdidlərdən qorunması, ərzaq təhlükəsizliyinin təmin edilməsinin vacibliyi, bir sıra digər aktual məsələlərdən bəhs edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyə 17 məsələ daxil edilib və ilk 5 məsələ ölkə Prezidentinin təqdimatları əsasında bir sıra məhkəmələrin hakimlərinin təyin və vəzifədən azad edilməsi ilə bağlıdır. Spiker bu məsələlərin müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Çingiz Əsgərovun, Məhkəmə Hüquq Şurası Aparatının rəhbəri Kərəm Mansurovun və hakimliyə namizədlərin iclasda iştirak etdiyini bildirib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi, F.M.Abbasovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi, Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi, Gəncə Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi, R.A.Xəlilovun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında məsələlər barədə məlumat verib.

Millət vəkili məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində ölkə Prezidentinin 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanına əsasən başlanılan yeni inkişaf mərhələsi çərçivəsində görülən işlərdən danışıb. Bildirilib ki, bu istiqamətdə Məhkəmə-Hüquq Şurası tərəfindən bir sıra tədbirlər həyata keçirilib, mövcud hakim vakansiyalarının komplektləşdirilməsi məqsədilə hakim vəzifəsinə namizədlərin seçilməsi prosesi ardıcıl davam etdirilib. Qeyd edilib ki, hazırda məhkəmə sistemində 645 hakim fəaliyyət göstərir, növbəti ilin əvvəlinə hakimlərin sayının 720-yə çatdırılması nəzərdə tutulub. Görülmüş işlər sırasında, habelə cari ilin iyun ayında Məhkəmə-Hüquq Şurasının 20 illiyinə həsr olunmuş beynəlxalq konfransın keçirildiyi söylənilib. Bununla yanaşı, oktyabr ayında Bakıda 71 dövləti təmsil edən 300-ə yaxın nümayəndənin iştirak etdiyi Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci Baş Assambleyasının toplantısının keçirildiyini, Milli Məclis Sədrinin Assambleya iştirakçıları ilə görüşdüyü diqqətə çatdırılıb.

Nizami Səfərov bildirib ki, dövlət başçısının müvafiq təqdimatlarına əsasən, 11 hakim barəsində məsələlərin müzakirəsi nəzərdə tutulub. Belə ki, hakim korpusunu təmsil edən 2 nəfərin Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri, 5 nəfərin Bakı Apellyasiya Məhkəməsinin hakimləri, 2 nəfərin Gəncə Apellyasiya Məhkəməsinin hakimləri, 1 nəfərin Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi, 1 nəfərin isə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi təklif olunur.

Komitə sədri Siyavuş Novruzov, deputat Aydın Mirzəzadə öz fikirlərini səsləndirdikdən sonra, təqdim olunan 5 məsələ üzrə Milli Məclisin qərar layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

İclasda çıxış edən Ali Məhkəmənin sədr müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Çingiz Əsgərov Şura tərəfindən aparılan islahatlar nəticəsində hakimlərin seçilməsi prosesinin sürətləndirildiyini, şura nəzdində fəaliyyət göstərən Hakimlərin Qiymətləndirilməsi Komitəsinin müvafiq qaydalara uyğun olaraq hakimlərin peşəkarlıq səviyyəsinin müəyyən etdiyini söyləyib.

Parlamentin spikeri gündəliyin növbəti məsələsinin "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin olduğunu və layihənin bir oxunuşda baxılaraq qəbul ediləcəyini bildirib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev həmin qanun layihəsinin mahiyyətindən danışıb. O, sənəddə təklif olunan dəyişikliyin dəqiqləşdirmə xarakteri daşıdığını deyib. Bildirilib ki, adıçəkilən qanunun yeni redaksiyada təqdim edilmiş 19.2-ci maddəsinə əsasən, sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta olunanın peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinin müəyyən edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyən olunur.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

Daha sonra "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikası qanununun layihəsi, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri ikinci oxunuşda qəbul edilib.

Qısa fasilədən sonra iclas öz işini davam etdirib.

Parlamentin spikeri Sahibə Qafarova gündəliyin qalan 4 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib. O, növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil edildiyini və mahiyyətcə bir-birinə bağlı olduğunu söyləyib. Qeyd edib ki, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirinin müavini Elmin Məmmədov iclasda iştirak edir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, qanun layihəsi Azərbaycan ərazisində nəqliyyat-ekspedisiya fəaliyyətinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə dövlət orqanlarının, habelə hüquqi şəxslərin, xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin və fərdi sahibkarların fəaliyyətini, həmçinin onlar arasında yaranan münasibətləri tənzimləyir. Layihədə müvafiq anlayışlar, sahə üzrə dövlət tənzimlənməsi çərçivəsində görüləcək tədbirlər, ekspeditora qarşı etiraz və iddia verilməsi qaydaları, sahəvi ictimai birliklərin yaradılması ilə bağlı məsələlər əks olunur.

Komitə sədri qeyd edib ki, qanun layihəsinin tərtibi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası ilə əlaqədardır. Strategiyanın Tədbirlər Planında tranzit daşıma və logistika işinin səmərəli təşkili üçün nəqliyyat-ekspedisiya fəaliyyətini reqlamentləşdirən normativ hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulur. Eyni zamanda bu layihə nəqliyyat-logistika göstəricisi üzrə ölkəmizdə biznes mühitinin yaxşılaşdırılmasına xidmət edir. Belə ki, nəqliyyat-ekspedisiya fəaliyyəti iqtisadi indikator kimi sahibkarlıq subyektlərinin geniş dairəsini əhatə edir.

Nəzərə çatdırılıb ki, yükdaşımalarının təşkili yük göndərən, daşıyıcı, yük alan münasibətlərinə əsaslanır. Müasir dövrdə isə bu fəaliyyət ekspeditor xidmətlərindən istifadə etməklə həyata keçirilir. Daşımalar zamanı marşrutun optimal seçilməsi, daşıyıcının müəyyənləşdirilməsi, yükün daşınmaya hazırlanması, nəqliyyat-ekspedisiya sənədlərinin rəsmiləşdirilməsi, o cümlədən gömrük, sığorta və digər prosedurların icrası, daşımanın izlənilməsi, yüklərin təhlükəsizliyinin və vaxtında çatdırılmasının təmin olunması və digər vəzifələrin yerinə yetirilməsi ekspeditorun üzərinə düşür. Bu baxımdan ekspeditor xidməti bilik, xüsusi bacarıq və peşəkarlıq tələb edir.

Qeyd olunub ki, bir sıra beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycandan keçməsi, ölkəmizdə beynəlxalq standartlara uyğun logistika mərkəzlərinin və nəqliyyat infrastrukturunun yaradılması, bu səbəbdən yüklərin ölkə ərazisindən tranzit olaraq daşınması həcminin artması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan quruculuq işləri nəqliyyat-ekspedisiya fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaradır.

Komitə sədri deyib ki, qanun layihəsinin qəbul edilməsi ilə ölkəmizin tranzit imkanlarından daha səmərəli istifadə edilməsi, logistika xidmətlərinin keyfiyyətinin artması, daşıma xərclərinin azaldılması, vaxtın səmərəli idarə olunması təmin ediləcək, yerli ekspeditorların beynəlxalq bazarda rəqabət qabiliyyəti yüksələcək.

Sonra Azər Əmiraslanov Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Ticarət Gəmiçiliyi Məcəlləsində, "Nəqliyyat haqqında" və "Avtomobil nəqliyyatı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumat verərək, bu sənədin "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" qanun layihəsindən irəli gələrək hazırlandığını söyləyib.

Belə ki, bu layihədə "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" qanun layihəsində nəqliyyat-ekspertiza fəaliyyəti sahəsində etiraz və iddia məsələləri tənzimləndiyindən, daşıyıcıya və ekspeditora yeni məzmunda anlayışlar verildiyindən, habelə qanun layihəsinin bir sıra normalarının tələblərindən irəli gələrək müvafiq dəyişikliklər təklif olunur. Habelə, dəyişiklik təklif olunan hər bir qanunda nəqliyyat-ekspedisiya xidmətlərinin göstərilməsi ilə bağlı münasibətləri tənzimləyən qanunların dairəsi əks etdirilir.

Parlamentin komitə sədri Tahir Rzayev məsələ barədə öz fikirlərini söylədikdən sonra, hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin on altıncı məsələsi olan "Ümumi təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda müzakirəyə təqdim edən Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov bildirib ki, layihədə qanunun 27-ci maddəsinə 27.4-cü bəndin əlavə olunması təklif edilib. Bildirilib ki, dövlət ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu və yerdəyişməsi müsabiqə yolu ilə həyata keçirilir. Sənəddə sözügedən müsabiqədə iştirakın ödənişli olması təklif edilib. Təqdim olunan dəyişikliklərə əsasən, bu ödəniş ilk dəfə müsabiqədə iştirak edənlərə, əlilliyi olan şəxslərə, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvlərinə, şəhid ailəsinin üzvlərinə və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərə münasibətdə nəzərdə tutulmayıb. Müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak etmək üçün ödənişin məbləği isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir. Komitə sədri vurğulayıb ki, dəyişikliklər müəllimlərin işə qəbulunda iştirakçıların məsuliyyətinin artırılmasına, dövlət büdcəsi vəsaitlərinin səmərəli istifadəsinə xidmət edir.

Müzakirədə Milli Məclis Sədrinin müavini Musa Qasımlı, komitə sədri Fazil Mustafa, deputatlar Vüqar Bayramov, Ceyhun Məmmədov, Aydın Hüseynov, Qüdrət Həsənquliyev, Gülşən Paşayeva çıxış edərək təklif olunan dəyişiklik və təhsil sahəsinin bəzi aktual məsələləri ilə bağlı qeydlərini, suallarını səsləndiriblər.

Elm və təhsil nazirinin müavini İdris İsayev qaldırılan məsələlərə aydınlıq gətirəndən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məlumat verib. Bildirilib ki, qanun layihəsində "valideynlərini itirmiş" və "valideyn himayəsindən məhrum olmuş uşaq" anlayışları "valideyn himayəsindən məhrum olmuş uşaq" adı altında vahid bir termin kimi təsbit olunub. Bundan başqa Mənzil Məcəlləsində "ailə tipli uşaq evləri" ifadəsinin "ailə tipli kiçik qrup evləri" ifadəsi ilə əvəzlənməsi təklif edilib. Komitə sədri deyib ki, qanun layihəsi uşaq hüquqlarının daha da təkmilləşdirilməsinə xidmət edəcək.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov və Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sənədlə bağlı rəhbərlik etdikləri komitələrin müsbət rəylərini diqqətə çatdırandan sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

### Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Cəmilova Xəyalə Adil qızı,
Hüseynov Zaur Nazim oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

### Bakı Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Bakı Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Ağalarov Həmid Azər oğlu,
Hümbətov Fəhmin Zaur oğlu,
Qasımov Vidadi Kamal oğlu,
Mədətli Fərid İlham oğlu,
Sevdimalıyeva Günel Arif qızı.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

### R.A.Xəlilovun Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Ramin Adilxan oğlu Xəlilov vəzifəsi dəyişdirilərək Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

### Gəncə Apellyasiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Aşağıdakı hakimlər vəzifələri dəyişdirilərək Gəncə Apellyasiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Qəhrəmanov Əkrəm Sabir oğlu,
Məmmədov Tural Nurulla oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

### F.M.Abbasovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Milli Məclisinin qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsinə və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Fərman Məmməd oğlu Abbasov vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

*Bakı şəhəri, 24 oktyabr 2025-ci il*

# 25 Oktyabr Qubadlı Şəhəri Günüdür

◆ Azadlığın təntənə günləri

**Bu gün yalnız bir şəhərin azadlığı deyil, ordumuzun, xalqımızın birliyinin, gücünün təcəssüm etdiyi günlərdən biridir... Uzun illər düşmən işğalında qalan şəhərə yenidən həyatın qayıtdığı gündür... Qubadlı beş ildir ki, azaddır və dirçəliş yolundadır...**

**Prezidentin sərəncamına əsasən, bu gün Qubadlı Şəhəri Günü kimi qeyd olunur.**





## Şanlı Zəfərə aparan yol

### Qubadlının azadlığı müharibənin taleyini həll etdi

Vətən müharibəsində Zəngilanın işğaldan azad olunması ilə Qubadlıya gedən qələbə yolumuz açıldı. Azərbaycan Ordusunun əsgər və zabitləri bir qarış torpağı da düşmən tapdağında saxlamamaq üçün canlarından keçməyə də hazır idilər. Vətənə məhəbbət ordumuzu Qubadlı istiqamətindəki döyüş əməliyyatlarını da uğurla icra etməyə imkan verdi. Qubadlı döyüşlərində ilk olaraq şəhərə hakim olan yüksəkliklər nəzarətə götürülərək, Xanlıq, Padar, Sarıyataq kəndləri və strateji yüksəkliklər azad edildi. Zilanlı, Kürd Mahruzlu, Muğanlı, Alaqurşaq kəndləri oktyabrın 23-də düşməndən təmizləndi. Daha sonra uğrunda bir neçə gün döyüşlərin davam etdiyi Qubadlı şəhəri də daxil olmaqla, rayonun 8 kəndi azadlığına qovuşdu. Vətən müharibəsi bitənədək isə rayonun 41 kəndi də düşmən tapdağından xilas edildi.

**Tarixin izi ilə:** Qubadlı və onun ətrafında yerləşən kəndlər XVIII əsrdə Qarabağ inzibati ərazisinə daxil olub. 1868-ci ildə Yelizavetpol quberniyası yaranandan sonra isə Zəngəzurun tərkibinə daxil edilib. Qubadlı rayonu 1933-cü ildə yaradılıb. Həmin vaxt rayonda 1 şəhər və 93 kənd olub. Bərgüşad çayının hər iki sahilində yerləşən Qubadlı şəhərinin əhalisi 5604 nəfər idi. 1988-ci ildən başlayaraq, Ermənistan və Dağlıq Qarabağla sərhəddə yerləşən Qubadlı rayonuna hər iki tərəfdən təcavüzkar hücumlar başlayıb, dinc əhaliyə qarşı terror aktları törədilib. 31 avqust 1993-cü ildə isə Ermənistan silahlı birləşmələri tərəfindən rayon işğal olunub.

#### Daha bir rayonda üçrəngli hilalımız dalğalandı

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Qubadlıya ilk səfəri 2020-ci il dekabrın 23-də oldu. Dövlət başçısı üçrəngli bayrağımızı Qubadlıda da qaldıraraq rayonun işğaldan azad edilməsinin tarixi hadisə olduğunu vurğuladı.

Qubadlının işğaldan azad olunmasının birinci ildönümündə yenidən Qubadlıya səfər edən dövlət başçısı Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində, "Azərenerji" ASC-nin sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışlarında iştirak etdi.

Səfər çərçivəsində dövlət başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə də görüşdü. Ölkə rəhbəri Qubadlı döyüşlərinin əhəmiyyətindən söz açdı: "25 oktyabr müharibənin gedişatında önəmli yer tutub. Çünki Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və bir neçə gündən sonra biz Laçının cənub hissəsində yerləşən kəndləri də azad etdik. Beləliklə, Laçın dəhlizini nəzarətə götürdük və artıq müharibənin taleyi həll edilmişdi. Düzdür, Şuşa uğrunda şiddətli döyüşlər qabaqda idi, digər yaşayış məntəqələrimizin azad olunması ilə bağlı əməliyyat planları hazırlanırdı, ancaq artıq həm bütün dünya, həm də düşmən gördü ki, bizim qabağımızda heç bir qüvvə dayana bilməz. Biz Qubadlıdan sonra öz Zəfər yürüşümüzü, Zəfər missiyamızı şərəflə davam etdirdik və noyabrın 8-də Şuşada dövlət bayrağını ucaltdıq".

Prezident həmçinin Qubadlıda görülən quruculuq işlərindən də söz açdı: "…Qubadlı şəhəri demək olar ki, yerlə - yeksan edilib, bir salamat bina yoxdur. Sadəcə olaraq, erməni hərbçiləri öz məqsədləri üçün bir neçə binadan istifadə etmişdir, onlar da bərbad vəziyyətdə idi. Mən bura keçən il dekabr ayında gələndə gördüm ki, onlar da bərbad vəziyyətdədir. Ona görə də biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq. Qubadlı şəhərinin baş planı hazırlanır və yəqin ki, yaxın aylarda təqdim ediləcək, o cümlədən Qubadlı ictimaiyyətinə təqdim ediləcəkdir. Əlbəttə ki, bu baş plan ən müasir normalara uyğun olacaq və Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq. Amma, eyni zamanda artıq bu gün Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlər aparılır. Bu gün biz yeni yarımstansiyanın açılışını qeyd etdik və bu, azad edilmiş torpaqlarda yeddinci yarımstansiyadır. Bu infrastruktur layihəsi Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikasını nəzərə alır".

#### Yenidənqurma və bərpa işləri

Prezident İlham Əliyevin 2021-ci il oktyabrın 25-də imzaladığı "Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" sərəncama əsasən, bu gün Qubadlıda da yenidənqurma və bərpa işləri görülür. Digər işğaldan azad olunmuş rayonlarımız kimi, Qubadlı da əzəli sahiblərini qarşılamağa hazırlaşır.

Qubadlı şəhəri beynəlxalq hava limanlarının fəaliyyət göstərdiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla, kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.

Qubadlıda Zabuxçay su anbarı da tikilərək istifadəyə verilib.

Prezident İlham Əliyev tərəfindən Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq Mərkəzi Xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməlləri qoyulub.

Məhəllə şəhərin təsdiq edilmiş ümumi baş planına uyğun salınır. Ümumilikdə məhəllədə 156 mənzilin tikintisi nəzərdə tutulur. Əsası qoyulan Xanlıq kəndi Qubadlı rayonunun mərkəzindən 16 kilometr məsafədə, Həkəri çayının sahilində yerləşir. Yaşayış məntəqəsinin layihələndirilən ərazisi kəndin köhnə ərazisini əhatə edir və ümumi sahəsi 273 hektardan çoxdur. Birinci mərhələdə kəndə 1357 nəfərin köçürülməsi üçün 356 fərdi evin tikintisi nəzərdə tutulur. Xanlıq kəndində 4 mindən çox sakinin məskunlaşdırılması planlaşdırılıb. Mahruzlu kəndinə isə 2700-dən çox sakinin köçürülməsi nəzərdə tutulub.

Zilanlıda isə 2520 nəfərin yaşaması planlaşdırılıb. Zilanlı kənd inzibati ərazi dairəsində yerləşən Kürd Mahmudlu və Sələli kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib.

Qubadlıda İşğal və Zəfər muzeyləri kompleksi - İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial Park da tikilir. Kompleks təxminən 3 hektar ərazini əhatə edəcək.

#### Qubadlı igidləri

Qubadlının düşmən tapdağından azad edilməsi üçün də şanlı Azərbaycan Ordusu qəhrəmanlıq nümunəsi göstərdi. İllərlə bu ərazilərdə möhkəmlənmiş düşmənin ayaqları birdəfəlik bu torpaqlarımızdan da kəsildi. Qubadlı şəhərinin azad olunması əməliyyatı bir neçə gün çəkdi. Rayon uğrunda döyüşənlər də tarixə yazıldı. Vətən müharibəsindən sonra Qubadlı uğrunda şəhidlik zirvəsinə ucalanlar da, qazilər də Ali Baş Komandan tərəfindən mükafatlandırıldılar. Prezident İlham Əliyevin sərəncamına əsasən, Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Silahlı Qüvvələrin 15212 hərbi qulluqçusu "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildilər.

#### Sərhəddə düşmənə gözdağı verən bayrağımız

Qubadlının işğaldan azad olunması uğrunda döyüşlərdən danışan Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Qubadlı uğrunda döyüşlər Vətən müharibəsinin ən mühüm mərhələlərindən biri idi: "Bu istiqamətdə əməliyyatlar istər strateji, istərsə də psixoloji baxımdan, demək olar ki, qələbəyə aparan yolu xeyli yaxınlaşdırdı və sürətləndirdi. Qubadlının Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilməsi ilə Zəngilanla birlikdə dövlət sərhədimizə nəzarətin böyük hissəsi bərpa edildi. Digər tərəfdən, Laçın və Şuşa istiqamətində əməliyyatlara mövqelər qazandıq. Bu döyüşlərdə iştirak edən əsgər və zabitlərimizin ruh yüksəkliyi, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti qələbənin əsas təminatı idi.

A.Nağıyev vurğulayıb ki, Qubadlının işğaldan azad edilməsi ilə həm Ermənistanla sərhədə çıxış əldə edilib, həm də digər istiqamətlərdə döyüşlərdə ciddi mövqelər qazanılıb: "Otuz ilə yaxın işğal altında qalan torpaqların azad edilməsi Azərbaycan xalqına ruh yüksəkliyi, qürur gətirdi. Bu gün azad edilmiş torpaqlarda həyat yenidən canlanır, şəhər və kəndlərdə infrastruktur yenidən qurulur. Qubadlı artıq döyüş meydanı deyil, inkişaf, quruculuq meydanına çevrilib. Qubadlı Şəhəri Günü bizə həm də qəhrəmanlıq salnaməsini xatırladır. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin".

Komitə sədri bildirib ki, Qubadlı döyüşləri 44 günlük müharibənin ən mühüm strateji mərhələlərindən biri olaraq tarixə qızıl hərflərlə yazılıb. Döyüşlərdə əldə olunan qələbələr dünyaya göstərdi ki, Azərbaycan xalqı, döyüşçüsü mənəvi və psixoloji cəhətdən necə hazırlıqlıdırlar. Qubadlı artıq Ermənistanla sərhəddə yerləşən, Azərbaycan bayrağı dalğalanan azad torpaqdır.

Bu gün Qarabağ və Şərqi Zəngəzurun elə bir yeri yoxdur ki, orada bərpa və quruculuğun şahidi olmayaq. Azərbaycan dövləti öz gücü hesabına azad etdiyi torpaqları indi də öz hesabına yenidən qurur, dirçəldir. Həm də görülən işlər müasir standartlara tam uyğun və sürətli şəkildə həyata keçirilir. Çünki bu gün qarşıda duran prioritet məsələ həm də keçmiş məcburi köçkünlərin öz el-obalarına qayıdıb, orada firavan həyat sürməsidir. Qubadlı da çox keçməyəcək öz sakinlərini qarşılayacaq. Rayonda görülən geniş tikinti və quruculuq da bundan xəbər verir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Tarixi Qələbənin parlaq nümunəsi

**Vətən müharibəsi zamanı strateji əhəmiyyətə malik əməliyyatlar sırasında Qubadlı rayonunun azad edilməsi xüsusi yer tutur. Qubadlı əməliyyatı İkinci Qarabağ müharibəsinin ən gərgin və həlledici döyüşlərindən biri olub. 2020-ci il oktyabrın 25-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək Qubadlı şəhərini və ətraf kəndləri düşmən işğalından azad etdi. Bu azadlıq böyük Qələbəyə aparan yolun mühüm mərhələsi idi.**



Qubadlının azad edilməsi uğrunda aparılan əməliyyat bir neçə gün davam etmiş, düşmənin möhkəmləndirilmiş müdafiə xəttini yarmaq üçün şiddətli döyüşlər getmişdir. Şəhərdə ermənilər güclü istehkamlar qurmuş, strateji yüksəkliklərdə hərbi birləşmələr yerləşdirmişdilər. Buna görə də Qubadlını azad etmək üçün ilk növbədə həmin yüksəkliklər ələ keçirilməli idi, çünki düşmən bu mövqelərdən ordumuzun irəliləyişinə mane olurdu. Qəhrəman Azərbaycan əsgərləri yüksək peşəkarlıq, mərdlik və fədakarlıq nümayiş etdirərək strateji yüksəklikləri ələ keçirdi və bununla da şəhərin azad edilməsinə yol açdı. Ətraf kəndlər, o cümlədən Xanlıq, Padar və Sarıyataq kəndlərinin azad edilməsi ilə Azərbaycan Ordusu Qubadlı istiqamətində strateji üstünlüyə nail oldu. Strateji yüksəkliklərin ələ keçirilməsindən sonra 2020-ci il oktyabrın 25-də Azərbaycan Silahlı Qüvvələri Qubadlı şəhərini tam olaraq düşməndən təmizlədi. Bu tarixi qələbə ümumi Zəfərə aparan yolun mühüm mərhələsini təşkil etdi və Azərbaycan Ordusunun şücaəti sayəsində Böyük Qələbəni daha da yaxınlaşdırdı.

Qubadlının azad edilməsi, eyni zamanda Ermənistanın illərlə həyata keçirdiyi vandallıq və hərbi cinayətlərin miqyasını da üzə çıxardı. Məlum oldu ki, ermənilər Xanlıq kəndində hərbi istehkamlar və baza qurmuş, həmçinin xaricdən gətirilən ermənilər üçün qəsəbə salmışdılar. Bu faktlar bir daha göstərdi ki, düşmən işğal etdiyi torpaqlarda məskunlaşma siyasəti həyata keçirərək beynəlxalq hüququ kobud şəkildə pozmuşdur. Belə əməllər müharibə cinayəti sayılır və Cenevrə konvensiyalarına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə beynəlxalq hüquq qarşısında məsuliyyət daşıyır. Ermənistan da bu cinayət əməllərinə görə mütləq cavab verməlidir.

Bu gün Qubadlı yeni inkişaf dövrünü yaşayır. Qubadlı şəhəri və rayonun 41 kəndi yenidən qurulur, bərpa-quruculuq işləri bütün ərazilərdə sürətlə aparılır. Prezident İlham Əliyevin işğaldan azad edilmiş digər bölgələrdə olduğu kimi, Qubadlıya səfərləri də önəmli təməlqoyma və açılış mərasimləri ilə əlamətdardır və bu, rayon və bölgələrdə bərpa və yenidənqurma işlərinin böyük vüsətlə davam etdiyini göstərir. Həyata keçirilən bütün tədbirlər isə yalnız bir məqsədə xidmət edir - keçmiş məcburi köçkünlərin tezliklə öz doğma torpaqlarına, dədə-baba yurdlarına qayıda bilməsi üçün lazımi şərait yaratmaq. Rayonun gələcək inkişafını təmin etmək üçün enerji infrastrukturunun gücləndirilməsi də diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2025-ci ilin 9 sentyabr tarixində "Qubadlı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nı təsdiq etmişdir. Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlər aparılır. İşğala qədər 38 min nəfərdən çox əhalisi olan, sənaye və digər təsərrüfat sahələri üzrə Qubadlı rayonunun ümumi tələbatı 12 MVt olmaqla bir ədəd 110 kV-luq yarımstansiyadan qidalanıb. Hazırda 47 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Qubadlıda inkişaf istiqamətləri nəzərə alınmaqla 2040-cı il üçün elektrik enerjisi tələbatının 38 MVt-dan artıq olacağı müəyyənləşdirilir. 2021-ci il oktyabrın 25-də sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının açılışı olmuşdur. Yarımstansiyanın tikintisi ilə paralel olaraq Qubadlının Azərbaycanın ümumi enerji sisteminə qoşulması, rayonun dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün Füzulidəki "Şükürbəyli" yarımstansiyasından "Cəbrayıl" yarımstansiyasına giriş-çıxış olmaqla 76 kilometr məsafədə ikidövrəli 110 kV-luq yüksəkgərginlikli "Qubadlı-1", "Qubadlı-2" elektrik verilişi xətti çəkilib. Yeni çəkilən xətt boyunca ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi, internet üçün fiberoptik kabel çəkilib və bununla da Qubadlıya təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürücülük qabiliyyətinə malik sürətli internet xətti gətirilib.

Qubadlı rayonunun mərkəzindən 19 kilometr məsafədə yerləşən Mahruzlu kəndinin layihələndirilən ərazisi 197 hektar təşkil edir. Birinci mərhələdə 40 hektar sahədə 190 fərdi evin tikintisi aparılır. Bu mərhələdə kəndə 836 nəfərin köçürülməsi planlaşdırılır. Eyni zamanda rayon mərkəzindən 20 kilometr uzaqlıqda, Həkəri və Bərgüşad çaylarının qovuşduğu ərazidə yerləşən Zilanlı kəndində də genişmiqyaslı bərpa işləri həyata keçirilir. Kəndin layihələndirilən ərazisi 180 hektardır. Birinci mərhələdə burada 159 evin tikintisi nəzərdə tutulub. Nəticədə, ilkin mərhələdə 772 nəfərin kəndə qayıdışı təmin ediləcək. Gələcəkdə isə Zilanlı kəndində 630 ailənin - yəni 2520 nəfərin daimi yaşayışı planlaşdırılır. Bu layihələr Qubadlı rayonunun sosial-iqtisadi inkişafına, həmçinin işğaldan azad edilən ərazilərdə məskunlaşmanın bərpasına mühüm töhfə verir. 2023-cü il sentyabrın 5-də Prezident İlham Əliyev "Yeni Qubadlı-Laçın avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 33-cü kilometrindən başlayan yeni Qubadlı-Laçın yolunun layihələndirilməsi və tikintisinin həyata keçirilməsi üçün 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 20 milyon manat vəsait ayrılıb.

Qubadlının azad edilməsi Azərbaycan tarixində xüsusi əhəmiyyət daşıyan hadisə kimi həm hərbi qəhrəmanlığın, həm də xalqımızın birlik və şücaətinin parlaq nümunəsi olmuşdur. Bu böyük zəfərin əldə edilməsində fərqlənən hərbi qulluqçular Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdilər. 31 iyul 2023-cü il tarixli sərəncama əsasən, işğaldan azad edilmiş ərazilərdə şəhər günləri təsis edilmiş və Qubadlı Şəhəri Günü hər il 25 oktyabrda qeyd edilir. Bu əlamətdar tarix Qubadlı şəhərinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi ilə bağlıdır. Zəfər tariximizin ən qürurverici anlarından olan Qubadlı zəfəri Azərbaycan tarixinin şərəfli səhifələrindən biri kimi xalqımızın yaddaşında əbədi yaşayacaqdır.

*Kamran BAYRAMOV,*
*Milli Məclisin deputatı*

# Azərbaycanın xarici siyasətinin uğurları




## Qızıl türk əsrinin Bakı başlanğıcı

### I Türkoloji Qurultayın 100 illiyinin qeyd edilməsi Azərbaycanın türk irsinin qorunmasına növbəti töhfəsidir

**Turanın birliyi, türk dünyasının vəhdəti həm də ulu babalarımızdan bizə ötürülən mənəvi mirasdır. Ötən dövrlərdə fikir adamlarımız, şairlərimiz, yazıçılarımız türk birliyinin var olması üçün ən çətin siyasi şəraitlərdə belə mücadilə aparıblar, bu yolda çoxları qurban gedib. Amma bu amal, əqidə heç zaman itməyib, damarlarımızda daşıdığımız türk qanı, ruhumuzla bağlı olduğumuz türkçülük ideyası kök ataraq, rişələnərək müasir günümüzə qədər gəlib. İndi biz türk birliyinin tarixi zirvəyə yetdiyi zamanda - qızıl türk əsrində yaşamağın qüruru içərisindəyik.**

Tarixi köklərimizlə, dilimizlə, mədəniyyətimizlə ortaq dəyərləri paylaşdığımız türkdilli ölkələrin birliyinə uzanan bu keşməkeşli yolda əsas aparıcı qüvvənin Odlar yurdu Azərbaycan olması hər kəsə məlumdur. Təkcə bu gün deyil, düz yüz il əvvəl də Azərbaycan türk birliyinə əhəmiyyətli töhfələr verən mərkəz kimi var olub, bu həmrəyliyin möhkəmlənməsi, inkişafı, türk mədəniyyətinin inteqrasiyası üçün əhəmiyyətli işlərə imza atıb. 1926-cı ildə I Türkoloji Qurultayın Bakıda təşkil edilməsi, Türk Dövlətləri Təşkilatının təməlinin 2009-cu ildə Naxçıvanda qoyulması, 2020-ci il Vətən müharibəsi sayəsində türk dünyasının etnosiyasi coğrafiya cəhətdən birləşdirilməsi qətiyyən təsadüfi xarakter daşımır. Sadalananlar türk birliyinin var olması üçün xalqımızın, ölkəmizin bütün dövrlərdə tarixi əhəmiyyət daşıyan silsilə tədbirlərin, müstəsna hadisələrin altına öz imzasını atmasını əyani ortaya qoyur.

#### Birlik, sülh və əməkdaşlıq

Azərbaycanın Şuşa Zəfərinin beş illiyi ilə üst-üstə düşən Türk Dövlətləri Təşkilatının (TDT) Qəbələ Zirvə görüşünün də rəmzi mənası oldu. "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr edilən və qurumun üzv və müşahidəçi ölkələrinin dövlət və hökumət başçılarını, eləcə də onların nümayəndə heyətlərini bir araya gətirən Qəbələ Zirvəsi beynəlxalq miqyasda aktual məsələləri müzakirə etməyə, əməkdaşlığı gücləndirməyə, həmçinin türk dünyasında birliyi, sülhü və əməkdaşlığı daha da dərinləşdirmək məqsədilə mühüm sənədləri təsdiq etməyə geniş imkan yaratdı. Tarixi toplantıda qəbul olunan sənədlər və XII Zirvə Görüşünün Bəyannaməsi təşkilatın gələcək fəaliyyət istiqamətini müəyyənləşdirdi.

Prezident İlham Əliyevin XII Zirvə Görüşündəki çıxışı zamanı səsləndirdiyi vacib əhəmiyyətli təkliflər türk birliyinin əbədiliyinə, türk irsinin qorunmasına xidmət edən təşəbbüslər kimi dəyərləndirilmelidir. Azərbaycan Prezidentinin bu təklifləri böyük türk dünyası ailəsinin həmrəyliyinin daha yüksək zirvələrə daşınmasına xidmət etdi.

Tarixi Qəbələ Zirvəsində dövlətimizin başçısı İlham Əliyev toplantı iştirakçılarının nəzərinə çatdırdı ki, ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir: "Burada 1926-cı ildə Bakıda təşkil edilmiş I Türkoloji Qurultayın tarixi əhəmiyyətini bir daha vurğulamaq istərdim".

Azərbaycan lideri gələn il I Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif etdi.

Bu həm də Prezident İlham Əliyevin türk ölkələri arasında qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsinə xidmət edən çağırışı idi.

#### Dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri

Oktyabrın 22-də Prezident İlham Əliyev I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda deyilir ki, I Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir.

Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün I Türkoloji Qurultaya evsahibliyi etmişdir. Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi. "I Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçməsinin qarşısı az sonra bolşevik rejiminin və sovet totalitar idarə üsulunun yaratdığı maneələrlə sərt formada alınmış, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1930-cu illər repressiyasına məruz qalmış, bununla da türkologiyanın inkişafına olduqca ağır zərbə vurulmuşdur", - deyə sənəddə qeyd edilir.

Sərəncamda o da deyilir ki, I Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideya müasir şəraitdə uğurla gerçəkləşdirilir: "Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır".

#### Türk tarixində əlamətdar hadisə

III Türkoloji Qurultay 26 fevral-6 mart 1926-cı ildə - doqquz gün ərzində Bakı şəhərində keçirilib. Tarixi qurultayda 131 nəfər nümayəndə iştirak edib, 17 iclas keçirilib. Qəbul etdiyi qərarlar arasında ortaq əlifba, ortaq ədəbi dil, ortaq terminologiya kimi məsələlərin xüsusi yer tutduğu I Türkoloji Qurultay məşhur türkoloq Radlovun və "Dildə, fikirdə və işdə birlik" ideyasının müəllifi, türk dünyasının milli qürur mənbəyi İsmayıl bəy Qaspıralının şərəfinə keçirilib.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra türk dünyasının mədəni irsinin qorunması istiqamətində vacib addımlar atıb. 5 noyabr 2005-ci ildə Prezident İlham Əliyev I Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, 2006-cı ildə Bakıda I Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.

Prezident İlham Əliyevin 18 fevral 2016-cı ildə imzaladığı sərəncama uyğun olaraq, I Türkoloji Qurultayın 90 illiyi də ölkəmizdə dövlət səviyyəsində qeyd edilib.

Gələn il isə tarixi qurultayın 100 illik yubileyi təntənəli şəkildə qeyd ediləcək. Bütün bunlar türk birliyinin siyasi, iqtisadi, hərbi sahədə güclənməsi istiqamətində mühüm addımlar atan Azərbaycanın türk dünyasının mədəni irsinin qorunmasına verdiyi mühüm töhfələr, həm də türk ailəsinin mədəni bağlarla daha da möhkəmləndirilməsinə xidmət edən missiyasıdır.

Bir sözlə, 2026-cı ildə türk dünyası I Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsinin fonunda türk birliyinin, həmrəyliyinin bayramını keçirəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## *Kürşad ZORLU:* "I Türkoloji Qurultayın 100 illiyinin keçirilməsi ilə bağlı sərəncam birliyimizə güc qatacaq mühüm təşəbbüsdür"

**"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı sərəncamın "Dildə, fikirdə, işdə birlik" hədəfimizə güc qatacaq mühüm bir təşəbbüs olacağına inanır və bunu böyük məmnunluqla qarşılayırıq".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin müavini, Türk Dövlətləri ilə Əlaqələr Baş İdarəsinin rəhbəri Kürşad Zorlu mövzu ilə bağlı açıqlamasında söyləyib. Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə imzalanan Bəyannamədə bu qərarın yer almasının türk dünyası çətirinin ortaq dil və ünsiyyət əsasında qurulmasının vacibliyinin göstəricisi olduğunu qeyd edən Zorlu deyib: "Bu baxımdan Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın Qəbələ Zirvə Görüşündə türk dövlətlərinin rəhbərlərinə ilk dəfə 34 hərfli ortaq əlifba ilə



çevrilmiş əsərləri təqdim etməsi Türkiyənin bu prosesdəki qətiyyətinin mühüm bir ifadəsi oldu. Eyni zamanda Prezidentimizin dekabrın 15-nin Ortaq Türk Dili Günü elan olunması ilə bağlı çağırışı və arzusu da Zirvə görüşünün protokoluna daxil edildi. Bu münasibətlə qardaşlığımızı ortaq ünsiyyət və ortaq əlifbamız vasitəsilə möhkəmləndirmək iradəmizi bir daha vurğulayırıq. Çünki biz 8 dövlət, bir millət, bir ürəyik".

## Azərbaycandan Ermənistana sülhpərvər addım

### Tranzit məhdudiyyətinin aradan qaldırılması real sülhün nəticəsidir

**Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb. Qazaxıstandan Ermənistana göndərilən taxıl yükü isə ilk tranzit olub. Bu, Azərbaycan-Ermənistan arasında sülhün artıq real nəticəsidir, danışıqlardan, kağız üzərində razılaşmalardan real addımlara keçidin bir nümunəsidir.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Aqil Əsədov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan bütün dövrlərdə sülhpərvər siyasət yürüdüb və tranzit yükün ölkəmizdən Ermənistana buraxılması da bunu bir daha sübut edir: "Azərbaycan sülh daşıyıcısı, beynəlxalq hüquqa hörmətlə yanaşan bütün dövlətlərlə rəqabət deyil, əməkdaşlıq etməyə üstünlük verən dünyəvi bir dövlətdir. Bunu dünyanın aparıcı dövlətlərinin rəhbərləri, tanınmış dünya siyasətçiləri dəfələrlə nüfuzlu tribunalardan səsləndiriblər. Yüklərin Ermənistana tranzit keçidinə məhdudiyyətlərin aradan qaldırılması bir daha sübut edir ki, avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Tramp tərəfindən imzalanan Birgə Bəyannamə Cənubi Qafqazda 30 ilə yaxın davam edən münaqişəni tarixin arxivinə göndərən və təkrarlanmamasına zəmanət verən mühüm siyasi-strateji və sosial-iqtisadi əhəmiyyətə malikdir".

A.Əsədov qeyd edib ki, məhz Prezident İlham Əliyevin düzgün siyasətinin, Vaşinqtonda əldə olunan razılaşmaların nəticəsidir ki, hələ rəsmi sülh sazişi imzalanmamış Azərbaycan ərazisindən Ermənistana tranzit keçidə şərait yaradılır. Bu, sülhün ilkin iqtisadi dividendidir ki, bunu da Ermənistan tərəfi gördü, burada da ilk addım dövlətimiz tərəfindən atıldı.



Ermənistanın işğalçılıq siyasəti nəticəsində bütün beynəlxalq layihələrdən kənarda qaldığını xatırladan şöbə müdiri deyib ki, bu ölkənin xaricə yeganə çıxış yolu Gürcüstan idi ki, həmin istiqamətdə də aylarla problemlər yaşayırdı. Bu gün isə artıq daha rahat və səmərəli şəkildə yük qəbul edə bilirlər. Hər zaman olduğu kimi, yenə Azərbaycan ilk olaraq məhdudiyyətləri aradan qaldırır, Ermənistana inkişaf üçün ölkəmizin infrastrukturlarından istifadə şəraiti yaradır.

Ekspertin fikrincə, Azərbaycandan keçməklə Ermənistana gedən ilk yükün taxıl olması da özü bir rəmzi əlamət daşıyır: "Azərbaycan xalqı hər zaman qonaqpərvərliyi ilə seçilən, çörəkverən, qonşusunun, imkansızın halına acıyan, müqəddəs dəyərlərə hörmətlə yanaşan xalqdır. Əslində, ilk yükün taxıl olması da bütün bunları bir daha vurğulayır və qarşı tərəfi də sülhə, dostluğa səsləyir".

İİTKM rəsmisi bildirib ki, müasir iqtisadi tərəqqinin əsas trendlərindən biri də əlverişli nəqliyyat-tranzit imkanlarıdır. Yəni hansı ölkənin beynəlxalq bazarlara asan çıxışı və geniş əhatəli nəqliyyat-tranzit imkanları varsa, o ölkələr daha sürətlə inkişaf edir, qlobal məkana inteqrasiyanı intensivləşdirir və beynəlxalq arenada üstünlük qazanırlar. Bu mənada qlobal məkana çıxmaq, beynəlxalq nəqliyyat-kommunikasiya layihələrində təmsil olunmaq üçün sülh Ermənistana daha çox lazımdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Cənubi Qafqazda sülhün açarı regionun öz əlindədir

**Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzaladıqları "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş", Vaşinqton Bəyannaməsi ilə Cənubi Qafqazda yeni tarixi mərhələnin başlanğıcı qoyuldu.**




Bu tarixi sənədin imzalanmasından sonra hər iki ölkə rəhbərliyi tərəfindən atılan real və ardıcıl addımlar cəmiyyətləri sülhə hər ötən gün bir qədər də yaxınlaşdırır. Azərbaycan artıq Ermənistana yük tranziti ilə bağlı işğal dövründən qalan bütün məhdudiyyətləri aradan qaldırıb.

Prezident İlham Əliyev Qazaxıstana dövlət səfəri zamanı Prezident Kasım-Jomart Tokayevlə birgə mətbuata bəyanatında demişdir: "Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb və ilk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınması olub. Zənnimcə, bu həm də Azərbaycan ilə Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, praktikada olduğunun göstəricisidir".

Azərbaycan həmişə regionda sülhün, sabitliyin və qarşılıqlı etimadın tərəfdarı olub. Uzun illər davam edən münaqişədən sonra sülh sazişinin imzalanması təşəbbüsünün müəllifi də məhz Azərbaycandır.

Ermənistana yük tranzitinin açılması dövlətimizin sülhə sadiqliyinin ən yaxşı nümunəsidir. Bu addım həm də Azərbaycanın bölgədə qarşılıqlı etimad mühitini möhkəmləndirməyə yönəlmiş müdrik siyasətinin davamıdır. Ermənistanın Baş naziri Nikol Paşinyan və bir sıra erməni rəsmilərinin Prezident İlham Əliyevin bu qərarını alqışlaması da bunu təsdiqləyən faktdır.

Daha maraqlı məqam odur ki, tranzit məhdudiyyətlərinin aradan qaldırılması Azərbaycan nümayəndə heyətinin İrəvana səfəri ilə eyni vaxta təsadüf edib. Bu o deməkdir ki, etimadın möhkəmləndirilməsi yalnız siyasi səviyyədə deyil, vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə də həyata keçirilir. İrəvanda ilk dəfə hər iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən görüş sülhün sosial təməllərinin formalaşması baxımından əlamətdar hadisədir. Uzun illər davam edən düşmənçilikdən sonra cəmiyyətlərin bir-biri ilə təmas qurması, birgə müzakirələr aparması gələcək birgəyaşayış modelinin yaranmasına real töhfə verir.

Bütün müharibələrin sonu sülhlə bitir. Bu gün Ermənistan cəmiyyəti də anlayır ki, düşmənçilik və revanşizm siyasəti nə iqtisadi, nə də mənəvi baxımdan davamlı ola bilər. İqtisadi resursları məhdud, coğrafi mövqeyi isə mürəkkəb olan Ermənistanın yeganə inkişaf yolu Azərbaycanla sülh şəraitində yaşamaqdan keçir.

Xatırladaq ki, İrəvandakı görüşdə tərəflər siyasi məsələlərdən çox humanitar mövzular, iqtisadi və logistik imkanlar, qarşılıqlı etimadın möhkəmləndirilməsi kimi mövzular ətrafında fikir mübadiləsi aparıblar. Birgə fəaliyyət planının işlənib hazırlanması məsələsinə də xüsusi diqqət yetirilib.

Ən mühüm məqam isə bu görüşlərin vasitəçisiz baş tutmasıdır. Uzun illər danışıqlarda "vasitəçi" kimi çıxış edən qüvvələrin, əslində, region xalqlarının taleyindən çox öz geosiyasi maraqlarını düşündüyü heç də sirr deyil. Uğurlu faktdır ki, bu gün artıq Bakı və İrəvan heç bir kənar müdaxilə, "vasitəçi" olmadan danışıqlar aparır, vətəndaş cəmiyyəti inisitutlarının nümayəndələri birbaşa görüşlər təşkil edirlər.

Qeyd edilməlidir ki, Ermənistan ictimaiyyətinin və mətbuatının əhəmiyyətli hissəsi, eləcə də bir sıra müxalif qüvvələr də bu görüşləri müsbət qarşılayıb. Amma bu o demək deyil ki, bütün proseslər tamamilə müqavimətsiz, rəvan, sakitliklə keçir. Ermənistanda revanşist qüvvələr anlayırlar ki, sülh prosesinin dərinləşməsi Paşinyan hökumətinin 2026-cı il seçkilərində uğur qazanmaq şansını daha da artırır. Revanşistlərin növbəti məğlubiyyəti onların avantürist siyasi "fəaliyyətlərinin" sonu, işğalçılıq yolu ilə əldə etdikləri varidatlarının tezliklə əllərindən çıxması deməkdir. Elə bu üzdən də müharibə tərəfdarları son güclərini toplayaraq Paşiniyan hakimiyyətinə qarşı əsl hücuma keçib, hazırkı hakimiyyəti "təslimçilik"də, "xəyanət"də ittiham edirlər. Bütün bunlarla yanaşı, reallıq göstərir ki, Bakı və İrəvan sülh gündəliyini irəlilətməkdə qərarlıdır.

Şübhə yoxdur ki, bundan sonra da bu cür görüşlər davamlı və müntəzəm xarakter alacaq. Yaxın zamanda Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin Bakıya səfəri reallaşarsa, bu artıq bizi təəccübləndirməməlidir. Unutmamalıyıq ki, bu cür təmaslar sülh mədəniyyətinin formalaşmasına, xalqlar arasında etimad mühitinin daha da möhkəmlənməsinə xidmət edir.

Təsadüfi deyil ki, Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da görüşü yüksək qiymətləndirib: "Mən belə görüşlərin keçirilməsini Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesinin tərkib hissəsi kimi görürəm. Bu təmaslar insanlar arasında müsbət münasibətlərin yaranmasına yönəlib və sülhün möhkəmlənməsinə töhfə verəcək".

Bu proses bir daha göstərir ki, Cənubi Qafqazda sülhün açarı regionun öz əlindədir. Ermənistan da artıq anlayır ki, sülh kənar diktə ilə, məcburi razılaşmalarla deyil, qarşılıqlı etimad və əməkdaşlıqla mümkündür.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# 25-26-27 oktyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi

# QUBADLI MÜJDƏSİ

## İlham ƏLİYEV: "Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz"

### 25 oktyabr

***Oktyabrın 25-də cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndiriblər. Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə atəşlə ciddi zərbə vurub onun müqavimətini zəiflədərək müxtəlif istiqamətlərdə yeni mövqelərə irəliləyib. Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 2 tank, 2 PDM, 4 D-30 haubitsa topu, 1 2A36 "Qiasint-B" topu, 7 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.***

**Ordumuz yüksəkdəqiqlikli silah növünü tətbiq edib**

Azərbaycan Ordusu düşmənə qarşı yüksəkdəqiqlikli silah növünü tətbiq edib.

Cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə ordumuzun bölmələri üstünlüyünü qoruyub.

Aparılan uğurlu döyüş əməliyyatları zamanı düşmənin 2 artilleriya qurğusu, 2 BM-21 "Qrad", 1 komanda qərargah maşını, 1 komanda idarəetmə məntəqəsi, 2 yük maşını, 1 tank və bir neçə atəş nöqtəsi məhv edilib.

**Qubadlıda düşmənin 50 nəfərədək canlı qüvvəsi məhv edilib**



Qubadlı istiqamətində Ermənistan silahlı qüvvələrinin bölmələri hücum etməyə cəhd göstəriblər. Bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən 50 nəfərədək canlı qüvvə itirərək geri çəkilməyə məcbur edilib. Nəticədə düşmənin silah-sursatla dolu dörd avtomobil və bir zirehli texnikası ələ keçirilib.

Ələ keçirilən hərbi qənimətlərin görüntüləri təqdim edilib.

**İlham ƏLİYEV: "Azərbaycan bu haqq savaşında istəyinə nail olmadan dayanmayacaq"**



Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının "Fox-News" televiziya kanalına müsahibə verərək bir daha Azərbaycanın savaşı dayandırmağa hazır olduğunu bildirib: "Biz bu gün atəşkəsi razılaşdırmağa hazırıq. Lakin eyni zamanda Ermənistan, onun baş naziri deməlidir ki, onlar Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa tərəfindən işlənib hazırlanmış əsas prinsiplərə sadiqdir. İki gün bundan əvvəl Ermənistanın baş naziri dedi ki, Dağlıq Qarabağ münaqişəsinin diplomatik həlli yoxdur. Biz atəşkəs istəyirik, biz torpaqlarımızın qaytarılmağını istəyirik. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ABŞ, Fransa və Rusiyanın təqdim etdiyi sülh planına uyğun olaraq torpaqları boşaldacağına dair öhdəlik götürməlidir. Lakin o, bunu demir".

Prezident bir daha həqiqətləri açıqlayıb, bəzi iftiralara aydınlıq gətirib və qətiyyətlə vurğulayıb ki, Azərbaycan bu haqq savaşında istəyinə nail olmadan dayanmayacaq.

Həmin gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə keçirilib.

Bir aya yaxın davam edən müharibədə Azərbaycan Ordusunun döyüş meydanında böyük uğurlar əldə etdiyini söyləyən Ali Baş Komandan İlham Əliyev hər gün cəbhədən yaxşı xəbərlər gəldiyini deyib. Eyni zamanda diqqətə çatdırıb ki, vəziyyət tam nəzarət altındadır.

İşğal olunmuş torpaqlarımızın bir hissəsi bu müddət ərzində işğalçılardan azad edilib, 100-dən çox yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan təmizlənib. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı dalğalanır: "Azərbaycan Ordusu böyük rəşadət göstərir, peşəkarlıq göstərir. Biz 1990-cı illərin əvvəllərində bir neçə il ərzində torpaqlarımızı itirmişik. Bu gün hələ bir ay keçməyib, artıq Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı rayonlarının bir hissəsi işğalçılardan azad edilib. Yenə də deyirəm, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Düzdür, bəzi istiqamətlərdə ciddi düzəlişlərə ehtiyac var, amma biz bütövlükdə qarşımızda duran hədəfə çatırıq. Hər gün növbəti gün üçün döyüş tapşırığı verilir. Mən bu döyüş tapşırığını dəstəkləyirəm və demək olar ki, bu tapşırığın böyük hissəsi icra edilir".

Ali Baş Komandan bir daha Azərbaycan xalqını əmin edib ki, bundan sonra da haqq yolundan dönməyəcək, düşmən sona qədər qovulacaq, ərazi bütövlüyümüz bərpa ediləcək.

**Düşmənin 6 D-30, 1 haubitsa topu, 2 PDM-2 zirehli texnikası məhv edilib**



Günün ikinci yarısında cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri düşmənə dəqiq zərbələr endiriblər.

Zərbələr nəticəsində düşmənin 6 D-30 və 1 D-1 haubitsa topu, 2 PDM-2 zirehli texnikası, 1 avtomobil texnikası və xeyli sayda döyüş sursatı məhv edilib.

**Prezident xalqa daha bir xoş xəbər verib**



Axşam saatlarında Prezident xalqa daha bir xoş xəbər verib. Dövlət başçısı "X" səhifəsində paylaşım edərək yazıb: "Bu gün Azərbaycan Ordusu Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna!
Qarabağ Azərbaycandır!"

### 26 oktyabr

**Azərbaycan Ordusunun bölmələri 26 oktyabr saat 08:00-dan qüvvəyə minmiş humanitar atəşkəs rejiminə bütün cəbhəboyu tam riayət edib.**
**Ermənistan silahlı qüvvələri növbəti dəfə əldə olunmuş razılaşmanı kobud surətdə pozub. Saat 08:05-də Ermənistan silahlı qüvvələri yeni humanitar atəşkəs rejimini pozaraq Laçın şəhəri istiqamətindən Laçının Səfiyan kəndində yerləşən Azərbaycan Ordusunun bölmələrini və Tərtərin, Ağdamın kəndlərini artilleriya atəşinə tutub.**

**Mehriban ƏLİYEVA: "Hər bir qələbənin əldə edilməsi əsgərlərimizin qəhrəmanlığı sayəsində mümkün olur"**



Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi "İnstaqram" səhifəsində paylaşım edib:

"Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndləri və Qubadlı şəhəri işğaldan azad edildi! Bu münasibətlə bütün xalqımıza səmimi təbriklərimi çatdırıram! Hər bir yeni qələbənin əldə edilməsi əsgərlərimizin qəhrəmanlığı, şücaəti, cəsarəti, igidliyi və mətanəti sayəsində mümkün olur. Onların hər birinə hədsiz dərəcədə minnətdaram! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

**İlham ƏLİYEV: "Düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq"**

Prezident İlham Əliyev xalqa növbəti dəfə müraciətlə Azərbaycan Ordusunun düşməndən azad etdiyi məntəqələrin siyahısını elan edib:

"Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri!"

Prezident deyib ki, azad edilmiş məntəqələrdə bir şey qalmasa da, Azərbaycan öz doğma yurd yerlərini yenidən bərpa edəcək. Buna Azərbaycan xalqının da, dövlətinin də gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın: "Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

Mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

**İrəvanın növbəti uydurması ifşa edilib**

"Azərbaycan Ordusuna məxsus zərbə PUA-nın cəbhə xəttində guya məhv edilməsi barədə Ermənistanın yaydığı məlumatın heç bir əsası yoxdur və yalandır".

Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib ki, tam əksinə, günorta saatlarında Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən rayonu sahəsində bölmələrimizin mövqeləri üzərində uçuş keçirməyə cəhd göstərən düşmən kvadrokopteri atıcı silahlardan açılan atəşlə məhv edilib.

**İlham Əliyev Ermənistana çıxış yolu göstərib**



Prezident İlham Əliyev İtaliyanın "Rai-1" televiziya kanalına müsahibə verərək Ermənistanın növbəti təxribatlarını açıqlayıb.

Prezident deyib ki, atəşkəs hər dəfə Ermənistan tərəfindən pozulur. Bunun xronologiyası da var: "Onlar təyin edilmiş atəşkəs saatından düz 2 dəqiqə sonra atəşkəsi pozdular. Bu gün saat 08:00-dan yeni atəşkəs qüvvəyə minib. İndi Bakıda səhər saat 10:00-dır. Saat 8-dən təxminən 3-4 dəqiqə sonra Tərtər şəhərinə yenidən bir neçə mərmi atılıb. Biz buna cavab vermirik. Ümid edirik ki, bu, təsadüfən olub. Lakin əgər bu davam etsə, təbii ki, biz adekvat cavab verməyə məcbur olacağıq".

Dövlət başçısı bir daha sülh razılaşmasının hansı şərtlər əsasında mümkün ola biləcəyini açıqlayıb. Bildirib ki, Ermənistan tərəfindən də xoş məram göstərilməlidir. Əgər belə olsa, Azərbaycan Prezidentinin dediyi olacaq: "Əgər olmasa, biz hər bir halda bu torpaqları qaytaracağıq. Döyüş meydanında bugünkü vəziyyət də bunu göstərdi. Biz onları nəyin bahasına olsa, qaytaracağıq. Ya dinc yolla, ya da müharibə yolu ilə, lakin qaytaracağıq. Buna görə düşünürəm ki, Ermənistan rəhbərliyi bu barədə ciddi düşünməli və düzgün addım atmalıdır".

**Düşmən Tərtərə "Smerç" atıb**

Saat 18:15-də düşmən "Smerç" yaylım-atəşli reaktiv sistemindən Tərtər şəhərini atəşə tutub. Dağıntılar və yaralananlar olub.

**Qubadlının kəndlərindən videogörüntülər yayımlanıb**



Müdafiə Nazirliyi işğaldan azad olunmuş Qubadlı şəhərindən və rayonun Xanlıq, Padar kəndlərindən videogörüntülər yayıb.

### 27 oktyabr

**Yeni humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 26-sı gün ərzində və 27-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.**



Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum etmək cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulub.

Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilib. Ölənlər arasında diviziyanın qərargah rəisi polkovnik Sergey Şakaryan da olub.

Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd T-72 tankı, 4 ədəd D-30 və 3 ədəd D-20 topu, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd radiolokasiya stansiyası və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

**Ermənistan təxribat xarakterli məlumat yayıb**



Ermənistan yalan məlumat yayaraq sərhəd zastavasının vurulduğunu iddia edib. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilib ki, Ermənistanın guya Azərbaycana məxsus PUA və raket-artilleriya sistemlərindən istifadə etməklə onların ərazisinin atəşə tutulması barədə yaydığı məlumat yalandır və təxribat xarakteri daşıyır: "Bildiririk ki, Azərbaycan yeni humanitar atəşkəs rejiminə tam riayət edir. Əksinə, oktyabrın 27-də saat 09:30-dan başlayaraq, Ermənistan tərəfi Zəngilan rayonunun Ağbənd kəndi istiqamətində ərazilərimizi minaatanlardan intensiv atəşə tutub".

**Bərdəyə "Smerç" atılıb, 4 nəfər dünyasını dəyişib, 7 nəfər yaralanıb**



Yeni humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Tərtər şəhəri və rayonun kəndlərini, eləcə də Goranboy və Bərdə rayonlarının ərazilərini raket atəşinə tutub.

Saat 16:00 radələrində Ermənistan silahlı qüvvələri Bərdə rayonu ərazisini "Smerç" yaylım atəşli reaktiv sistemləri ilə atəşə tutub. Nəticədə 4 nəfər dünyasını dəyişib, 7 nəfər yaralanıb. Ermənistanın siyasi-hərbi rəhbərliyinin bu müharibə cinayəti nəticəsində mülki şəxslər, o cümlədən azyaşlı uşaq həyatını itirib və aralarında uşaqlar və qadınlar olmaqla xeyli sayda mülki şəxs xəsarət alıb.

**Birinci vitse-prezident Mehriban Əliyeva dünya birliyinə səslənib**



"Bərdə ərazisinin "Smerç" yaylım atəşli reaktiv sistemləri ilə atəşə tutulması, insan təlefatı hər kəsi kədərləndirir".

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" hesabında paylaşım edərək yazıb: "Bu gün Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozublar. "Smerç" qurğusundan buraxılmış kasetli raketlərlə atəş nəticəsində dörd mülki şəxs, o cümlədən yeddi yaşlı qız həlak olub. Dördü uşaq olmaqla on dörd nəfər ciddi xəsarət alıb.

Silahlı münaqişələr zamanı mülki şəxslərin qətlə yetirilməsi 1949-cu il Cenevrə konvensiyalarının və bütövlükdə beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulması deməkdir. Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun? Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzulayıram. Biz öz torpağımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq.

Uca Tanrı Vətənimizi qorusun!"

**Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti birgə bəyanat yayıb**



Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti birgə bəyanat yayıb. Qeyd edilib ki, yeni humanitar atəşkəs rejiminə riayət edən Azərbaycan bütün cəbhəboyu düşmənin törətdiyi təxribatlara təmkinlə yanaşaraq yalnız adekvat tədbirlər görüb.

Bundan istifadə edən Ermənistan isə cəbhənin müxtəlif istiqamətləri, xüsusilə də bərpa edilmiş dövlət sərhədləri üzrə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməklə növbəti təxribatlarına zəmin yaradıb: "Ermənistan rəhbərliyi artıq dərk etməli və hesablaşmalıdır ki, bərpa edilmiş dövlət sərhədləri münaqişə zonası deyil və Azərbaycanın tamhüquqlu suveren ərazilərini müəyyən edən beynəlxalq birlik tərəfindən tanınan dövlət sərhədidir. Dövlət sərhədinin toxunulmazlığı təmin edilməlidir. Bu istiqamətdə baş verən istənilən təxribat ərazi bütövlüyümüzə təcavüz kimi dəyərləndirilir.

Bu baxımdan Azərbaycan öz ərazilərinə təhdid təşkil edən istənilən legitim hərbi hədəfləri yerləşdiyi ərazidən asılı olmayaraq məhv etmək hüququna malikdir".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Bərpa, yenidənqurma və dirçəliş dövrü

## Qarabağ və Şərqi Zəngəzurun azadlığı və bu ərazilərdə həyata keçirilən quruculuq işləri bütöv Azərbaycanın inkişafına töhfə verir

**"Konstitusiya və Suverenlik İli"ndə təntənə ilə beşinci ildönümünü qeyd etdiyimiz Qarabağ zəfəri sayəsində xalqımız müstəqil Azərbaycanın tarixindəki ən qüdrətli çağlarını yaşayır. Bütöv vətənimizin sərhədləri boyu bayrağımız məğrur-məğrur dalğalanır, üç onillik boyu həsrəti ilə qovrulduğumuz Qarabağ və Şərqi Zəngəzurda yenidən həyat qaynayır. Düşmən tərəfindən vəhşicəsinə dağıdılan ərazilərimiz gündən-günə abadlaşır. Gerçəkləşdirilən möhtəşəm bərpa və quruculuq işləri bu yerlərə səfər edən istər yerli, istərsə də əcnəbi qonaqlar olsun, hər kəsi heyran qoyur. Bu ərazilərdə "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyası ilə yenidən qurulan yaşayış məskənləri beynəlxalq miqyasda böyük təqdir görür.**

















Oktyabrın 15-də Xankəndidə keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumunda iştirakçılara müraciətində "Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən birini təşkil edir. Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir" deyən Prezident İlham Əliyev xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işlərinin Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını və icra imkanlarını nümayiş etdirdiyini bildirib.

Dövlət başçısı onu da vurğulayıb ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər sayəsində Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi ölkəmiz üçün bərpa, yenidənqurma və dirçəliş dövrünün əsasını qoydu.

### Növbəti 4 ildə bu ərazilərə 13 milyard manatdan çox vəsait xərclənəcək

Ağır müharibədən çıxsa da, işğaldan azad etdiyi bölgələri iqtisadiyyatının gücü sayəsində yenidən quran Azərbaycan öz maliyyə gücü hesabına bu yerlərdə meqalayihələr icra edir. Qarabağ və Şərqi Zəngəzurda quruculuğa start verilməsindən ötən müddət ərzində dövlət büdcəmizin əsas prioritetlərindən biri də Böyük qayıdışın həyata keçirilməsidir.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclərin (Böyük Qayıdış I planının layihəsi) 2026-2029-cu illərdə 13,5 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bunun da əsaslı xərclərdə xüsusi çəkisi 23,5 faizdir. Bununla bağlı Maliyyə Nazirliyinin yaxın 4 il üçün açıqladığı Ortamüddətli Xərclər Çərçivəsində əksini tapan məlumata görə, 2024-cü ildə də işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın təmin edilməsi üçün "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması davam etdirilib. Ümumilikdə 2020-2024-cü illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən cəmi 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5,3 milyard manat vəsait ayrılıb, 2025-ci ildə bu məqsədə 4,3 milyard manat vəsait nəzərdə tutulub.

Həmçinin bildirilir ki, ortamüddətli dövrdə bölgədə yaşayış və qeyri-yaşayış komplekslərinin inşası davam etdiriləcək, bölgə qabaqcıl standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin ediləcək, bərpaolunan enerji mənbələrindən istifadə genişləndiriləcək, iqtisadi fəaliyyətin təşviqi ilə bağlı tədbirlər davam etdiriləcək: "2027-2030-cu illəri əhatə edəcək "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması çərçivəsində proqram üzrə həyata keçiriləcək tədbirlər və onların maliyyə tutumu dəqiqləşdiriləcək".

### Sistemli və ardıcıl tədbirlər

Xankəndidə keçirilən III Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarına müraciətində dövlət başçısı İlham Əliyev bildirib ki, müasir şəhərsalma prinsiplərinin tətbiqi ilə Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı infrastrukturunun qurulması, yaşayış məntəqələrinin yenidən salınması və əhalinin qayıdışı üçün zəruri şəraitin yaradılması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilir.

Sözügedən iqtisadi rayonlarda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri nəticəsində regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin baş planları artıq təsdiqlənib.

Qısa zaman ərzində işğaldan azad edilən ərazilərdə üç beynəlxalq hava limanının açılışının edilməsi isə bu yerlərdə dövlətimizin apardığı quruculuq işlərinin miqyasını gözlər önünə sərir. Azərbaycan dövləti 2021-ci ildə, cəmi 8 ay ərzində Qarabağın "hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanını tikib istifadəyə verib. Eləcə də 2022-ci il oktyabrın 20-də, Zəngilanın azadlıq günündə Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib. Hər iki beynəlxalq hava limanının açılışı Prezident İlham Əliyev və qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutub. Laçın Beynəlxalq Hava Limanının rəmzi açılışını bildirən lenti isə Azərbaycan və Türkiyə prezidentləri bu il 28 May - Müstəqillik Günündə kəsiblər. Həmçinin bu ərazilərdə yollar salınır, yaşayış evləri, səhiyyə müəssisələri, təhsil ocaqları və digər sosial infrastrukturun tikintisi davam etdirilir, enerji infrastrukturu yenidən qurulur, "yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda günəş və külək enerjisi layihələri həyata keçirilir.

İşğaldan azad edilən torpaqlarda tarixi, mədəni və dini abidələrimizin inşası və təmirini Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu böyük müvəffəqiyyətlə həyata keçirir.

### Uzunmüddətli sülh və əməkdaşlığın təmini

Qarabağ və Şərqi Zəngəzurda aparılan sürətli və kompleks işlərin nəticəsidir ki, "Böyük qayıdış" proqramı çərçivəsində 30 minə yaxın keçmiş məcburi köçkün dədə-baba yurduna qayıdıb. 2022-ci ildən etibarən müxtəlif vaxtlarda Zəngilan rayonunun Ağalı, Ağdərə rayonunun Talış, Həsənriz, Suqovuşan, Kolatağ, Vəngli, Laçın rayonunun Zabux, Sus, Bəylik, Xocalı rayonunun Ballıca, Təzəbinə, Xanyurdu, Şuşakənd, Badara, Seyidbəyli, Daşbulaq, Ağdam rayonunun Sarıcalı, Kəngərli, Xıdırlı, Xocavənd rayonunun Sos kəndlərinə, Xocavənd rayonunun Qırmızı Bazar, Hadrut qəsəbələrinə, o cümlədən Laçın, Füzuli, Şuşa, Xocalı, Cəbrayıl, Kəlbəcər şəhərlərinə qayıdış köçləri həyata keçirilib.

Ümumiyyətlə, bu gün "Böyük qayıdış" proqramı çərçivəsində 60 minə yaxın insan Qarabağ və Şərqi Zəngəzurda yaşayır, işləyir və təhsil alır.

Elə bu il III Azərbaycan Milli Şəhərsalma Forumunun Xankəndi şəhərində keçirilməsinin də öz rəmzi mənası var idi. Bu həm də onun göstəricisi idi ki, bir zamanlar işğal altında olan bu yurdlara əzəli sahibləri qayıdıb və buranı cənnətməkana çevirir.

Forum iştirakçılarına müraciətində Qarabağın qurucu lideri İlham Əliyev məhz bu məxsusi məqamı vurğulayıb: "Qarabağ və Şərqi Zəngəzur regionlarında həyata keçirilən quruculuq prosesi təkcə şəhərsalma və infrastrukturun inkişafı deyil, regionda uzunmüddətli sülh və əməkdaşlığın qurulması baxımından xüsusi əhəmiyyət daşıyır. Həyata keçirilən məqsədyönlü layihələr, qurulan yeni əməkdaşlıqlar və formalaşan iqtisadi mühit yerli əhali üçün dayanıqlı yaşam imkanları yaradır və şəhərlərin dayanıqlı inkişafına xidmət edir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Baş prokuror Braziliya Federativ Respublikasında rəsmi səfərdədir

**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının baş prokuroru cənab Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Braziliya Federativ Respublikasına rəsmi səfər edib.**



Səfər çərçivəsində baş prokuror Kamran Əliyev Braziliya, İspaniya və Portuqaliya baş prokurorları ilə ikitərəfli görüşlər keçirib.

Braziliya Federativ Respublikasının baş prokuroru Paulo Qonet ilə keçirilmiş görüşdə ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlər, hüquq-mühafizə orqanları arasında əməkdaşlığın möhkəmləndirilməsi, cinayətkarlıqla mübarizə, ətraf mühitin mühafizəsi, iqlim cinayətlərinə qarşı birgə fəaliyyətin gücləndirilməsi, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsi və cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya sorğularının icra vəziyyəti müzakirə olunub.

Görüşdə həmçinin baş prokuror AZAL təyyarəsinin qəzaya uğraması ilə bağlı cinayət işinin istintaqı çərçivəsində göstərilmiş səmərəli əməkdaşlığa görə qarşı tərəfə təşəkkür edib.

Portuqaliya Respublikasının baş prokuroru Amadeu Quera ilə keçirilmiş görüşdə baş prokuror Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində ölkədə korrupsiyaya qarşı sistemli mübarizənin aparıldığını qeyd edib və bu sahədə Portuqaliyanın müsbət təcrübəsinin öyrənilməsi və tətbiqinə maraqlı olduqlarını bildirib.

Öz növbəsində baş prokuror Amadeu Quera Ministerio Publico (İctimai Prokurorluq) və MENAC (Korrupsiyaya Qarşı Milli Mexanizm) barədə məlumat verərək, ikitərəfli əlaqələrin inkişaf etdirilməsinin və cinayətlərin bütün təzahürlərinə qarşı birgə səylərin artırılmasının vacibliyini vurğulayaraq, qeyd olunan sahələr üzrə Azərbaycanın müsbət təcrübəsinin öyrənilməsinə maraq göstərib.

İspaniya Krallığının baş prokuroru Alvaro Qarsia Ortiz ilə keçirilmiş görüşdə cinayətkarlıqla mübarizə, ətraf mühitin mühafizəsi, iqlim cinayətlərinə qarşı birgə fəaliyyətin gücləndirilməsi, eləcə də konkret cinayət işləri üzrə hüquqi yardım və ekstradisiya sorğularının icra vəziyyəti müzakirə edilib.

Səfər çərçivəsində Çin, Rusiya, Paraqvay və digər ölkələrin nümayəndə heyətləri ilə də görüşlər keçirilib.

Qarşılıqlı anlayış və etimad əsasında keçirilən görüşlər zamanı tərəflər qurumlararası əməkdaşlığın gələcək inkişafı və genişləndirilməsini müzakirə ediblər.

Görüşlərdə Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında fövqəladə və səlahiyyətli səfirinin müşaviri Rafiq Rüstəmov da iştirak edib.

Nümayəndə heyətinin Braziliyaya səfəri uğurla başa çatıb.

# Türk dövlətlərinin Almaniyadakı səfirlərinin toplantısı olub

**Azərbaycanın Almaniyadakı səfirliyinin dəvəti ilə Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin Almaniyadakı səfirlərinin toplantısı keçirilib.**

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, toplantı Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının XII Zirvə Görüşündə müəyyən edilmiş hədəflərin həyata keçirilməsi istiqamətində səfirliklər arasında əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə təşkil olunub.



Görüşdə həmçinin ortaq türk tarixi və mədəni irsinin Almaniyada təbliği istiqamətində nəzərdə tutulan tədbirlər, mədəniyyət və incəsənət sahələrində birgə fəaliyyət və layihələr, eləcə də digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev çıxışında türk dünyasının hazırda inkişaf və birlik baxımından yeni mərhələyə qədəm qoyduğunu qeyd edib. Bildirib ki, türk dövlətləri arasında müxtəlif sahələrdə yaranan səmərəli əməkdaşlıq və qarşılıqlı dəstək münasibətlərin daha da möhkəmlənməsinə və qardaş xalqlar arasında birliyin güclənməsinə səbəb olur.

Ortaq türk irsinin, tarixinin və mədəni dəyərlərinin beynəlxalq miqyasda, xüsusən də Almaniyada geniş tanıdılmasının əhəmiyyəti vurğulanaraq, bu məqsədlə birgə addımların atılmasının önəmi vurğulanıb.

Sonda səfirlər ötən həftə Berlində açılan "MAMA - Ana Təbiət" sərgisi ilə tanış olublar. Məlumat verilib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti və IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın ideya müəllifliyi ilə konseptual şəkildə hazırlanmış sərgi təbiəti passiv bir fon kimi deyil, əksinə, canlı, qidalandırıcı, davamlı və bərpaedici əsas qəhrəman kimi təqdim edir. MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi Azərbaycan da daxil olmaqla, 31 ölkədən 50-dən çox sənətkarı bir araya gətirərək incəsənət vasitəsilə planetimizi gələcək nəsillər üçün qorumağa çağırır.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş qəbulu mərkəzində 2025-ci ilin noyabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | **3** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | **4** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | **5,19** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | **6** |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | **7,21,28** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | **7** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | **12** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | **13** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | **14** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | **18** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | **18** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **18** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | **20** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **21** |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | **24** |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | **25** |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | **25** |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | **26** |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | **26** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | **28** |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | **28** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | **27** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Tərtər Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Tərtər, Şuşa, Ağdam, Ağcabədi, Bərdə, Füzuli və Xocavənd rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirlikdən verilən məlumata görə, nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə vətəndaşların müraciətləri əsasən işlə təmin olunma, subsidiyaların verilməsi, torpaq sahəsinin ayrılması, dəymiş zərərə görə sığorta ödənişləri, işğaldan azad edilmiş ərazilərdə torpaq sahəsinin ayrılması, güzəştli şərtlərlə kredit ayrılması, suvarma suyu ilə təminat və digər məsələlərlə bağlı olub.

Nazir Məcnun Məmmədov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

❖ ❖ ❖

Oktyabrın 24-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Gədəbəy rayonunda vətəndaşlarla görüşüb.

Dövlət Komitəsindən bildirilib ki, görüşdə Gədəbəy və Şəmkir rayon sakinlərinin müraciətləri dinlənilib. Müraciətlər arasında alimentin ödənilməsi, hüquqi yardım, təhsilə sosial dəstəyin göstərilməsi və digər məsələlər yer alıb.

Hər bir müraciət fərdi qaydada dinlənilib, qaldırılan məsələlərin qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Həlli araşdırma tələb edən müraciətlər qeydiyyata alınaraq nəzarətə götürülüb.

❖ ❖ ❖

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov Salyan şəhərində vətəndaşlarla görüşüb.

Nazirlikdən bildirilib ki, görüşə gələn vətəndaşlar əmlak, vergi, sahibkarlığın inkişafı və s. məsələlərlə bağlı müraciət ediblər.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə vətəndaşların müraciətləri dinlənilib, sorğu xarakterli müraciətlərlə bağlı vətəndaşlara əsaslandırılmış cavab və izahat verilib. Araşdırma tələb edən müraciətlər qanunvericiliyə uyğun tədbirlərin görülməsi üçün aidiyyəti strukturlara yönləndirilib.

*AZƏRTAC*

# Böyüklük nümunəsi

## Ermənilər bir daha əmin oldular: azərbaycanlılar çörəkverən xalqdır

*Əvvəli 1-ci səh.*

"Zənnimcə, bu, həm də Azərbaycan ilə Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, praktikada da mövcud olduğunun yaxşı göstəricisidir", - İlham Əliyev Qazaxıstanda Prezident Kasım-Jomart Tokayevlə görüşündən sonra belə deyib.





Azərbaycanın tranzit məhdudiyyətlərini aradan qaldırması İrəvanda da diqqətdən kənarda qalmayıb. Ermənistan rəhbərliyi bunu sülh istiqamətində atılmış mühüm addım kimi qiymətləndirib. Baş nazir Nikol Paşinyan hökumətin iclasında çıxışı zamanı deyib: "Artıq iki gündür müzakirə olunur ki, Azərbaycan Ermənistana qarşı tranzit məhdudiyyətlərini ləğv edib. Mən Tbilisidə keçirilən İpək yolu konfransında bu qərara görə, Azərbaycan Prezidentinə minnətdarlığımı bildirdim və həmin addımı alqışladım. Eyni təşəkkürü burada da demək istəyirəm, çünki bu çox vacib qərardır. Bütün bunlar göstərir ki, Vaşinqton Bəyannaməsi və əldə olunan razılaşmalar sadəcə sənəd deyil. Biz artıq konkret nəticələr görürük".

Sual yarana bilər ki, bu, sadəcə bir tranzit əməliyyatı, yoxsa regionda sülh və əməkdaşlıq üçün yeni bir mərhələnin başlanğıcıdır? Hadisələr onu diktə edir ki, bu, həm tranzit əməliyyatı, həm də iqtisadi əməkdaşlıq üzərindən regionda sülh və etimadın ilk əməli göstəricisidir. Marşrut birbaşa siyasi danışıqların nəticəsi olmasa da, sülh jesti kimi qiymətləndirilə bilər. Azərbaycan bu tranzitlə regional iqtisadi mərkəz rolunu gücləndirir, üstəlik, Ermənistanla iqtisadi qarşılıqlı asılılığın olmasına və etimadın bərpasına ilkin zəmin yaradır. Ermənistan isə böyük bir qazanc əldə edərək uzun illər təcrid vəziyyətində qaldığı ticarət yollarına alternativ çıxış imkanlarına sahib olur. Qazaxıstana gəldikdə, o, neytral vasitəçi rolunda özünü etibarlı tərəfdaş kimi göstərir və regional diplomatiyada balansın qorunmasına şərait yaradır.

Təbii ki, Zəngəzur dəhlizi (TRIPP) açıq olsaydı, Qazaxıstandan gələn yük daha sürətli və daha optimal marşrutla ünvana çatdırıla bilərdi ki, bu da tranzit xərclərinin azalmasına və ticarətin daha səmərəli həyata keçməsinə imkan verərdi. Bu isə o deməkdir ki, Zəngəzur dəhlizinin (TRIPP) fəaliyyət göstərməsi Azərbaycan və Ermənistan arasında iqtisadi əməkdaşlığın daha çox genişləndirilməsinə və qarşılıqlı etimadın möhkəmlənməsinə şərait yaradır. Zəngəzur dəhlizi, yaxud TRIPP ətrafında yaranan fikir ayrılıqları və qarşılıqlı inamsızlıq səbəbindən proseslər hələlik ləng irəliləyir. Belə bir şəraitdə Qazaxıstan kimi neytral və dost dövlətin təşəbbüsü ilə baş verən tranzit əməliyyatı xüsusi əhəmiyyət kəsb edir.

Qazaxıstanın Azərbaycan üzərindən Ermənistana yük göndərməsi, əslində, Bakı ilə İrəvan arasında etimadın müəyyən dərəcədə bərpa olunduğuna işarədir. Eyni zamanda Azərbaycanın özünü regionda etibarlı tranzit və logistika mərkəzi kimi təsdiqləməsinin göstəricisidir. Məlumdur ki, Bakı enerji ixracatçısı olmaqla yanaşı, həm də Orta dəhlizin mühüm qovşağıdır. Məhz bu amil Azərbaycanın Qazaxıstan, Orta Asiya və Cənubi Qafqaz arasında iqtisadi körpü rolunda çıxış etməsinə imkan verir.

Qazaxıstan Orta Asiyanın ən iri taxıl ixracatçılarından biridir və məhsulunu, əsasən, Rusiya, Çin və Qara dəniz limanları üzərindən göndərir. Lakin son illər geosiyasi gərginliklər, sanksiyalar və nəqliyyat məhdudiyyətləri onu alternativ marşrutlar axtarmağa vadar edib. Bu səbəbdən Orta dəhliz Qazaxıstan üçün strateji əhəmiyyət kəsb edir. Azərbaycan üzərindən Ermənistana açılan bu yeni tranzit marşrutu da məhz Orta dəhlizin bir qolu kimi qiymətləndirilə bilər. Bu xətt logistik baxımdan daha qısa və təhlükəsiz, siyasi baxımdan isə simvolikdir. İllərlə bir-birinə qapalı sərhədlərdən baxan ölkələr indi eyni iqtisadi zəncirin həlqələrinə çevrilirlər.

Əslində, Azərbaycan üçün bu tranzit sadəcə yük daşınması deyil, strateji əhəmiyyət daşıyan iqtisadi imkan deməkdir. Yəni Bakı öz ərazisindən keçən yüklərdən gəlir əldə edir və regionda etibarlı nəqliyyat, ticarət mərkəzi kimi mövqeyini möhkəmləndirir. Eləcə də ölkənin logistika potensialını artırır və nəqliyyat infrastrukturunun daha səmərəli istifadəsinə şərait yaradır.

Ermənistana gəlincə, qonşu dövlət üçün bu marşrut yeni bir nəfəsdir, açıq qapıdır. 30 il təcrid vəziyyətində qalan ölkə indi alternativ ticarət yollarına çıxış imkanı qazanır. Bu, onlar üçün həmçinin iqtisadi sabitlik və daxili ictimai-siyasi mühitin normallaşması baxımından mühüm amildir.

Beləliklə, üç ölkə üçün də gərəkli olan bu marşrut Cənubi Qafqazda qarşılıqlı faydaya əsaslanan iqtisadi əlaqələri praktik müstəviyə çıxarır. Sülh təkcə diplomatik sənədlərdən asılı deyil ki?! Sülh - mallar, marşrutlar və iqtisadi maraqlar vasitəsilə də formalaşır. Bu mənada Qazaxıstan taxılının Azərbaycan üzərindən Ermənistana daşınması sülhün praktik ilk testidir.

Ümumilikdə baş vermiş bu hadisə göstərir ki, Cənubi Qafqaz siyasətdən çox iqtisadi diplomatiya meydanına çevrilməkdədir. İndi dövlətlər bir-birinə təsir göstərmək üçün silahdan və təzyiq dilindən deyil, nəqliyyat dəhlizlərindən, ticarət müqavilələrindən və logistik əməkdaşlıqdan istifadə edirlər. Bu isə uzunmüddətli sabitliyin yaranması üçün ən real mexanizmdir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# ARDNF cari ilin 9 ayı üzrə gəlir və xərclərini açıqlayıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) bu ilin yanvar-sentyabr ayları üzrə gəlir və xərclərinə dair məlumat yayıb. Məlumatda "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarından daxil olan gəlirlər barədə rəqəmlər də öz əksini tapıb.**

Cari ilin 9 ayında AÇG yataqlar blokundan 6 milyard 183,9 milyon manat vəsait daxil olub. "Şahdəniz"dən daxil olan gəlir isə 697 milyon manat təşkil edib. Bu, qaz və kondensatdan əldə edilən ümumi gəlirdir.

Göstərilən rəqəmlər AÇG və "Şahdəniz"də hasilatın ahəngdar davam etdiyini təsdiqləyir. Bunu BP şirkətinin məlumatından da görmək olur. Belə ki, əməliyyatçı şirkət son məlumatında "Şahdəniz" yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC-yə və Avropadakı alıcılara qaz çatdırılmasının davam etdiyini bildirib.

İlin ilk altı ayında yataqdan ümumilikdə - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 14 milyard standart kubmetr qaz və təxminən 2 milyon ton (təqribən 16 milyon barel) kondensat çıxarılıb. Qeyd edək ki, mövcud "Şahdəniz" qurğularının hasilat gücü hazırda gündə təxminən 77,2 milyon (ildə təqribən 28,2 milyard) standart kubmetrdir.

BP-nin məlumatına görə, AÇG-dən ümumi hasilat gündə orta hesabla 327 min barel, yarım ildə təxminən 59 milyon barel, yəni 8 milyon ton olub. "Çıraq"dan gündəlik orta hasilat 21 min, "Mərkəzi Azəri"dən 86 min, "Qərbi Azəri"dən 75 min, "Şərqi Azəri"dən 42 min, "Dərinsulu Günəşli"dən 54 min, "Qərbi Çıraq"dan 24 min və ACE-dən ("Azəri Mərkəzi Şərqi") 25 min barel təşkil edib.

ARDNF-in digər bir məlumatında cari il sentyabrın 30-na fondun aktivlərinin 2025-ci ilin əvvəlinə (60 milyard 31,4 milyon dollar) nisbətən 16,9 faiz artaraq 70 milyard 161,7 milyon dollar təşkil etdiyi bildirilir.

Dövlət Neft Fondu həmçinin onu da bildirir ki, qızıl bazarı hesabat dövründə ardıcıl olaraq tarixi maksimum səviyyələri yeniləyərək yüksək gəlirlilik nümayiş etdirmişdir. Qlobal miqyasda davam edən qeyri-müəyyənliklər, mərkəzi banklar tərəfindən həyata keçirilən irihəcmli alışlar və digər mənbələrdən mövcud tələbat qızılın qiymətinin yüksəlməsinə səbəb olmuşdur. Nəticə etibarilə bu amillər fondun qızıl altportfelinin performansını əhəmiyyətli dərəcədə yaxşılaşdırmış və büdcədənkənar gəlirlərin artımına töhfə vermişdir.

Xatırladaq ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun təsis edilməsi haqqında fərman karbohidrogenlər kimi qiymətli sərvətimizin xalqa davamlı şəkildə xeyir-bərəkət gətirməsi məqsədilə 1999-cu il dekabrın 29-da Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanıb. Bir il sonra - 2000-ci il dekabrın 29-da Ulu Öndərin növbəti fərmanı ilə ARDNF-in Əsasnaməsi təsdiq olunub. Bundan yarım il sonra isə daha bir fərmanla fondun vəsaitlərinin yerləşdirilməsi qaydaları təsdiq edilib və qurum əməli fəaliyyətə başlayıb.

ARDNF-in fəaliyyəti xeyirxah, məqsədyönlü və uzaqgörən siyasət əsasında qurulub. Qurumun qarşısında çox mühüm vəzifələr dayanır ki, onlardan da ölkədə makroiqtisadi sabitliyin qorunması, neft gəlirlərindən asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və s. xüsusilə əhəmiyyətli yer tutur. Fondun fəaliyyəti, eləcə də, ölkənin sosial-iqtisadi tərəqqisi naminə nəhəng ümummilli layihələrin maliyyələşdirilməsinə dəstək verir.

2025-ci ilin yanvar-sentyabr aylarında icrası davam edən, aşağıda adıçəkilən layihələrə 34,3 milyon manat yönəldilib. Belə ki, "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə yönəldilən vəsait 8,2 milyon manat təşkil edib. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nın maliyyələşməsinə isə 26,1 milyon manat yönəldilib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Erməni cəmiyyətində revanşistlərə inam qalmayıb

**Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca siyasi vəziyyət gərginləşir, daha doğrusu, revanşist qüvvələr və onlara dəstək olanlar fəallaşır. Təəssüflər olsun ki, fəallaşan bu qüvvələr həm də sülh prosesinə təhlükə yaradır, durulmaqda olan suyu bulandırmağa, erməni cəmiyyətini çaşdırmağa çalışır.**



Revanşist dairələrin nümayəndələrindən biri olan, siyasi şərhçi Benyamin Matevosyan növbəti dəfə məntiqsiz və təxribat xarakterli açıqlama verib. O, sosial şəbəkədə yaydığı qeydlərində Nikol Paşinyanın ordu islahatını və Azərbaycanla tranzit razılaşmasını "eyni zəncirin halqaları" adlandırıb. İddia edib ki, guya bu addımlar Ermənistan üçün təhlükə yaradacaq.

Hazırda Ermənistanda iqtisadi vəziyyət ağır olmaqla yanaşı, demoqrafik göstəricilər də yaxşı deyil, əhali sürətlə ölkəni tərk edir. Xüsusən Qarabağdan köçənlər sosial və iqtisadi çətinliklər məngənəsində sıxılan Nikol Paşinyan hökumətindən xeyli narazıdır. Ehtimal olunur ki, onların bir hissəsi parlament seçkilərində etiraz əlaməti olaraq Xocalı qatili Robert Koçaryana səs verə bilər. Eyni zamanda revanşist düşüncələrə sahib marjinal qrupların da keçmiş rejim nümayəndələrini dəstəkləmək ehtimalı var. Amma bütün bunlara baxmayaraq, ekspertlər hesab edirlər ki, Robert Koçaryanın Nikol Paşinyanı üstələmək şansı xeyli aşağıdır. Çünki ermənilər R.Koçaryanı sülhdən uzaq olan, müharibə tərəfdarı kimi tanıyırlar. Ona görə də erməni xalqı bu cür revanşistlərə heç vaxt səs verməz.

Həmişə görünüb ki, din xadimləri, adətən, sülh təşəbbüsü ilə çıxış edər, insanları sülhə, əmin-amanlığa çağırar. Təəssüflər olsun ki, Ermənistanda belə deyil. Kilsə, din xadimləri bəzən açıq-açığına, bəzən də gizli yollarla revanşistləri dəstəkləyirlər. Buna görə də Ermənistanda gündən-günə iqtidar-kilsə qarşıdurması dərinləşir. Belə baxanda, Paşinyan hakimiyyəti ilə kilsə arasında bu gərginlik təzə deyil. Amma bu il mayın sonlarından başlayaraq, Ermənistanın baş nazirinin Erməni Apostol Kilsəsinin qanunsuz əməlləri ilə bağlı sosial şəbəkələrdə paylaşımları qarşıdurmanı açıq müstəviyə keçirib. Baş verən hadisələrdən, qarşıdurmalardan açıq-aydın görünür ki, kilsə sülh tərəfdarı olan hakimiyyəti yox, müharibə ocağını körükləyən revanşistlərə rəğbət bəsləyir.

Törətdikləri qanunsuz əməllərinə görə oktyabrın 15-də təhlükəsizlik qüvvələri Araqatsotn yeparxiyasının rəhbəri yepiskop Mkrtiç Proşyan da daxil olmaqla 13 din xadimini saxlayıb. Yepiskop da daxil olmaqla saxlanılan 3 şəxs barəsində cinayət işi başlanıb. Onlara vətəndaşları ictimai toplantılarda iştirak etməyə məcburetmə ittihamı ilə yanaşı, "etibardan sui-istifadə etməklə özgənin əmlakını mənimsəmə, külli miqdarda və vəzifə səlahiyyətlərindən istifadə etməklə törədildikdə" və "vəzifə mövqeyindən istifadə etməklə seçki hüquqlarının həyata keçirilməsinə mane olma" maddələri ilə ittiham irəli sürülüb.

Baş verən bu hadisələrdən bəhs edən erməni mediası yazır ki, hakimiyyətin ruhanilərə hücumu bütün yeparxiyanı iflic vəziyyətinə salıb. Erməni Apostol Kilsəsinin 3 yeparxiyasının rəhbərləri - Araqatsotndan Proşyan, Şirakdan Mikael Ajapaxyan və Tavuşdan Baqrat Qalstanyan dəmir barmaqlıqlar arxasına salınıb. Ajapaxyan dövlət çevrilişinə çağırışa görə 2 il, Qalstanyan isə üsyan hazırlamağa görə 15 ilə qədər həbs cəzası ala bilər. Xatırladaq ki, oliqarx Samvel Karapetyan kilsənin müdafiəsi üçün ilk çıxış edənlərdən olub. Bəyan edib ki, parlament müxalifəti Paşinyanı sakitləşdirə bilməsə, başqa üsullara əl atacaq. Buna cavab olaraq Ermənistan hakimiyyəti Karapetyanı dövlət çevrilişinə çağırışda günahlandıraraq saxlayıb. Onu 5 ilə qədər həbs gözləyir.

Hakimiyyətə müxalif olan qüvvələr - "Qarabağ klanı", "Daşnaksütyun" və kilsə də seçkilərə hazırlıq görür. Çirkin məqsədlərinə çatmaq üçün bütün güclərini, resurslarını səfərbər edirlər. Ümumiyyətlə, Ermənistandakı bütün müxalifət, revanşist güclər Paşinyana qarşı birləşiblər. Onlar 2026-cı ildə keçiriləcək seçkilərin son şansları olduqlarını yaxşı anlayırlar. Ona görə də seçki ərəfəsində Rusiyaya bağlı olan kilsə, daşnaklar, revanşistlər, Sarkisyan-Koçaryan cütlüyü, o cümlədən xarici qüvvələr Ermənistandakı prosesləri həm açıq şəkildə, həm də gizli yollarla qızışdırmağa çalışırlar.

Təbii ki, bütün bunlar, hakimiyyət üçün ciddi siqnaldır. Paşinyan dərk edir ki, əgər o, hakimiyyəti təhvil versə, ciddi ittihamlara məruz qalacaq və ötən illər ərzindəki hadisələrə görə bütün məsuliyyəti onun üzərinə atacaqlar. Bundan qaçmaq üçün Paşinyan ölkədə yaranmış vəziyyəti sabitləşdirmək və mövqeyini möhkəmləndirmək üçün təsirli addımlar atır.

Bu gün Ermənistanda narazılıq yaradan başqa bir məsələ də ortalığa çıxıb. Ermənistan hökumətinin qərarı ilə qondarma "erməni soyqırımı memorialı"nda təmir-bərpa işləri aparılmağa başlanılıb. Bu isə o deməkdir ki, qondarma abidəni ziyarətə gedənlərin yolu bağlanıb. Hakimiyyətin bu addımı Qriqoryan kilsəsinin və revanşist qüvvələrin növbəti narazılığına səbəb olub. Bunu əllərində bəhanə edərək hakimiyyət əleyhinə kampaniya aparırlar. Revanşistlərdən nümunə götürün bəzi təşkilatlar da abidənin açılması ilə bağlı hökumətə çağırışlar edirlər. İddia edirlər ki, Nikol Paşinyan hökuməti qondarma erməni soyqırımı kompleksini bərpa adı ilə, əslində, tamamilə məhv etməyə çalışır. Buna görə də Ermənistan Memarlar Palatası kompleksdə bərpa işlərinin dayandırılmasını tələb edib. Memarların bu prosesə qoşulması təsadüfi deyil. Yəqin ki, onları buna revanşist qüvvələr məcbur edirlər. Din xadimləri isə həmişə olduğu kimi, yenə də siyasi proseslərə qarışaraq revanşistlərlə birgə addım atır.

N.Paşinyanın məqsədi isə ölkəni illərlə mövcud olmuş həqiqətdən uzaq olan xülyalardan qurtarıb real dövlətçilik yoluna çıxarmaqdır. Əgər Paşinyan kilsənin siyasi təsirini məhdudlaşdıra və 2026-cı il seçkilərində mövqeyini qoruyub-saxlaya bilsə, Ermənistanın dünyəvi və Qərbyönlü inkişaf kursu, həmçinin Azərbaycanla sülh sazişini imzalaması ehtimalı artacaq. Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşması, Gürcüstanla əlaqələrin yaxşılaşması Ermənistan üçün yeni regional imkanlar açacaq. Paşinyan bu istiqamətdə real irəliləyiş əldə edə bilsə, erməni xalqı revanşist qüvvələrə qarşı inamını tamamilə itirəcək, onların verdikləri aldadıcı vədlərə inanmayacaq.

Son günlər revanşistlərin həbsləri ilə bağlı Ermənistan cəmiyyətində müəyyən yumşalma, mülayimləşmə açıq-aydın hiss olunmaqdadır. Artıq İrəvanda yaxşı başa düşürlər ki, Azərbaycanla hərbi və siyasi rəqabət aparmaq, Qarabağı yenidən işğal etmək mümkün olmayan bir işdir, necə deyərlər, "şirin" xəyaldır. Revanşist qüvvələrə rəhbərlik edən Sarkisyan-Koçaryan cütlüyünün sərsəm çıxışları isə reallıqdan uzaqdır. Erməni cəmiyyəti üçün zərərli olan belə qüvvələrin həbsi isə Ermənistanın gələcəyinin xilasıdır. Bu çılpaq həqiqəti indi erməni xalqının əksər hissəsi yaxşı anlayır. Ona görə də revanşistlərin həbsinə cəmiyyətdə elə bir ciddi etiraz hiss olunmur. Deməli, erməni xalqı revanşistlərin deyil, sülhün, əmin-amanlığın tərəfindədir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Xocalının Seyidbəyli və Daşbulaq kəndlərində 26 ailəyə evlərinin açarları təqdim olunub









**İşğaldan azad edilmiş ərazilərə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Böyük qayıdış davam etdirilir. Oktyabrın 24-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xocalının Seyidbəyli və Daşbulaq kəndlərinə yola salınıb.**

Dünən köç karvanı ilə Xocalı rayonunun Seyidbəyli və Daşbulaq kəndlərinə çatan ailələrə yeni evlərinin açarları təqdim olunub.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Seyidbəyli kəndində 18 ailə olmaqla 61 nəfər, Daşbulaq kəndində isə 8 ailə olmaqla 24 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşub.

Köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Açarların təqdimat mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov sakinləri doğma yurdlarına qayıtmaları münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırıb. Bildirib ki, hər iki kənddə müasir infrastruktur qurulub. Sakinlərin rahat yaşayışı, sosial rifahı və məşğulluğunun təmin edilməsi dövlətin əsas prioritet istiqamətlərindəndir. Kəndlərdə bərpa-quruculuq işləri planlı şəkildə aparılır, müasir yaşayış evləri, məktəb, sosial obyektlər, mühəndis-kommunikasiya xətləri və yeni yollar istifadəyə verilir.

Sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, onların ailələrinə səbir diləyiblər.

# REGİONLAR

## Qaxlı igidlər haqqında jurnalist sözü

**Vətən çağıranda Azərbaycanımızın bütün şəhər və bölgələrinin qəhrəman oğulları kimi, Qaxın igidləri də silaha sarılıb sinələrini yurda sipər etdilər. Birinci Qarabağ müharibəsində də belə oldu, 44 günlük Vətən müharibəsində də, erməni separatizminə son qoyan lokal xarakterli antiterror tədbirləri zamanı da...**




Çoxlarının həyatı yarımçıq qırıldı Vətən, torpaq, qeyrət deyərək öz müqəddəs məsləkləri uğrunda əldə silah irəlilədikləri o odlu yollarda. Odların-alovların içindən salamat çıxıb elinə-obasına alnıaçıq, başıuca qayıdanlar da az deyil. Bəziləri yarımcandır, döyüşlərdə aldığı yaraların yeri hələ də göynəyir. "Amma indi ürəyimiz rahat döyünür, heç bir narahatlığı yoxdur" deyirlər. Çünki Azərbaycana qalib adını qazandırdıqları, özlərinin əsl Vətən övladı olduqlarını təsdiqlədikləri üçün və hünərləri ilə doğma rayonlarına başucalığı, şan-şöhrət gətirdikləri üçün qürurludurlar.

Onların bir çoxunun keçdiyi döyüş yolu, qəhrəmanlığı Qaxda yaşayıb-yaradan həmkarımız Xavər Əfəndiyevanın oxunaqlı oçerkləri, təfərrüatlı yazıları sayəsində oxuculara da çatdırılıb. Təkcə Xavər xanımın redaktoru olduğu "Şəlalə" rayon qəzeti vasitəsilə deyil, həm də respublikanın mərkəzi mətbuatı vasitəsilə.

Biz Xavər Əfəndiyevanın qəhrəmanlarını bir-birindən seçmək fikrində olmadığımız üçün onların adlarını çəkmirik. Belə ki, onun təzəcə işıq üzü görən "Vətən çağırırdı..." kitabında 50-dən çox şəhid və qazinin döyüş və həyat yolu vərəqlənir. Həm də bunlar Vətən torpağı uğrunda canından, qanından keçən qaxlı igidlərin yalnız bəziləridir.

Müəllif deyir: "Bu, qəhrəman Vətən oğulları haqqında ikinci kitabımdır. "Qaxdan Qarabağa gedən yol" adlı kitabımda 44 günlük Vətən müharibəsinin rayonumuzdan olan şəhidlərindən, qəhrəman zabitlərindən, qazilərindən hazırladığım və mərkəzi mətbuatda dərc olunan yazılarımı vermişdim. İkinci - "Vətən çağırırdı..." adlı bu kitabımda isə əsasən Qarabağ müharibəsinin son nöqtəsini qoyan, 2023-cü ilin 19-20 sentyabrında baş tutan, cəmi 23 saat 40 dəqiqə gedən lokal xarakterli antiterror tədbirləri zamanı şəhid olan beş Qax sakininin döyüş yolundan, yarımçıq qalan arzu və istəklərindən bəhs edən məqalələrlə yanaşı, Birinci Qarabağ müharibəsinin şəhidlərindən, Birinci və İkinci Qarabağ müharibələrinin qazilərindən, Azərbaycan Silahlı Qüvvələrində xidmət edən, həmyerlimiz olan zabitlərdən də söz açan yazılarım toplanıb. Bütün yazılarımın əsas qayəsi rayonumuzun igid övladlarını gələcək nəsillərə tanıtmaq, onlara Vətən sevgisinin müqəddəsliyini aşılamaqdır".

Xavər xanım onu da bildirir ki, müharibədə iştirak edən qaxlıların hamısı haqqında yazmayıb və bu mümkünsüzdür. Lakin onların hərəsi öz adını tarixə yazıb, daim yada salınacaq və zaman-zaman hər biri haqqında jurnalistlər, yazıçılar da öz sözlərini deyəcəklər.

Xavərin bu yazıları sadəcə bir döyüş xronikası, bir döyüşçü tərcümeyi-halı deyil. Bu yazıların hər biri həqiqətə əsaslanan hekayətdir. Hər şəhid itkisinin ağrıları onun kövrək və həssas ana qəlbindən keçir. Sanki hər qazinin yaralarına məlhəm olmaq istəyir. Hər əsgərin, zabitin hünəri onu bir vətəndaş kimi qürurlandırır. Və bütün bunları peşəkar jurnalist qələmi ilə oxucularına çatdırır.

Bunun bir səbəbi də odur ki, deyilənlərin hamısını Xavər xanım öz həyatında da, yəni əyani olaraq, birbaşa yaşayıb. Axı o həm də bir qəhrəman zabitin anasıdır. Oğlu, polkovnik-leytenant Sadiq Əfəndiyev Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotu, İkinci Qarabağ mühabəsinin veteranıdır. "Onunla fəxr edirəm" deyir Xavər xanım. Belə bir oğulun anası olmaq şərəfdir.

Yeri gəlmişkən onu da qeyd edək ki, şəhid və qazilər haqqında məqalələrin kitab halında çap olunması Araz və Sadiq Əfəndiyev qardaşlarının təşəbbüsü olub və sözügedən hər iki nəşrin araya-ərsəyə gəlməsinə onlar dəstək verib.

"Vətən çağırırdı..." adlanır Xavər Əfəndiyevanın yeni kitabı. Əlavə edək ki, onun qəhrəmanlarını çağıran təkcə Vətən deyildi, həm də qəlblərinin səsi, vicdanlarının harayı, vətəndaş qeyrəti idi. Elə Qax rayonundakı Heydər Əliyev Mərkəzində kitabın təqdimatı məqsədi ilə düzənlənən tədbirdə də bütün bunlar dönə-dönə vurğulandı.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Qazaxda "Vətən Müharibəsi qəhrəmanları ilə bir gün"

**Qazaxda Zəfər Gününün beşinci ildönümünə həsr olunmuş "Vətən Müharibəsi qəhrəmanları ilə bir gün" adlı görüş keçirilmişdir.**



Qazax Ədəbiyyat Muzeyində təşkil olunmuş görüşü açan rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov gəncləri və müharibə iştirakçılarını salamlamış, 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü münasibətilə iştirakçıları təbrik etmişdir. Görüşün əhəmiyyətindən söz açan natiq qələbənin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şəhidlərimizin qanı, canı, qazilərimizin sağlamlığı bahasına qazanıldığını, onun Azərbaycan xalqının yaddaşına və hərb tariximizə qızıl hərflərlə yazıldığını diqqətə çatdırmışdır.

Sonra rayon icra hakimiyyəti Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri, 3-cü dərəcəli Vətən müharibəsi əlili, 3-cü dərəcəli "Rəşadət" ordeni və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmiş, ehtiyatda olan kapitan Samir Çobanov çıxış etmişdir. Qeyd etmişdir ki, Vətən müharibəsi şanlı tariximizə qızıl hərflərlə yazılıb: "Bu müharibə Azərbaycan xalqının əzmkarlığının bir daha böyük nümunəsi oldu, xalqımızın Vətəninə bağlılığını, ərazi bütövlüyü üçün canlarından keçən, sağlamlıqlarını itirən gənclər yetişdirdiyini bütün dünyaya göstərdi. Bu gənclər Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dövründə yetişən yeni nəsil idi".

Sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmiş, ehtiyatda olan polkovnik-leytenant İsgəndər Mustafayev, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmiş Məhəmməd Xəlilli, 3-cü dərəcəli Vətən müharibəsi əlili, "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmiş polkovnik-leytenant Valeh Mustafayev, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilmiş polkovnik-leytenant Amil Göyüşov, 2-ci dərəcəli Vətən müharibəsi əlili, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmiş mayor Xəyyam Əliyev və başqaları çıxış edərək döyüş təəssüratlarını danışmışlar.

Görüşün sonunda müharibə iştirakçıları gənclərin suallarını cavablandırmış, gənclərə vətənpərvər olmağı, peşəsindən, kimliyindən asılı olmayaraq vətəndaşlıq borcunu layiqincə yerinə yetirərək qalib Azərbaycanın adını hər zaman uca tutmağı tövsiyə etmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Gəncə sənət əsərləri Naftalanda

**Naftalan Şəhər İcra Hakimiyyətinin və Gəncə Regional Turizm İdarəsinin təşkilatçılığı ilə "Chinar Health Hotel"də "Gəncə sənət-sağlamlıq turizminin mərkəzi Naftalanda" adlı incəsənət, sənətkarlıq və yaradıcılıq sərgisi təşkil olunmuşdur.**

Şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzovun, Türkiyə Respublikasının Gəncə şəhərindəki baş konsulu Recep Öztopun, Gəncə Regional Turizm İdarəsinin rəisi Fariz Qarayevin, yerli və xarici turistlərin iştirak etdikləri sərgi-yarmarkada 40-a yaxın sənətkarın və yaradıcı şəxsin əl işlərindən ibarət nümunələr nümayiş etdirilmişdir.

Sərgi-yarmarkanın təşkilində əsas məqsəd sənətkarlıq məhsullarının satışına və bu sahədə alıcılıq qabiliyyətinin artırılmasına dəstək olmaq, regionun sənətkarlıq nümunələrinin tanıdılması, qədim sənət ənənələrinin dirçəldilməsi, şəhərin mədəni həyatının canlandırılması, eləcə də yaradıcılıqla məşğul olan sənətkarlar və alıcılar arasında əlaqələrin qurulması kimi məsələlərə baxılması olmuşdur.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Bu il Şəmkirdə soğan boldur

**Şəmkirdə məhsul istehsalçılarına verilən dəstək aqrar bölmənin inkişafı üçün geniş imkanlar yaratmışdır. Bunun sayəsindədir ki, keçən il olduğu kimi, bu il də rayonda bol kənd təsərrüfatı məhsulları yetişdirilmişdir.**

İstehsalçılar rayonun müvafiq qurumlarının, o cümlədən rəhbərliyinin onlara yaxından kömək etdiklərini deyirlər. Bildirirlər ki, rayon rəhbərliyi fermer təsərrüfatlarına baş çəkir, problemləri yerində dinləyir və təsərrüfat sahiblərinə lazım olan yardımı edir. Bu günlər rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev Çinarlı qəsəbəsi ərazisində soğan əkilən sahələrdə fermerlərlə görüşmüş, onların problemləri ilə maraqlanmışdır. Fermerlər bu cür görüşlərin onlar üçün faydalı olduğunu qeyd etmişlər.

Məlumat üçün bildirək ki, cari ilin məhsulu üçün Şəmkirdə 1834 hektarda soğan əkilmişdir. Son məlumata görə, sahələrdən 57 min tondan çox məhsul yığılmışdır. Orta məhsuldarlıq 311,2 sentnerdir ki, bu da keçənilki göstəricidən çoxdur.

*"Azərbaycan"*

## Əlcəzair Xalq Demokratik Respublikasının Azərbaycandakı səfiri Biləsuvarın qonağı olub

**Biləsuvar Rayon İcra Hakimiyyətində Əlcəzair XDR-in ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Zəkiyyə İğıl ilə görüş keçirilib. Görüşdə rayon icra hakimiyyətinin başçısı Faiq Qürbətov Biləsuvarın tarixi, adət-ənənələri, mədəni həyatı, əhalinin məşğulluq vəziyyəti, aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən layihələr və görülən tədbirlər barədə səfirə ətraflı məlumat verib.**



Xanım səfir çıxışında iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin getdikcə möhkəmləndiyini, beynəlxalq tədbirlər çərçivəsində Azərbaycan və Əlcəzairin bir-birinə dəstək nümayiş etdirdiyini vurğulayıb. O, Azərbaycanın regionlarında müşahidə olunan sosial-iqtisadi inkişafın, şəhərlərin müasirləşməsinin və insanların qonaqpərvərliyinin ona dərin təəssürat bağışladığını qeyd edib.

Səfər çərçivəsində xanım səfir Heydər Əliyev Mərkəzini ziyarət edərək Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olub. Daha sonra o, bir qrup müəllimlə görüşərək təhsil sahəsində fikir mübadiləsi aparıb.

Səfir həmçinin "Prime Cotton" MMC-nin pambıq sahəsini ziyarət edərək pambıq yığımı ilə məşğul olan qadınlarla görüşüb və sahədə xanımlarla birgə pambıq yığıb.

Səfirin növbəti səfəri Mübariz İbrahimov adına bağça-məktəb-lisey kompleksi olub. Kompleksin pedaqoji heyəti və şagirdlərlə görüşən xanım Zəkiyyə İğıl gələcəkdə Azərbaycan və Əlcəzair arasında təhsil və mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Səfər proqramı çərçivəsində xanım səfir "Karvan" restoranında Əlcəzairin milli mətbəxini təbliğ edən kulinariya üzrə master-klassa da qatılıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Tarixçi alimlərimiz Albaniyada keçirilən beynəlxalq tədbirdə iştirak ediblər

**Albaniyanın Elbasan şəhərində "Balkan, Anadolu, Qafqaz və Türküstan coğrafiyası, incəsənət, mədəniyyət, tarix və folkloru" mövzusunda V Beynəlxalq Konfrans və sərgi keçirilib.**



Konfransda Azərbaycan, Türkiyə, Albaniya, Moldova, İtaliya, Özbəkistan, İran, İraq, Belarus, Rumıniya, Macarıstan, Şimali Makedoniya, Kosova və digər ölkələri təmsil edən 100-dən çox alim və tədqiqatçı elmi məruzələrlə çıxış ediblər. Tarix üzrə fəlsəfə doktoru Fariz Xəlillinin "Qədim Qəbələ - UNESCO-nun Dünya İrsi Siyahısına namizəd göstərilmiş unikal arxeoloji şəhər", Qubadakı Soyqırımı Memorial Kompleksinin direktoru, tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramovanın "Böyük Ermənistan xülyası" uğrunda daşnaklar tərəfindən türk-müsəlmanlara qarşı həyata keçirilən Quba soyqırımı (aprel-may 1918-ci il)" məruzələri maraqla qarşılanıb. "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru, tarix üzrə fəlsəfə doktoru Səadət Əliyevanın "Damcılı mağara düşərgəsində arxeoloji təkamül və mədəni davamlılıq", "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Musa Mursaquliyevin "Keşikçidağ ərazisində yerləşən Yovşanlıdərə kurqanlarının arxeoloji tədqiqi", "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Günel Pirquliyevanın "Çıraqqala: tarixi-arxeoloji tədqiqatlar və bərpa-konservasiya təhlilləri" məruzələri də bir çox tarixi gerçəkliyin üzərinə işıq salıb.

Sonda iştirakçılara sertifikatlar təqdim edilib. Konfrans iştirakçıların Elbasan qalası və Elbasan Etnoqrafiya Muzeyinə ekskursiyaları ilə yekunlaşıb.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Qusarda aqrar biznes festivalı və toxum sərgi-satış yarmarkası keçirilib

**Kənd təsərrüfatında innovasiyaların təşviqi, fermerlərin müasir kənd təsərrüfatı texnologiyalarına çıxış imkanlarının artırılması və keyfiyyətli toxum bazarının formalaşdırılması məqsədi daşıyan növbəti festival Qusar rayonunda keçirilib.**



Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən aqrar biznes festivalı və toxum sərgi-satış yarmarkası Qusarın fermerlərini, sahibkarları və aqrar sahənin iştirakçılarını bir araya gətirib.

Festival çərçivəsində qusarlı fermerlər, həmçinin toxum istehsalı və satışı ilə məşğul olan şirkətlər öz məhsullarını təqdim ediblər. Yarmarkada yüksək məhsuldarlığı və iqlimə uyğunluğu ilə seçilən yeni toxum sortları, eləcə də bölgənin ənənəvi kənd təsərrüfatı məhsulları nümayiş olunub. Fermerlər həmçinin yetişdirdikləri təzə və orqanik meyvə-tərəvəzi, süd və süd məhsullarını ziyarətçilərə təqdim ediblər. Tədbir həm yerli istehsalçılar üçün satış imkanları yaradıb, həm də regionun kənd həyatının zənginliyini əks etdirib.

Festival zamanı 10-a yaxın bank və bank olmayan kredit təşkilatının iştirakı ilə kredit yarmarkası da keçirilib. Kredit təşkilatlarının mütəxəssisləri potensial müştərilərinə kredit əməkdaşlığı barədə məsləhət və tövsiyələr veriblər. Eyni zamanda fermerlər təsərrüfatlarına və planlarına uyğun olaraq götürə biləcəkləri kreditlərin həcmi barədə məlumatlandırılıblar.

Qeyd edək ki, belə yarmarka və sərgi rayonun iqtisadi göstəricilərinin daha da artırılmasında, fermerlərin iş təcrübələrinin yüksəlməsində xüsusi rol oynayır.

*A.ƏLİYEV,*
*"Azərbaycan"*

## DGK-nın Naxçıvan Baş Gömrük İdarəsi 9 ayın hesabatını verib

### İdxalın həcmində 8 faiz azalma, ixracın həcmində 30 faiz artım müşahidə olunub

**Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsində cari ilin 9 ayı ərzində görülmüş işlər və bu il qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib.**

Baş idarənin rəisi, gömrük xidməti general-mayoru Vüqar Əliyev çıxış edərək Dövlət Gömrük Komitəsində cari ilin 9 ayının yekunlarına həsr olunmuş əməliyyat müşavirəsində müzakirə olunan məsələlər və qarşıda duran hədəflər barədə məlumat verib, ötən il ərzində Naxçıvan Muxtar Respublikasında gömrük işi sahəsində dövlət siyasətinin həyata keçirilməsi istiqamətində görülən işlər, əldə olunan nailiyyətlər son dövrdə gömrük orqanlarında aparılan islahatlarla birbaşa bağlı olduğunu əsaslandırıb.

Baş idarə rəisinin müavini Rəşad Bayramov vurğulayıb ki, bu ilin yanvar-sentyabr ayları ərzində qeydə alınan idxal əməliyyatlarının həcmi 82 milyon 773 min, ixrac əməliyyatlarının həcmi isə 10 milyon 333 min dollar dəyərində olub. 2024-cü ilin eyni dövrü ilə müqayisədə idxalın həcmində 8 faiz azalma, ixracın həcmində 30 faiz artım müşahidə olunub. Ötən dövr ərzində komitə tərəfindən baş idarə üzrə müəyyən olunmuş 32 milyon 407 min manat proqnoza qarşı 35 milyon 64 min manat vəsaitin toplanaraq təyinatı üzrə köçürülməsi təmin edilib, 9 aylıq proqnoz-tapşırıq 108,2 faiz yerinə yetirilib. Muxtar respublika ərazisindən tranzit keçən nəqliyyat vasitələrinin sayında azalma olmasına baxmayaraq, "Naxçıvan Muxtar Respublikasının 2025-ci ilin büdcəsi haqqında" Qanunu ilə təsdiq edilmiş "Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrinin sahibləri tərəfindən ödənilən yol vergisi" üzrə müəyyən olunan 8 milyon 880 min manat proqnoza qarşı 13 milyon 725 min manat, yəni 55 faiz artıq vəsait muxtar respublikanın büdcəsinə köçürülüb.

Hesabat dövrü ərzində mövcud qanunvericiliyə əsasən, 42 milyon 646 min dollar dəyərində olan mallar, yəni ümumi idxalın 52 faizi idxal gömrük rüsumundan, 11 milyon 15 min dollar dəyərində olan mallar isə, yəni ümumi idxalın 13 faizi əlavə dəyər vergisindən azad edilib.





# Mədəniyyət





Süleyman Sani Axundov – 150

## Fədakar müəllim, sevimli yazıçı

**Nasir, dramaturq, pedaqoq, ictimai xadim Süleyman Sani Axundov Azərbaycan ədəbiyyatında maarifçi realizm cərəyanının örnək nümunələrini yaradan, uşaq ədəbiyyatının inkişafına və formalaşmasına xidmət edən görkəmli maarifpərvər yazıçıdır.**

O, 1875-ci ilin oktyabrında Azərbaycanın qədim mədəniyyət ocağı olan Şuşa şəhərində bəy ailəsində anadan olmuşdur. Atası Rzaqulu bəyi tez itirmiş, ailənin üç övladını - Mahtaban, Rüstəm və Süleymanı böyüdüb boya-başa çatdırmaq anaları Dürnisə xanımın öhdəsinə düşmüşdür. Dürnisə xanımın qardaşı - tanınmış maarif xadimi, pedaqoq, "Vətən dili", "Xəzineyi-əxbar", "Qüdrəti-xuda", "Üsuli-cədidi-lisani-farsi" kimi dərsliklərin müəllifi Səfərəli bəy Vəlibəyov ailəyə kömək məqsədilə altı yaşlı Rüstəmi özü ilə dərs dediyi Qoriyə aparmış, gimnaziyada oxuması üçün hər cür yardım göstərmişdir. Süleymanın uşaqlığı isə anası və bacısı ilə birlikdə Şuşa qəzasının Seyidli kəndində (indiki Ağdam rayonu ərazisindədir) keçmişdir.

Zaqafqaziya (Qori) Seminariyasında aldığı təhsil Süleyman Sani Axundovun hərtərəfli inkişafına təsir etmişdir. 1894-cü ildə seminariyanı bitirən Süleyman Sani Axundov Bakıdakı III Rus-müsəlman məktəbinə müəllim təyin olunur. O, sonralar IV və VII Rus-müsəlman məktəblərində də müəllim və müdir kimi işləmiş, Lavrova progimnaziyasında fəaliyyət göstərmişdir. Yaxşı pedaqoq və təhsil işçisi kimi tanınan S.S.Axundov xalqın maariflənməsi üçün əlindən gələni edirdi. Teatrın xalqın düşüncə tərzinə təsirini bilən Süleyman Sani Axundov işlədiyi məktəblərdə tamaşaların səhnəyə qoyulmasına şərait yaradır, yeri gələndə aktyor kimi özü də səhnəyə çıxırdı. Nəriman Nərimanovun "Nadanlıq", "Nadir şah", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" kimi pyeslərinin tamaşasında aktyor kimi iştirak etmişdir.

Çar Rusiyasının yerlərdə milli mədəniyyətləri və ana dilini sıxışdırıb çıxarmaq niyyəti ilə Azərbaycan dilinin təliminə az diqqət yetirməsinin, milli dilin tədrisinin uğursuz kadrlara həvalə olunmasının məqsədli şəkildə edildiyini bilir və bununla bacardığı qədər həm müəllim, həm yazıçı kimi mücadilə aparır, xalq dilinin gözəlliyini əks etdirən əsərlər yazır, dərs zamanı şagirdlərə ana dilini sevdirməyə çalışır, bu fənni tədris edən müəllimlərə xüsusi tapşırıqlar verirdi. 1906-cı ildə Bakıda Müəllimlərin I Qurultayı keçirilir. Həsən bəy Zərdabinin sədrlik etdiyi qurultayda tədris proqramının yazılması üçün komissiya yaradılır. Komissiyanın tərkibinə Firidun bəy Köçərli, Həsən bəy Zərdabi ilə yanaşı, S.S.Axundov da seçilir. 1907-ci ildə keçirilən Müəllimlərin II Qurultayınadək hazırlanan proqram məhz ərəb əlifbasının tədrisindəki islahatlara görə qəbul olunmur. Ancaq ruhdan düşməyən S.S.Axundov Mahmud bəy Mahmudbəyov, Fərhad Ağazadə, Abdulla bəy Əfəndizadə, Süleyman bəy Əbdürrəhmanbəyzadə, Abdulla Şaiq Talıbzadə kimi pedaqoqlarla birlikdə "İkinci il" dərsliyini tərtib edir. 1908-ci ildə nəşr edilən, Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Abbas Səhhət kimi şairlərin, rus klassiklərinin yaradıcılığından da bədii nümunələr verilən bu dərsliyin Azərbaycan təhsilində xüsusi rolu olur.

S.S.Axundov 1920-ci ildə Qarabağ Vilayət Maarif Şöbəsinin müdiri vəzifəsinə təyin olunur və işlədiyi müddətdə Qarabağ və Zəngəzurda uşaq evi, məktəb, qiraətxana açılmasında yaxından iştirak edir. Azərbaycan Xalq Maarif Komissarlığına ünvanladığı məktub əsasında Şuşada Müəllimlər Seminariyası açılır ki, bu da onun Qarabağın təhsil tarixinə bir töhfəsi kimi dəyərləndirilir.

1922-ci ildə ərəb əlifbasından latın əlifbasına keçirilməsi qərarı verildikdən sonra Cabbar Məhəmmədzadə, Fərhad Ağazadə ilə birlikdə "Yeni türk əlifbası" dərsliyini tərtib edir, dərslik elə həmin il türk və ərəb əlifbası ilə nəşr olunur. S.S.Axundov eyni zamanda Azərbaycan ədib və şairlər İttifaqının sədri, Azərbaycan Həmkarlar İttifaqı Pleniumunun, Ümumittifaq Dramaturqlar və Bəstəkarlar Cəmiyyətinin, SSRİ Yazıçılar İttifaqının, SSRİ Maarif İşçiləri İttifaqının, "Qızıl qələmlər" İttifaqı Təftiş Komissiyasının üzvü olmuşdur.

Süleyman Sani Axundov ilk qələm təcrübələrini nəzərə almasaq, peşəkar yaradıcılığa dram janrı ilə başlamışdır. Onun dramaturgiyasında əsas iki xətt leytmotiv təşkil edir. Birincisi, cəhalətin, avamlığın, savadsızlıq və nadanlığın göstərilməsi və tənqid edilməsi idisə, ikincisi, iki fərqli ideologiyanın, fərqli formasiyanın, yeni ilə köhnənin mübarizəsində üz-üzə qalan nəsillərin, "atalar və oğullar"ın faciəsinin əksi idi.

Ustad dramaturq Mirzə Fətəli Axundzadənin "Hacı Qara" əsərinin təsiri ilə yazdığı beşpərdəli "Tamahkar" (1899) pyesində əsas qəhrəman Hacı Muradın simasında xəsisliyi, tamahkarlığı gülüş obyektinə çevirmiş, nəfsin, acgözlüyün gətirib çıxardığı acı aqibəti göstərmək istəmişdir.

Müəllif "Dibdat bəy" (1906) və "Türk birliyi" (1906) adlı kiçikhəcmli pyeslərində ictimai-siyasi mövzuya toxunmuş, rüşvətlə, saxta yollarla "dibdat" (deputat - A.B.) seçilmək istəyənləri tənqid hədəfinə çevirmişdir. Dramaturq "Türk birliyi" adlı birpərdəli əsərdə isə bir qədər də irəli gedib Dövlət Dumasında olan təmsilçinin hansı keyfiyyətlərə sahib olmasını açıqlamışdır. Ayrı-ayrı obrazların dili ilə yarızarafat, yarıgerçək millət vəkilinin portretini cizgiləmişdir.

"Qaranlıqdan işığa" (1921) birpərdəli pyesi də maraqlı ideyaya malikdir. Süleyman Sani Axundov bu əsərində də maarifçi-realist kimi görünür. Əsərdəki hadisələr türkün, ərəbin, farsın, çinlinin, hindlinin məskən tutduğu qaranlıq mağarada başlayır. Görünür, müəllif müxtəlif millətlərin nümayəndələrinin timsalında problemin bütün bəşəriyyətə aid olduğunu demək istəmişdir. Türk olan Oğuzun oğlu Uluğ zülmət əhlini qəflətdən ayılmağa, haqlarını tanımağa, zülmdən xilas olmağa, işıqlı dünyayla tanışlığa çağırır.

Yazıçının "Laçın yuvası" (1921) adlı üçpərdəli pyesi yaradıcılığında mühüm yer tutan əsərlərdəndir. Əsərdə güclü dramatizm və gərgin səhnələrlə rastlaşırıq. İki zidd qütbün, müxtəlif baxışların toqquşduğu, atalar və oğulların üz-üzə qaldığı bu əsər əgər sovet dövrü ədəbiyyatşünaslığında başqa aspektdən təhlil olunub, Əmiraslan ağa, Mehrəli bəy, Səlim bəy, Muxtar bəy bolşeviklərə qarşı çıxdıqları, onlara təslim olmadıqları üçün tənqid olunub, mənfi obraz kimi səciyyələndirilirdilərsə, bu gün biz bu əsərə başqa bir rakursdan nəzər salır, əksinə, Əmiraslan ağanı doğma yurdunu, ata-baba ocağını sona qədər qorumağa çalışan, hətta yeganə övladı Cahangiri belə bu yolda öldürməyə razı olan bir bəy kimi görürük. O, məğrurluqla babalarından miras qalmış "Laçın yuvası"nın heç vaxt heç kimə təslim olmadığını, bolşeviklərə də qucaq açmayacağını söyləyir: "Ümidvaram ki, sizlərin köməkliyi ilə babalarımızın yurdunu düşməndən müdafiə edə bilərəm. Qırmızı Ordudan əsla xof etməyin. O, nizami qoşun deyil, əlsiz-ayaqsız, aciz, kasıb-kusublardan toplanmış dəstədir. Bizim igid dəliqanlıların müqabilində əsla durmazlar, fəqət səy və qeyrət lazımdır. Siz bu gündən işə şüru ediniz. Dəstələr toplayınız, ləvazimat cəm ediniz. Kəndliləri hər vasitə ilə olmuş-olursa öz tərəfinizə çəkiniz".

Amma Əmiraslan ağa nə qədər dirənib mübarizə aparsa da, "Laçın yuvası" oğlu Cahangirin başçılıq etdiyi bolşeviklər dəstəsi tərəfindən ələ keçirilir. Bununla barışmayan Əmiraslan ağa intihar edir. Bu acınacaqlı durum bir ailənin faciəsi deyildi, bir xalqın faciəsi, bir epoxanın çöküşü idi. Təsadüfi deyildi ki, əsərin sonunda Cahangirin nişanlısı, Əmiraslan ağanın qardaşı qızı Pəricahan xanım "Cahangir, Cahangir! Şanşöhrətli xanədanını viran etdin, gəl tamaşaya", - deyə fəryad qoparır.

Əsərdə Yaşıl orman, Keçi dağı, Uçurum dərəsi, Kollu dərə, Qayadibi, Güllücə və Kötüklü kəndləri kimi yer adlarının çəkilməsi, xatırlanması Qarabağ toponimlərinin öyrənilməsi baxımından bu gün xüsusi əhəmiyyət kəsb edir. Qeyd edək ki, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Laçın yuvası" pyesinin altı nüsxəsi saxlanılır, bunlardan biri dörd, qalanları üçpərdəlidir. Bu fərqli nüsxələr göstərir ki, müəllif əsər üzərində dəfələrlə yaradıcılıq işləri aparmışdır.

Süleyman Sani Axundov ədəbiyyat tariximizdə həm də maraqlı və yaddaqalan, sənətkarlıq baxımından dəyərli, didaktik əhəmiyyətli hekayələr müəllifidir. Ədibin "Qorxulu nağıllar" silsiləsinə "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız" və "Əşrəf" adlı beş hekayəsi daxildir. 1912-1914-cü illərdə "Məktəb" jurnalında çap olunan bu hekayələr Azərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələridir. Həm də pedaqoq kimi fəaliyyət göstərən, daim uşaqlarla ünsiyyətdə olan, onların maraq dünyasını, psixologiyasını, estetik zövqünü yaxşı bilən S.S.Axundov bu hekayələri yazmaqla uşaqların və gənc nəslin hərtərəfli inkişafı üçün çalışırdı. Nağıl üslubunda yazılan əsərlər elə, əslində, uşaqlarının təlim və tərbiyəsinə önəm verən, onlara "ya kitab, ya gündəlik qəzetlərdən oxuyan" Hacı Səmədin övladları - Məmməd və Fatiməyə nağıl adıyla söylədiyi hekayələrdir. Konkret mövzuya həsr olunmayan bu hekayələr yazıçı Mir Cəlal Paşayevin dediyi kimi, bütün həyat həqiqətini uşağa öyrətmək məqsədi güdürdü: "Bu hekayələrdə həyatın mürəkkəbliyi, çətinliyi, şirinliyi, ağır və müdhiş qayda və qanunları, bunların hökmü və nəticələri bütün çılpaqlığı ilə yazılmışdır.

Bu hekayələr uşağa xoş və ya qəmli duyğu verməklə qalmır, onu qayğısız uşaqlıq yuxusundan ayıldır. Həyata hazır olmağa çağırır, həyat yolunda olan və ola bilən bütün əngəl və maneələrdən xəbərdar edir".

Qorxulu nağıllar həm də uşaqları bir parçası olduqları dünyayla, çevrələrilə



tanış edirdi. İlk olaraq silsilənin adı maraq və sual doğurur. Niyə "Qorxulu nağıllar"? Bu suala yazıçının tədqiqatçısı, ədəbiyyatşünas alim Nadir Vəlixanov belə cavab verir: "Əsərləri diqqətlə oxuduqda aydın olur ki, burada Süleyman Saninin dünyagörüşünün bəzi çalarları özünü göstərir; qorxu və sevinc hissləri həmişə ədibin diqqət mərkəzində olmuş və bu hissləri doğuran ictimai səbəblər maarifçi-demokratik müəllim, yazıçı mövqeyindən araşdırılmışdır. Bu əsərlərin problematikasını, ideya-estetik istiqamətlərini diqqətlə müşahidə etdikdə məlum olur ki, burada qorxu hissi uşaqlara həyatı onların anlaq, maraq səviyyələrinə uyğun hərtərəfli öyrətmək konsepsiyası ilə bağlıdır".

Ümumiyyətlə, Süleyman Sani Axundovun hekayə yaradıcılığının ana mövzusu cəhalətin və avamlığın tənqididir. "Qan bulağı", "Ümid çırağı", "Cəhalət qurbanı", "Təbrik", "Namus", "Sona xala" və başqa hekayələrdə yazıçı hələ köhnə fikirlərlə yaşayan, nəsillər arasında sürən ədavəti, intiqam hissini illərdir yaşadan və bu səbəbdən həm başqalarının, həm özlərinin həyatlarını qaraldan insanların acı talelərini təqdim edir. Köhnə adətlərin əsiri olanlar heç cür yeniliyi qəbul edə bilmir, işıqlı insanların ətrafında kabusa dönürlər. "Cəhalətin qurbanı", "Təbrik", "Namus" hekayələrində həyat dolu, ağıllı və gənc qızlar onları anlamayan çevrələrinin qurbanı olurlar. Süleyman Sani Axundovun hekayələri mövzu və ideya baxımından maraqlı olduğu kimi, dil və üslub cəhətdən də sadə və oxunaqlıdırlar.

Ədibin həyatı, şəxsiyyəti, yaradıcılığı və pedaqoji görüşləri haqqında Abdulla Şaiq, Nəriman Nərimanov, Mir Cəlal Paşayev, Həmid Araslı, Əli Sultanlı, Cəfər Xəndan, Cəfər Cəfərov, Hənəfi Zeynallı, Abbas Zamanov, Məmməd Cəfər Cəfərov, Məmməd Arif Dadaşzadə, Kamal Talıbzadə, Yaşar Qarayev, Əziz Mirəhmədov, Cənnət Nağıyeva, İsa Həbibbəyli kimi görkəmli alimlər və şəxsiyyətlər dəyərli fikirlər söyləmişlər. Məsud Əlioğlu 1956-cı ildə "Süleyman Sani Axundov" adlı kitabça nəşr etdirmişdir. Ədəbiyyatşünas alim Nadir Vəlixanov isə arxiv materialları əsasında yazıçının əhatəli elmi bioqrafiyasını hazırlamış, yaradıcılığı haqqında təhlillər aparmışdır. Filologiya üzrə fəlsəfə doktoru Könül Nəhmətova "Qaraca qız"ın taleyi" kitabında adıçəkilən əsərin üç müxtəlif variantını şərh və izahlarla təqdim etmişdir. "Azərbaycan ədəbiyyatı tarixi" kitablarında və "Uşaq ədəbiyyatı" dərsliklərində Mir Cəlal Paşayev, Firidun Hüseynov, Qara Namazov, Zahid Xəlil, Fizuli Əsgərli və Bilal Həsənli yazıçı haqqında portret oçerk yazmışlar.

Süleyman Sani Axundov həm nasir, həm dramaturq, həm pedaqoq kimi dövrünün aparıcı şəxsiyyəti olmuş, uşaqların, gənc nəslin, ümumilikdə cəmiyyətin maariflənməsi üçün misilsiz xidmətlər göstərmişdir. O, tələbələri, müasirləri və oxucuları üçün fədakar müəllim, xeyirxah insan və sevimli yazıçı ola bilmişdir.

*Aygün BAĞIRLI,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

## I BMT Regional Turizm Konfransı keçirilib

**Qazaxıstanın Almatı şəhərində Avropada Turizmdə Qadınların Səlahiyyətləndirilməsi üzrə 1-ci BMT Regional Turizm Konfransı keçirilib.**




Dövlət Turizm Agentliyindən bildirilib ki, tədbirdə qadınların liderliyi, sahibkarlıq fəaliyyəti, rəqəmsal bacarıqlar, turizm sektorunda çətin stereotiplər, qadınların iqtisadi və sosial səlahiyyətləndirilməsinə maneələrin aradan qaldırılması yolları müzakirə olunub.

Azərbaycanı bu beynəlxalq konfransda Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin İdarə Heyəti sədrinin müavini Sədaqət Davudova təmsil edib.

O, "Turizm idarəçiliyində gender bərabərliyi" mövzusunda keçirilən panel müzakirəsində Azərbaycan təcrübəsini təqdim edib. S.Davudova Azərbaycanda qadınların turizm və mədəni irs sektorunun inkişafında fəal rolundan danışıb. Bildirilib ki, hökumət təşəbbüsləri BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 5-cisi olan gender bərabərliyi istiqamətində həyata keçirilən tədbirlərlə də uyğunluq təşkil edir.

## "Bülbülün qonaqları" layihəsi Qurban Pirimovun 145 illiyinə həsr olunub

**Bülbülün Memorial Muzeyinin təqdim etdiyi "Bülbülün qonaqları" layihəsi görkəmli tarzən, Azərbaycanın ilk Xalq artisti Qurban Pirimovun 145 illiyinə həsr olunub.**



Tədbiri giriş sözü ilə açan muzeyin direktoru Fərqanə Cabbarova Bülbüllə Qurban Pirimovun sıx dostluq və yaradıcılıq əlaqələrindən söhbət açıb. O, görkəmli tarzənin Azərbaycan musiqi tarixində, muğam və xalq mahnılarının bu günümüzə gəlib çıxmasında böyük xidmətləri olduğunu vurğulayıb.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, sənətşünaslıq elmləri doktoru Alla Bayramova da Qurban Pirimovun həyat və yaradıcılığı ilə bağlı çıxış edib.

Tədbirdə Bülbül adına orta ixtisas musiqi məktəbi və Şövkət Ələkbərova adına 20 nömrəli musiqi məktəbinin şagirdlərinin ifasında muğam və xalq mahnıları səsləndirilib.

## Gənclər Kitabxanasında Xalq rəssamı Elmira Şahtaxtinskayanın xatirəsi anılıb

**XX əsr Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsi Xalq rəssamı, Əməkdar incəsənət xadimi Elmira Şahtaxtinskayanın bu il anadan olmasının 95 ili tamam olur. Bu münasibətlə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Xalq rəssamının mənalı həyat yolu və bədii irsindən bəhs edən videomaterial və daycest hazırlanaraq istifadəçilərə təqdim edilib.**




Kitabxanadan bildirilib ki, bu materiallar Azərbaycan rəssamlıq sənətinin inkişafında peşəkarlığı və gərgin əməyi ilə seçilən Elmira Şahtaxtinskayanın zəngin bədii yaradıcılıq irsinin istifadəçilər arasında təbliğ olunması məqsədilə hazırlanıb.

Vəsaitdə rəsmi sənədlər ilə yanaşı, "Milli mədəni irsi və doğma yurdun təbiətini əsərlərində yaşadan sənətkar" və "Elmira Şahtaxtinskaya yaradıcılığının səciyyəvi xüsusiyyətləri" adlı məqalələrin tam mətni təqdim edilir. Kitabxananın rəsmi saytında yerləşdirilən https://www.ryl.az/funds/daycest materialda rəssamın həyat və fəaliyyətinə dair 2011-2024-cü illərdə dövrü mətbuatda dərc edilən məqalələrin biblioqrafik təsviri, qısa annotasiyası və tam mətninin yerləşdiyi elektron keçidlər yer alır.

"İncəsənətin qüvvəti Elmira Şahtaxtinskaya" adlı videomaterialda xanım rəssamın yaradıcılığının rəngarəng və çoxşaxəli olması, əsasən mənzərə, məişət, portret janrlarında əsərlər yaratmasından bəhs olunur. Elmira Şahtaxtinskayanın "Azərbaycan qədim mədəniyyət diyarıdır" plakatlar seriyası üzərində uzun illər işləməsi, müxtəlif ədəbiyyat, elm və mədəniyyət xadimlərimizin - Nizami Gəncəvinin, Məhsətinin, Memar Əcəminin, Qətran Təbrizinin, Səfiəddin Urməvinin, Məhəmməd Füzulinin, Şah İsmayıl Xətainin, Qara Qarayevin bədii cəhətdən mükəmməl, fəlsəfi tutumu ilə diqqət çəkən obrazlarını yaratması diqqətə çatdırılır. Videomaterialda görkəmli rəssamın yaradıcılıq nümunələri, müsahibələrindən fraqmentlər, foto və videogörüntülər sərgilənir.

## Vaşinqtonda keçirilən Türk Festivalında Azərbaycanın təqdimatı olub

**Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində keçirilən ənənəvi Türk Festivalında Azərbaycan təmsil olunub.**



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, festivalda komitənin dəstəyi və Virciniya ştatında fəaliyyət göstərən Azərbaycan Evinin təşəbbüsü ilə stend qurulub. Stenddə milli geyimli gənclər, broşürlər və Azərbaycan bayraqları vasitəsilə ölkəmizin zəngin tarixi, adət-ənənələri və müasir siması nümayiş etdirilib. Ziyarətçilər səslənən milli musiqilər və interaktiv təqdimatlarla ölkəmiz, eyni zamanda Azərbaycan Evinin fəaliyyəti barədə məlumatlandırılıblar. Onlara Azərbaycan bayraqları hədiyyə edilib.

Festival boyunca stendin fəaliyyətinə "CAN" Könüllülük və İnkişaf Proqramının 7 fəal üzvü dəstək göstərib. Onlar ziyarətçilərə ölkəmiz haqqında məlumat veriblər. Eyni zamanda, gəncləri "CAN" Könüllülük və İnkişaf Proqramı çərçivəsində müxtəlif layihələrə qoşulmağa dəvət ediblər.

Tədbir çərçivəsində soydaşlarımız ilk dəfə olaraq səhnədə musiqili-mədəni proqramla çıxış ediblər. Bədii qiraət, muğam, vokal ifalar, milli alətlərdə canlı musiqi və "İnnabı" rəqsi kimi çıxışlar böyük maraqla qarşılanaraq, Azərbaycan mədəniyyətinin zənginliyini və müxtəlifliyini sərgiləyib. Azərbaycan stendi ətrafında yaradılan bayram ab-havası festival iştirakçılarının birgə rəqsləri və yallı ifaları ilə daha da şənlənib.

Qeyd edək ki, Vaşinqtonda keçirilən bu ənənəvi Türk Festivalı müxtəlif ölkələrin mədəni irsinin nümayiş olunduğu, hər il on minlərlə ziyarətçinin bir yerə toplaşdığı nüfuzlu beynəlxalq tədbirlərdən biri kimi tanınır. Bu mühüm platformada Azərbaycanın ilk rəsmi iştirakı ölkəmizin mədəni diplomatiyasının daha da gücləndirilməsi istiqamətində mühüm addım olub.

## Bədii özfəaliyyət kollektivlərinin müsabiqəsi

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə bədii özfəaliyyət kollektivlərinin müsabiqəsi keçirilib. Müsabiqənin keçirilməsində əsas məqsəd mədəniyyət müəssisələrində fəaliyyət göstərən musiqi kollektivlərinin inkişafı, mədəniyyət müəssisələrinin işinin daha da təkmilləşdirilməsi, milli musiqi və folklor janrının inkişafıdır.**



Müsabiqədə Baş İdarənin şəbəkəsinə daxil olan mədəniyyət evləri və klubların özfəaliyyət kollektivləri iştirak ediblər.

Çıxışlar münsiflər heyəti tərəfindən nominasiyalar üzrə 10 bal sistemi ilə qiymətləndirilib.

# Ermənistanın hücumları nəticəsində zərərçəkmiş şəxslər və zərərçəkmişlərin hüquqi varislərinin ifadələri məhkəmədə elan olunub



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 24-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclasında üzrlü səbəbdən iştirak edə bilməyən və bununla bağlı məhkəməyə müraciət etmiş zərərçəkmiş şəxslərin ifadələri elan edilib.

Sədrlik edən Zeynal Ağayev bildirib ki, bir sıra zərərçəkmiş şəxs məhkəməyə ərizə ilə müraciət edərək məhkəmə prosesində iştirak edə bilməyəcəklərini, ibtidai istintaqa ifadələrinin məhkəmə prosesində tədqiq olunmasını xahiş edib.

Zərərçəkmişlərin iclasda iştirak edə bilməməsinə və ibtidai istintaqa ifadələrinin tədqiq edilməsinə etiraz edən olmayıb.

Ardınca təqsirləndirilən Davit İşxanyan məhkəməyə müraciət edərək hüquqlarını müdafiə edən vəkili ilə konfidensial görüşmək istədiyini deyib. Bildirib ki, o, sübutlara əlavə olunması üçün məhkəməyə video təqdim etmək istəyir. Qeyd edib ki, həmin video 2020-ci ildə Tovuz hadisələrindən sonra lentə alınıb. Amma videonu məhkəməyə təqdim etməzdən əvvəl ona vəkili ilə birlikdə baxması üçün şərait yaradılmasını xahiş edib.

Hakim fasilədə bunun üçün onlara şərait yaradılacağını deyib.

Təqsirləndirilən Davit Manukyan isə vəsatət verərək Ermənistanda anadan olmuş, orada yaşamış, Masis rayonunun Sayat Nova kəndində (Zəngibasar rayonunun Aşağı Necili kəndi - red.) əlvan metallar bazasında işləmiş, sonralar isə oradan didərgin salınmış Knyaz adlı azərbaycanlının məhkəməyə şahid qismində dəvət olunmasını xahiş edib. Bildirib ki, həmin şəxsin soyadını və onunla bağlı digər məlumatları xatırlamır.

Vəsatətə münasibət bildirən baş prokurorun böyük köməkçisi Vüsal Əliyev deyib ki, müdafiə tərəfi həmin şəxsin məhkəməyə hansı səbəbdən dəvət olunmasını və dindirilməsinin konkret məqsədini, habelə onun şəxsiyyətini təsdiq edən, eləcə də şəxsiyyətini müəyyən etmək üçün zəruri məlumatları bildirmədi. Bundan başqa, dindirilməsi xahiş olunan şəxsin yaşadığı yer, soyadı da məlum deyil. Belə olan halda vəsatətin təmin edilməsi qeyri-mümkündür. Hətta təmin edilərsə belə icrası mümkünsüzdür.

Məhkəmə yerində müşavirə keçirərək qərar qəbul edib.

Qərara əsasən, vəsatət əsassız olduğu üçün təmin edilməyib.

Bundan sonra məhkəmə iclasında üzrlü səbəbdən iştirak edə bilməyən və bununla bağlı məhkəməyə müraciət etmiş zərərçəkmiş şəxslərin və zərərçəkmiş şəxslərin hüquqi varislərinin ifadələri elan olunub.

Zərərçəkmiş Vəliyev Fikrət Cavad oğlunun elan olunan ifadəsinə əsasən, 1992-ci il fevralın 25-də gecə saatlarında Ermənistan hərbçiləri Xocalı şəhərində evləri yandırarkən o, evinə gedib. Orada heç kimin olmadığını görüb və Kətik meşəsi istiqamətində qaçıb. Qarqarçayın üzərindəki körpünün altında çoxlu sayda Xocalı şəhər sakinlərini, o cümlədən arvadı Vəliyeva Ürüzə Xanlar qızını, bacısı Süreyya Vəliyeva və bacısı oğlu Əhmədov Anar İslam oğlunu görüb. O, ailə üzvləri və təxminən 300 nəfər Xocalı sakini ilə birlikdə Kətik meşəsi istiqamətində hərəkət edib, Kətik kəndinə yaxınlaşarkən Ermənistan ordusu tərəfindən atəşə tutulmaları nəticəsində adlarını bilmədiyi bir neçə Xocalı sakini öldürülüb və yaralanıb. Bütün gecəni meşədə qaldıqları üçün Xocalı şəhər sakinlərinin əksəriyyətinin ayaqlarını don vurub, adlarını bilmədiyi bəzi şəxslər donvurmadan ölüblər. Həmin gecə bacısı və digər qohumları naməlum şəraitdə itkin düşüblər, onların yaşayıb-yaşamaması barədə heç bir məlumat yoxdur.

Dumanlı hava şəraiti ilə əlaqədar Ağdam rayonu istiqamətində gedən yolu tapa bilməyib, fevralın 27-də 230 nəfər Xocalı şəhər sakini ilə Dəhrəz kəndinin yaxınlığından keçərkən Ermənistan hərbçiləri tərəfindən atəşə tutulublar. Bağırova Zəhra Sarı qızı, Telman, Mehti və adlarını xatırlamadığı 4 nəfər burada ölüb, 3 nəfər isə yaralanıb. O və digərləri girov götürülərək həmin kənddə yerləşən tövlədə saxlanılıb və burada işgəncələrə məruz qalıblar. Həmin vaxt Ermənistan hərbçisinin girovların arasından olan uşağa təpiklə vurması nəticəsində onun başı zərblə divara dəyib. Uşağı qorumaq üçün onu yerdən götürüb qucağına alsa da, həmin hərbçi Azərbaycan dilində "sizin hamınızı öldürəcəyik" deyib. Üzərilərində olan pul vəsaitləri, qızıl-zinət əşyaları qarət edilib, soyuq fermada ac-susuz saxlanılıblar. Bundan əlavə, Ermənistan hərbçiləri girovların arasından gəncləri - Usubəli Qarayevi, Zakir, Əliyar və Elşad Usubovları, Rövşən Həsənovu, Vüqar Hüseynovu, Ülfət Əliyevi, Tofiq Zeynalovu, Elşad Həsən oğlunu, Ələddin Paşayevi, Siyavuş Halay oğlunu, Rövşən Qaçay oğlu və Şahin adlı Xocalı sakinlərini seçib çölə çıxarıblar. Sonra atəş səsləri, ardınca isə avtomobil səsi eşidilib, hazırkı vaxtadək həmin şəxslər itkin düşmüş sayılır.

Elan olunan ifadələrə əsasən, zərərçəkmiş şəxslər Hümbətəliyev Rüfət Bəxtiyar oğlu, Cavadov Natiq Şahin oğlu, Baxşəliyev Nizami Fizuli oğlu və Nəbiyev Nadir İqor oğlu ifadələrində 2022-ci il sentyabrın 13-də Kəlbəcər rayonunun ərazisində düşmənin təxribatından bəhs ediblər. Qeyd edilib ki, həmin vaxt R.Hümbətəliyev, N.Cavadov və N.Baxşəliyev düşmənin açdığı atəşlər nəticəsində, N.Nəbiyev isə düşmənin basdırdığı minanın partlaması nəticəsində yaralanıblar. Elnur Rüstəmov, Qədim Xəlilov və Ümid İmamquliyev isə həlak olublar.

Zərərçəkmiş Mustafayev Siyasət Akif oğlunun hüquqi varisi qismində tanınaraq dindirilmiş Mustafayev Akif Məmməd oğlu ifadəsində bildirib ki, övladı 2020-ci il sentyabrın 27-də Ağdərə rayonunun Talış kəndi istiqamətində Ermənistan silahlı qüvvələrinin açdığı atəşlər nəticəsində həlak olub.

Digər zərərçəkmiş Həbibov Rahim Şirməmməd oğlu ifadəsində göstərib ki, o, "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" Məhdud Məsuliyyətli Cəmiyyətin Mühəndis-axtarış idarəsinin Mühəndis-geodeziya şöbəsinin rəisi vəzifəsində işləyib və işi ilə əlaqədar "Şuşa-Xankəndi" 110 kV-luq yüksəkgərginlikli elektrik hava xəttinin çəkilməsinin planlaşdırılması məqsədilə 2023-cü il dekabrın 7-də əraziyə baxış keçirərkən mina partlayışı baş verib və xəsarət alıb.

Abbasov Alman Ənvər oğlu ifadəsində qeyd edib ki, o, Füzuli rayonunun Qarabağ kəndində yaşayır. 2020-ci il oktyabrın 9-da Ermənistan silahlı qüvvələri tərəfindən atılan artilleriya mərmilərindən biri onun yaşadığı evin yaxınlığına düşüb. Nəticədə evi və istifadəsində olan avtomobili yararsız vəziyyətə düşüb, həmin vaxt özü, habelə Rəfiyev Elçin Məmməd oğlu, Şirinov Elşən Şahmar oğlu, Aslanov Yaşar Savalan oğlu və Əhmədov Tahir Telman oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Həsənzadə Cəsarət Gülağa oğlu ifadəsində göstərib ki, 2023-cü il sentyabrın 19-da Ağdərə rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılmış tankəleyhinə idarəolunan raket mərmisinin yaxınlığına düşüb partlaması nəticəsində o və yanında olan Akif Koroğluyev, Hüseyn Babayev və Amin Ələsgərov xəsarətlər alıblar, Füzuli Məmmədov isə həlak olub.

Balakişiyev Ehtibar Təvəggül oğlu ifadəsində qeyd edib ki, 2020-ci il oktyabrın 3-də Beyləqan şəhərinə 3 raket atılıb. Həmin raketlərdən birinin yol kənarına düşməsi nəticəsində xəsarət alıb.

Zərərçəkmiş İbrahimov Nadir Əli oğlu ifadəsində göstərib ki, 2020-ci il oktyabrın 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhəri, Əziz Əliyev küçəsinə atılan raket zərbəsinin təsirindən evi dağılıb. Həmin vaxt onunla birlikdə 1 yaşlı nəvəsi Emil İbrahimov və arvadı Süheyla İbrahimova ətrafda olan şəxslərin köməyi ilə dağıntılar altından çıxarılıblar. Hadisə nəticəsində hər üçü xəsarət alıb. Yaşadıqları ərazidə hər hansı bir hərbi təyinatlı obyekt olmayıb.

Digər zərərçəkmiş Həsənova Lalə Akif qızı ifadəsində bildirib ki, 2020-ci il oktyabrın 4-də yaşadığı Gəncə şəhəri, Nəriman Nərimanov prospektindəki evə Ermənistan silahlı qüvvələri tərəfindən atılmış raket zərbələrinin təsirindən özü və qızı Nigar xəsarətlər alıblar, oğlu İlyasın sol qolu və barmaqları sınıb. Zərbənin təsirindən evləri dağılaraq yararsız hala düşüb.

Zərərçəkmiş Teymurov Fərid Füzuli oğlunun hüquqi varisi Teymurov Füzuli Əjdər oğlu ifadəsində bildirib ki, oğlu Fərid 2020-ci il oktyabrın 7-də Suqovuşan kəndi ərazisində itkin düşüb, onun nəşi yalnız 2021-ci il yanvarın 2-də tapılıb.

Zərərçəkmiş Kərimov Elmir Rəhim oğlunun hüquqi varisi Kərimov Rəhim Həkim oğlu ifadəsində bildirib ki, oğlu 2020-ci il oktyabrın 1-də Talış-Suqovuşan istiqamətində Ermənistan silahlı qüvvələrinin atdığı minaatan mərmisinin partlaması nəticəsində həlak olub.

Zərərçəkmiş Quliyev Elçin Rövşən oğlunun hüquqi varisi Quliyev Rövşən Balay oğlu oğlunun 2020-ci il sentyabrın 29-da, zərərçəkmiş Cəfərov Oruc Vaqif oğlunun hüquqi varisi Cəfərov Vaqif Mahmud oğlu övladının 2020-ci il oktyabrın 1-də, zərərçəkmiş Nağıyev Baloğlan Müdəhət oğlunun hüquqi varisi Nağıyev Müdəhət Baloğlan oğlu övladının 2020-ci il oktyabrın 5-də, zərərçəkmiş Cəfərov Təbriz İlqar oğlunun hüquqi varisi Cəfərov İlqar Qərib oğlu ifadəsində övladının 2020-ci il oktyabrın 30-da Ermənistan silahlı qüvvələrinin Suqovuşan kəndi istiqamətində açdığı atəşlər nəticəsində həlak olduqlarını bildiriblər.

Məhkəmə iclası digər ifadələrin oxunması ilə davam etdirilib.

Məhkəmə prosesi oktyabrın 27-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.




## Suya və toza davamlı ilk insanabənzər robot

**Çinin "Deep Robotics" şirkəti "DR02" adlı insanabənzər robotunu təqdim edib. Robot çətin sənaye və açıq hava şəraitində tapşırıqları yerinə yetirmək üçün nəzərdə tutulub. Onun konstruksiyası suya və toza qarşı qorunma ilə seçilir.**



Robotun iş temperaturu diapazonu mənfi 20 dərəcədən müsbət 50 dərəcəyə qədərdir. Bu da ona mürəkkəb elektron avadanlıqların istifadə edilmədiyi şəraitdə - açıq hava obyektlərində, soyuducu anbarlarda və yüksək temperaturlu istehsalat sexlərində fəaliyyət göstərməyə imkan verir.

Hündürlüyü 175 sm olan robot 20 kiloqrama qədər olan yükləri rahatlıqla daşıya bilir. Sabit şəkildə hərəkət edən cihazın yerimə sürəti 1,5 m/s-dir. "DR02" daxili sensorlarla təchiz olunub ki, bu da ona ətraf mühit siqnallarını emal etməyə imkan verir. Sənaye şəraitində texniki xidmət tapşırıqlarının müəyyən məhdudiyyətlər daxilində yerinə yetirilməsini nəzərə alan "Deep Robotics" robotun qollarının və ayaqlarının tez dəyişdirilə bilməsi imkanını təmin edib.

Robotun praktik tətbiq potensialı barədə nəticə çıxarmaq üçün onun real pilot proqramlarda necə fəaliyyət göstərəcəyini və mövcud iş proseslərinə nə dərəcədə tez inteqrasiya oluna biləcəyini müşahidə etmək lazımdır. Cihazın tam avtonom rejimdə nə qədər funksional olduğu, bir batareya ilə neçə saat işləyə bildiyi və qiyməti hələ ki, açıqlanmayıb.

## Yeni süni intellekt modeli

**"Apple" və Ohayo Ştat Universiteti tədqiqatçıları "Few-Step Discrete Flow-Matching" (FS-DFM) adlı yeni diffuziya modelini yaradıblar. Bu model oxşar sistemlərdən 128 dəfə daha sürətli mətn yarada bilir.**



Bu barədə "FS-DFM: az addımlı diffuziya dil modelləri ilə uzun mətnlərin sürətli və dəqiq generasiyası" adlı tədqiqat işində qeyd edilib. Tədqiqatın nəticələrinə əsasən, FS-DFM cəmi 8 sürətli təkmilləşdirmə addımı ilə tam mətn parçası yarada bilir. Müqayisə üçün, digər diffuziya modelləri eyni nəticəni əldə etmək üçün 1000-dən çox addım tələb edir. Bu nəticəyə nail olmaq üçün tədqiqatçılar üçmərhələli yanaşmadan istifadə ediblər. Əvvəlcə model fərqli təkmilləşdirmə iterasiyalarını emal etməyi öyrənir, daha sonra "müəllim" istiqamətləndirici modeli tətbiq edilir ki, bu da hər iterasiyada təyin olunmuş mətn çərçivəsindən çıxmadan daha böyük və dəqiq yeniləmələr etməyə kömək edir. Nəhayət, tədqiqatçılar hər iterasiyanın işləmə mexanizmini optimallaşdırırlar, beləliklə, model daha sabit fəaliyyət göstərir və nəticəyə daha az addımla çatır.

Daha böyük diffuziya modelləri ilə müqayisədə FS-DFM iki əsas göstərici - perpleksiya və entropiya üzrə yaxşı nəticələr göstərib. Perpleksiya göstəricisi dil modellərində mətnin keyfiyyətini əks etdirir. Bu göstərici nə qədər aşağı olarsa, mətn bir o qədər dəqiq və təbii səslənir. Entropiya isə modelin hər sözü nə dərəcədə inamla seçdiyini göstərir. Əgər entropiya çox aşağıdırsa, mətn təkrarlanan və ya asanlıqla proqnozlaşdırılan ola bilər. Əgər çox yüksəkdirsə, mətn əlaqəsiz və təsadüfi sözlər toplusu kimi görünə bilər. Tərtibatçılar nəticələrin təkrarlanmasının qarşısını almaq və gələcək tədqiqatları asanlaşdırmaq üçün modelin kodunu və yoxlama nöqtələrini paylaşmağı planlaşdırırlar.

## "Honor"dan konsept smartfon

**"Honor" şirkəti "Robot Phone" adlanan konsept smartfonunu təqdim edib. Cihazın əsas xüsusiyyəti qatlana bilən mexaniki manipulyatora bərkidilmiş kameradır. Kamera süni intellektin köməyi ilə avtomatik fırlanaraq istənilən istiqamətdə çəkiliş apara bilir və bu da müxtəlif bucaqlardan çəkiliş üçün yeni imkanlar yaradır.**



Məlumata görə, smartfon hələlik yalnız kompüter qrafikası şəklində konsept formatında mövcuddur. Onun gövdəsi adi smartfonlarla müqayisədə xeyli geniş görünür, arxa paneldə isə brend loqosunun əvəzinə yunan hərfi alfa yerləşdirilib. Bu işarə "Honor"un özünü süni intellekt ekosistemlərinin aparıcı təchizatçısına çevirməyi hədəfləyən korporativ strategiyasını - "Honor Alpha Plan proqramı"nı simvolizə edir.

Şirkətdən bildirilib ki, "Robot Phone" sadəcə bir alət deyil, həm də emosional yoldaşdır. O, robot kimi hiss edə, uyğunlaşa və müstəqil şəkildə inkişaf edərək sahibinin həyatını daha da zənginləşdirə bilir. Konsept haqqında daha ətraflı məlumat gələn ilin yazında keçiriləcək "MWC 2026" sərgisində açıqlanacaq.

## İnnovativ ürək preparatının klinik testlərinə başlanılıb

**Amerikalı alimlər ürəyin təbii mexanizmlər vasitəsilə bərpasını təmin edən "AD-NP1" preparatının klinik sınaqlarının birinci mərhələsinin başladığını elan ediblər. Hazırda dərman ürək-damar xəstəliklərinin müalicəsində sınaqdan keçirilir, lakin onun digər daxili orqanların regenerasiyası üçün də potensialı var.**

İlkin tədqiqat mərhələlərində Kaliforniya Universitetinin alimləri ürək toxumasının sağalmasını bloklayan bir zülal aşkarlayıblar. Təcrübələr göstərib ki, infarktdan sonra "ENPP1" səviyyəsi yüksəlir və bu zülal hüceyrələrin enerji istehsalını və funksiyasını pozan molekulyar hadisələr zəncirini işə salır. Daha sonra tədqiqatçılar "ENPP1" zülalını bloklamağa nail olublar ki, bu da ürək toxumasının bərpasına və çapıqlaşmanın azalmasına səbəb olub.

Yeni texnologiya siçan və meymunlarda ürək funksiyasını yaxşılaşdırıb və ürək çatışmazlığının inkişafının qarşısını alıb. "AD-NP1" preparatı xüsusi olaraq yalnız "ENPP1" zülalına təsir göstərmək üçün hazırlanmış monoklonal anticisimdir. Enerji istehsal yolları müxtəlif hüceyrə tiplərində eyni olduğuna görə, tədqiqat müəlliflərinin fikrincə, bu preparat müxtəlif daxili orqan toxumalarının bərpası üçün də effektiv ola bilər. Lakin bu fərziyyə ilkin klinik sınaqların nəticələrindən sonra yoxlanılacaq.

## "Ağıllı külək turbinləri"



**İtaliyanın "Gevi Wind" şirkəti külək turbinlərinin pərlərinin hücum bucağını tənzimləyən süni intellekt sistemi hazırlayıb.**

Süni intellekt pərlərin bucağını hər neçə millisaniyədən bir tənzimləyir, bunun üçün yalnız küləyin istiqaməti və gücü haqqında deyil, həm də qonşu pərlərin yaratdıqları turbulentlik barədə məlumat alır. Bu yanaşma külək enerjisi hasilatının səmərəliliyini xeyli artırır və Avropa miqyasında şəhər külək energetikasının inkişafı üçün əsas ola bilər.

Şirkət 2022-ci ildə təsis edilib. O, şaquli yerləşdirilmiş pərlərə malik külək generatorları hazırlayır. "Gevi Wind" markalı generatorun hündürlüyü 3 metr, rotor diametri isə 5,4 metrdir. O, küləyin sürəti 2,5 m/s-yə çatdıqda 3-5 kVt güc hasil edə bilir. Kompakt ölçülərinə görə bu qurğular binaların damlarında və sıx tikinti mühitlərində quraşdırıla bilər. Aşağı səs səviyyəsi binalara yaxın yerləşdirilən külək turbinləri üçün əsas tələblərdən biridir. "Gevi Wind" sistemi 10 metr məsafədə 38 desibeldən yüksək səs yaratmır. Bundan əlavə, qurğunun kiçik ölçüləri onun quraşdırılmasını qüllə tipli turbinlərdə tələb olunan iri kranlardan istifadə etmədən həyata keçirməyə imkan verir. Belə sistemlərin texniki xidməti də daha sadə və ucuz olacaq.

Kiçikölçülü "ağıllı külək turbinləri" üzərində aparılan sınaqlar göstərib ki, real vaxt rejimində pərlərin hücum bucağını avtomatik tənzimləyən süni intellekt sistemi ilə təchiz edilmiş turbinlər sabit pərli modellərlə müqayisədə enerji istehsalını 60 faiz artırır. Həmçinin süni intellekt pərlərə düşən mexaniki yüklənməni 80 faiz azaldır ki, bu da qurğunun istismar müddətini uzadır.

Şirkət tammiqyaslı istehsala keçidi sürətləndirmək üçün 2,7 milyon avro maliyyə dəstəyi alıb. Layihə uğurlu olarsa, süni intellektlə təchiz edilmiş külək turbinləri Avropanın bir çox şəhərində quraşdırılacaq.

## Süni əzələ

**Cənubi Koreyanın Ulsan Milli Elm və Texnologiya İnstitutunun (UNIST) tədqiqatçıları eyni anda həm sərt, həm də elastik ola bilən yeni növ süni əzələ növü hazırlayıblar.**

Onun çəkisi cəmi 1,25 qram olsa da, çəkisindən 4000 dəfə artıq, yəni 5 kq yük qaldıra bilir. Bu yenilik yumşaq robot texnologiyası, protezləşdirmə və qoşula bilən cihazlar üçün yeni imkanlar aça bilər.

Süni əzələlərin yaradılması mühəndislikdə ən mürəkkəb problemlərdən biri olaraq qalır. Adətən belə materiallar ya yumşaq və elastik, amma zəif, ya da möhkəm və davamlı, amma qeyri-elastik olur. Bu isə texnologiyanın robotlarda tətbiqini məhdudlaşdırır. UNIST komandası isə bu maneəni aşmağı bacarıb. Alimlər elə bir əzələ yaradıblar ki, o, yük altında sərtləşir, büzülmə zamanı isə yumşalır. Yəni mahiyyət etibarilə güc və elastiklik rejimləri arasında keçid edə bilir. Büzülmə zamanı cihaz 86,4 faiz nisbətində deformasiyaya uğrayır ki, bu göstərici insan əzələlərindən 2 dəfə çoxdur.

Material qızdırıldıqda ilkin uzunluğundan 12 dəfə çox uzana bilir. Lakin bununla belə idarəolunan və sabit qalır. Bu unikal xüsusiyyətin sirri ikiqat polimer şəbəkəsindədir. O, möhkəm kovalent bağları və temperaturla aktivləşən müvəqqəti fiziki qarşılıqlı təsirləri birləşdirir. Əlavə olaraq, əzələnin tərkibinə maqnit mikrozərrəcikləri daxil edilib ki, bu da onun hərəkətinə xarici maqnit sahəsi vasitəsilə nəzarət etməyə imkan verir. Tədqiqatçılar qeyd edirlər ki, bu texnologiya yumşaq robotlardan və hərəkətə uyğunlaşan elastik protezlərdən tutmuş ağıllı ekzoskeletlərə və yüksək həssaslığa malik tibbi cihazlara qədər müxtəlif sahələrdə tətbiq oluna bilər.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Texnoloji inkişaf və müasir ticarət mədəniyyəti

## Ağıllı alış-veriş həm də həyat keyfiyyətini yüksəldir

**Marketlər gündəlik həyatımızın ayrılmaz hissəsidir. Dükan-bazarlarda təkcə alver edilmir, həm də satıcı və alıcı davranışları formalaşır. Qiymətlərin təqdimatı, yeni texnologiyalarla müştəriyə yönəlmiş xidmətlər alıcıların seçimlərinə təsirsiz ötüşmür. Bu baxımdan müasir dövrdə alış-veriş yalnız sadə bir bazarlıq yox, həm də iqtisadi, sosial və texnoloji bir prosesdir.**



Və həmin prosesdə bu gün ən çox diqqətçəkən məqamlardan biri endirimlərdir. Alıcıların böyük hissəsi hansısa məhsulu endirimdə görəndə real ehtiyacını düşünmədən onu səbətə əlavə edir. Buna görə də "sale" (yəni endirim) ticarət obyektlərinin illərdir tətbiq etdiyi satış strategiyasıdır. "...faiz endirim", "1 al+1 hədiyyə" və ya "2-si bir yerdə" tipli kampaniyalar müştərini cəlb etməklə onu əlavə xərcə salır. Buna görə də alış-verişdə hər "endirim"ə inanıb şəxsi büdcəyə əlavə yük yaratmaqdan vaz keçmək lazımdır.

Amma son illər marketlərdə müsbət trendlər də meydana çıxıb. Sağlam həyat tərzinə artan ehtiyac bio, qlütensiz və şəkərsiz məhsullara tələbatı artırıb. O səbəbdən rəflərdə diyetik qidaların ayrıca guşəsi yaradılır ki, bu da insanların qida seçimlərini dəyişir. Artıq alıcı axtardığı məhsulu marketboyu deyil, xüsusi rəfdə axtarır. Digər tərəfdən, mobil ödəniş üsullarının, bank kartlarının və tətbiqlərin geniş yayılması kassada vaxt itkisinin qarşısını alır, eyni zamanda vətəndaşı nağd vəsait gəzdirməkdən azad edir.

Amma ən diqqətçəkən yeniliklərdən biri "ağıllı kassalar"dır. Bu sistemlərdə müştəri kassirə ehtiyac duymadan məhsulunu özü oxudub ödənişini həyata keçirir. Ənənəvi kassalarda növbələr alıcını yorur, "ağıllı kassalar" isə həm sürət, həm də müstəqillik imkanı yaradır. Müştəri səbətini ekranda izləyir, kart və ya mobil tətbiqlə ödənişi yerindəcə tamamlayır. Dünyanın bir çox ölkəsində artıq kassirsiz marketlər də fəaliyyət göstərir - alıcı sadəcə məhsulu götürür, sistem isə çıxışda onun hesabına avtomatik yazır. Azərbaycanda bu texnologiya hələ tam yayılmasa da, gələcəkdə geniş tətbiq olunacağı istisna deyil.

Digər dəyişiklik marketə gəlmədən alış-veriş imkanının artmasıdır. Onlayn platformalar və mobil tətbiqlər müştəriyə vaxt və enerji qənaəti qazandırır. İnsan ehtiyac siyahısını evdən, yaxud ofisdən seçir, məhsullar isə ünvanına çatdırılır. Bu üsul iş qrafiki sıx olan, böyük şəhərlərdə yaşayan alıcılar üçün ideal hesab olunur. Əlavə olaraq, onlayn platformalar geniş müqayisə imkanı verir. Müştəri eyni məhsulu fərqli marketlərdə yoxlayıb ən sərfəli qiyməti seçə bilir.

Onlayn alış-veriş fərdiləşdirilmiş təkliflərlə də seçilir. Süni intellekt alıcının əvvəlki seçimlərini izləyərək ona uyğun endirimlər barədə xəbərdarlıq edir. Məsələn, müştəri hər dəfə eyni süd markasını alırsa, endirim olan kimi tətbiq ona xəbər verir. Bu sistem həm qənaətə, həm də məqsədli alış-verişə şərait yaradır. Çatdırılma xidmətləri də sürətlə inkişaf edir. Beləliklə, evdən çıxmadan bütün alış-verişi idarə etmək mümkün olur.

Bütün bu dəyişikliklər fonunda alış-verişdə ağıllı davranmaq daha da önəm qazanır. Siyahısız marketə girməmək, endirimləri müqayisə etmək, toplu alış-verişə üstünlük vermək və brend deyil, keyfiyyətə diqqət etmək büdcəni qorumağın əsas üsullarıdır. Texnologiyanın inkişafı ilə alış-veriş mədəniyyəti getdikcə fərqli istiqamətə gedir. Gələcəkdə süni intellektin daha çox inteqrasiya olunacağı, avtomatlaşdırılmış kassaların yayılacağı və onlayn platformaların əsas üstünlük qazanacağı gözlənilir.

Marketlərdə endirimlər, texnoloji yeniliklər və onlayn xidmətlər alıcı davranışlarını sürətlə dəyişir. Amma bütün hallarda şüurlu və planlı yanaşma ilə həm vaxtı, həm də büdcəni qorumaq mümkündür. Alış-verişi ağıllı idarə etmək yalnız qənaət deyil, həm də həyat keyfiyyətini yüksəldən vərdişdir.

***Nərminə ƏSGƏROVA, "Azərbaycan"***


Azercell

## "Azercell" abunəçilərinin nəzərinə

31.10.2025-ci il tarixindən etibarən "Azercell Telekom" MMC-nin "Kinon" xidməti çərçivəsində təqdim edilən paketlərin şərtlərində dəyişikliklər tətbiq ediləcək. Belə ki, "Azercell Telekom" MMC-dən asılı olmayan səbəbdən "Amediateka" şirkəti tərəfindən müvafiq xidmətin ləğv olunması ilə əlaqədar olaraq bu paket üzrə xidmət göstərilməsi dayandırılacaq.

"Kinon Plus" paketində yalnız TV kanalları və "Wink", "Viju", "Premier" platformalarının məzmunundan istifadə mümkün olacaq.

**Qeyd:** *Abunəçilər göstərilən xidmətlərlə bağlı dəyişikliklər, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən digər xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər. Korporativ abunəçilər xüsusi Müştəri Xidmətlərinə ((012)4904940 - şəhər telefonundan, 6050 - mobil telefondan (1 zəng - 0,1 AZN); Bazar ertəsi - Cümə, 09:00 - 18:00; Şənbə, 09:00 - 16:00; e-poçt: destek@azercell.com) müraciət edərək mövcud tariflər, kampaniyalar və xidmətlər haqda məlumat öyrənə, müxtəlif əməliyyatlar həyata keçirə və texniki dəstək ala bilərlər.*


# Bilmək istəyirəm

*Əsas iş yerimdən əlavə, başqa bir müəssisədə də çalışıram. Həmin müəssisədə məni tam ştata təyin etsələr də, vəzifə üzrə tarif maaşının 50 faizini verirlər. Soruşduqda isə bildirirlər ki, maaş əmək müqaviləsi üzrə müəyyənləşdirilmiş iş qrafikinə uyğun hesablanır (işə günün ikinci yarısı gəlirəm). Bu, qanunvericiliyə zidd deyilmi?*

***Fuad ƏLİZADƏ, Sumqayıt şəhəri***

- Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 58-ci maddəsinn 4-cü hissəsinə əsasən, əlavə iş yerində əvəzçilik üzrə əmək fəaliyyəti göstərən işçilərə heç bir məhdudiyyət qoyulmadan əmək qanunvericiliyi ilə müəyyən edilmiş bütün normalar, qaydalar və müddəalar şamil edilir. Eyni zamanda məcəllənin 163-cü maddəsinə görə, əvəzçilik üzrə işləyən işçilərin əməyinin ödənilməsi mövcud əmək şəraiti nəzərə alınmaqla faktiki yerinə yetirilən işə görə ödənilir. O cümlədən əvəzçilik üzrə işləyənlərin tarif (vəzifə) maaşı, mükafatlandırılması, əməkhaqqına əlavələrin, artımların verilməsi əsas işçilər üçün müəyyən olunmuş qaydalara uyğun olaraq həyata keçirilir. Beləliklə, əlavə iş yerində əvəzçilik üzrə işləyən işçilərin əməkhaqqı faktiki yerinə yetirilən işə görə və əsas işçilər üçün müəyyən olunmuş qaydalara uyğun ödənilməlidir. Əgər əlavə iş yerində işçi tam iş günü işləyirsə, onun əməkhaqqı da həmin vəzifə üzrə əsas işçilərə tətbiq olunan qaydalarla, yəni tam tarif (vəzifə) maaşı əsasında hesablanmalıdır.

Əlavə iş yerində əməkhaqqının hesablanması işəgötürənlə bağlanmış əmək müqaviləsində müəyyən edilmiş iş vaxtı və faktiki yerinə yetirilən işin həcminə əsaslanır. Əvəzçilik üzrə işləyən işçilərin əməyinin ödənilməsi mövcud əmək şəraiti və faktiki yerinə yetirilən işə görə həyata keçirilir və onların tarif (vəzifə) maaşı əsas işçilər üçün müəyyən olunmuş qaydalara uyğun olaraq hesablanır. Əgər əmək müqaviləsində iş vaxtı əsas iş yerinə nisbətən az nəzərdə tutulubsa (məsələn, qeyd etdiyiniz kimi, yalnız günün ikinci yarısı), əməkhaqqı da həmin iş vaxtına proporsional ödənilə bilər. Lakin əməkmüqaviləsində iş vaxtı tam ştat kimi göstərilibsə və siz tam iş günü iş yerinizdə olursunuzsa, bu halda tam tarif maaşı ödənilməlidir. Əmək müqaviləsində iş vaxtı və əməkhaqqı şərtləri açıq şəkildə göstərilməli və işçiyə bu barədə məlumat verilməlidir. Yəni əgər faktiki iş vaxtı tam gündürsə, yalnız 50 faiz maaş ödənilməsi qanunvericiliyə ziddir və işçi tam tarif maaşını tələb edə bilər. Əgər iş vaxtı azdırsa, ödəniş də az ola bilər, lakin bu, əmək müqaviləsində dəqiq əks olunmalıdır.

Qeyd edək ki, əlavə iş yerində əmək şəraiti və əməkhaqqı əmək müqaviləsində tərəflərin razılığı ilə müəyyən olunsa da, bu razılaşma əmək qanunvericiliyi ilə müəyyən edilmiş minimum təminatları pozmamalıdır.

*Evimə bitişik əlavə otaqlar tikmək istəyirəm, bunun üçün icazə almaq lazımdır?*

***Lətif VƏLİYEV, Sahil qəsəbəsi***

- Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin tələbinə əsasən, bəli, sizin evinizə bitişik əlavə otaqlar tikmək üçün, əsas qayda olaraq, tikintiyə icazə almağınız tələb olunur. Yalnız yaşayış evlərinin həyətyanı sahəsində hündürlüyü ən çoxu 3 metr və sahəsi ən çoxu 100 kvadratmetr olan yardımçı tikililər üçün tikintiyə icazə tələb olunmur, lakin əlavə otaqlar bu kateqoriyaya aid deyilsə, icazə mütləqdir. Əlavə otaqlar evin əsas hissəsinə aid olduğundan və fasadın qabaritləri dəyişdirildiyindən, bu tikinti üçün müvafiq icra hakimiyyətindən rəsmi icazə alınmalıdır. Qanunsuz tikinti inzibati məsuliyyətə səbəb ola bilər və tikilinin sökülməsi tələbi ilə nəticələnə bilər. Praktikada tikintiyə başlamazdan əvvəl layihə və digər sənədlərlə birlikdə elektron qaydada müraciət edilməlidir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

## Şənbə söhbəti



# Sözü ucuzlaşdıran "söz sahibləri"

**Dostlarımız olmasa, yəqin ki, günlərimiz darıxdırıcı keçər. Elə buna görə də özümüzə, sözümüzə uyğun dostlar tapırıq. Dost isə gərək "dosta tən gələ..." Belə olmayanda dostluğun ömrü qısa olur, yollar ayrılıq dayanacağına tez yaxınlaşır.**

Hamı kimi bizim də özümüzə bab dostlarımız var. Çoxu da qələm əhlidir. Amma hərə bir xüsusiyyətinə görə başqalarından fərqlənir. Arada-bərədə vaxt edəndə onların yazdıqlarını oxuyub yaradıcılıqlarından xəbər tuturuq. Həm maraqlı, həm də maraqsız yazıları olur.

Yazar dostlarımızın özləri kimi yaradıcılıq yolları da bir-birinə bənzəmir, necə deyərlər, eyni ağacın meyvələri deyillər. Güclü, maraqlı yazanı da var, zəif uydurانı da. Tənqidçilər demiş, yaradıcılıqları başdan-başa rəngarəngdir. Rəngarənglik də adamın başını yaman qatır, darıxmağa qoymur.

Dostlarımın arasında bir şairimiz var. İmzasına baxmasan, deyərsən dahidir - misraları bulaq suyu kimi qəlbindən süzülüb gəlir. Necə deyərlər, yazdığı şeirə möhrünü vurur. Başqa bir şair dostum da var ki, onun tam əksidir. Oxuyan kimi fikirləşirsən ki, ondan başqa kimsə belə mənasız misraları kağıza köçürməz. Həmin şair dostumuz özü yaxşı oğlan olsa da, nədənsə şeirləri o qədər də yaxşı deyil. Amma utandığımızdan bunları onun özünə deyə bilmirik. Qorxuruq ki, küsər, inciyər. Ona görə də şeirlərinin necəliyini soruşanda baş barmağımızı yuxarı qaldırırıq. İşarəmizi görəndə kefi xeyli durulur, üzündə təbəssüm yaranır, sanki telləri öz-özünə daranır.

Adını çəkmək istəmədiyim bu şair dostumuz isə şeirlə kifayətlənmir. Yaradıcılığı vulkan kimi püskürüb aşıb-daşanda, beyninə babat mövzunun toxumu düşəndə hekayədən-zaddan da qaralayır. Lakin bir iş var ki, hekayələri də şeirlərinə oxşayır, mənasını, məramını özündən başqa kimsə bilmir. İnsafən deyək ki, dostumuzun hekayələrinin mövzusu maraqlı olur. Girişini də əla toxuyur, ilmələri yerində vurur. Buna görə də oxucunun diqqətini tez cəlb edir. Lakin mövzunu axıra qədər maraqla davam etdirə bilmir. Elə bil istedadını yarıyolda əlindən salıb itirir, ilmələri barmaqlarının arasından sürüşüb çıxır. Buna görə hekayə olur maraqsız. Maraqsız hekayəni də indi heç kim oxumur.

Amma nə olsun, dostumuzun ildə 3-4 kitabı çıxır, baxmayaraq ki, onların 5-6 vərəqini oxuyandan sonra vaxtımızı səmərəli işlərə sərf etmək qərarına gəlirik. Yeri gəlmişkən, yalan-gerçək tanınan tənqidçilərdən biri dostumuzun yaradıcılığını az-çox araşdırandan sonra bu qənaətə gəlib ki, o, düşünmədən yazır. Sərt olsa da, düz deyir. Doğrudan da, kimsə ildə üç-dörd kitab yazırsa, deməli, düşünmür, ağzına və ağlına nə gəlir səpələyir vərəqlərin üstünə, yəni düşünməyə və düşündürməyə vaxtı qalmır. Bu başqa söhbətdir ki, buna istedadı var ya yox. Yəqin ki, yoxdur, olsaydı, indiyəcən üzə çıxardı.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

# "Azərbaycan kosmosu müşahidə edən ölkədən kosmik tədqiqatları formalaşdıran ölkəyə çevrilib"

**Nüfuzlu beynəlxalq "Satellite Evolution" nəşri Azərbaycan Respublikasının Kosmik Agentliyi - "Azərkosmos"un Yer səthinin müşahidəsi və sosial-iqtisadi inkişafı dəstəkləyən peyk həllərinin tətbiqi sahəsində 10 illik fəaliyyətinə həsr olunmuş məqalə dərc edib.**

AZƏRTAC xəbər verir ki, məqalədə "Azərkosmos" tərəfindən "Kosmosdan gələn imkanlar: Kosmik müşahidəmizin sosial-iqtisadi inkişafa töhfəsinin 10 ili" tədbirinin yüksək səviyyədə təşkil olunduğu vurğulanır.

"Satellite Evolution" vurğulayıb ki, tədbir dövlət qurumlarını, biznesi, elmi dairələri və media nümayəndələrini bir araya gətirərək Yer müşahidəsi texnologiyalarının məlumatları real həllərə çevirdiyini nümayiş etdirib - bu da dövlət və özəl sektora daha çevik, effektiv və dayanıqlı qərarlar qəbul etməyə imkan yaradır.

Nəşr xüsusilə "Peyk xidmətləri Azərbaycanın inkişafına necə töhfə verir" adlı sessiyaya diqqət çəkib. Burada Azərbaycanın ilk yüksəkdəqiqlikli müşahidə peyki "Azersky" vasitəsilə əldə olunan məlumatların praktiki tətbiq nümunələri təqdim olunub. Fəaliyyəti dövründə "Azersky" 80 mindən çox yüksəkdəqiqlikli təsvir arxivi yaradıb. Bu məlumatlar bir sıra sahələrdə geniş istifadə olunur: kənd təsərrüfatı - əkin planlamasının optimallaşdırılması və məhsuldarlığın monitorinqi; ekologiya və iqlim - meşələrin qırılması, torpaq deqradasiyası və çirklənmənin izlənməsi; şəhərsalma - "ağıllı şəhərlər" və infrastruktur layihələrinin dəstəklənməsi; su və torpaq idarəçiliyi - təbii resursların qiymətləndirilməsi və səmərəli istifadəsi.

Nəşr qeyd edir ki, "Azərkosmos" artıq tam peyk ekosistemi formalaşdırır. Agentlik öz Coğrafi İnformasiya Sistemi (CİS) Mərkəzi vasitəsilə təxminən 1000 yerli və beynəlxalq layihəyə dəstək göstərib.

"Satellite Evolution" həmçinin bildirir ki, hazırda "Azersky-2" adlı növbəti nəsil peykin hazırlanması üzərində işlər aparılır. Bu layihə Azərbaycanın kosmik texnologiyalar sahəsində imkanlarını daha da gücləndirəcək.

Nəşrin fikrincə, "Azərkosmos" artıq qlobal səviyyədə etibarlı peyk xidmətləri təminatçısı kimi tanınır və Azərbaycan kosmosu sadəcə müşahidə edən deyil, fəal şəkildə onun tədqiqatlarını formalaşdıran ölkəyə çevrilib.

"Azərkosmos" bütün dünyadan tərəfdaşları kosmosun açdığı sonsuz imkanları birgə kəşf etməyə dəvət edir", - deyə "Satellite Evolution" vurğulayır.

# Hava əsasən yağmursuz olacaq

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər və axşam bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Səhər bəzi yerlərdə zəif duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 14-16, gündüz 19-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 10-15, gündüz 20-25, dağlarda gecə 3-7, gündüz 11-16 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Əmək Müfəttişliyi Xidmətinin əməkdaşı

**VÜSAL QURBANLININ**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabinetinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Zakir Paşayevə əzizi

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4085
Sifariş 2163

Qiyməti 60 qəpik